www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 31 mart 2015-ci il Çərşənbə axşamı № 66 (6094) Qiyməti 40 qəpik

**Xəbər**

## Məmur oğlu sərxoş maşın sürdüyünə görə həbs edildi

yazısı səh.14-də

**Gündəm**

### Cahangir Hacıyevi bitirən ilginc səbəb ortaya çıxdı - yeni məlumatlar



Beynəlxalq Bankın sabiq sədri devalvasiyadan yüz milyonlar qazansa da, dövlətə ciddi ziyan dəyib; Mərkəzi Bank sədri və maliyyə naziri Samir Şərifov prezidentə nələri məruzə ediblər?

yazısı səh.10-da

### Apreldə növbəti iqtidar-müxalifət görüşü gözlənilir

yazısı səh.3-də

### Cəmil Həsənlinin ittihamları aranı qatdı

yazısı səh.5-də

### Müsavat Məclisinin üzvündən narazılara xəbərdarlıq

yazısı səh.6-da

### "Azərbaycan Dağlıq Qarabağın ətrafındakı rayonları azad etməyə hazırlaşır"

yazısı səh.8-də

### TANAP: Türkiyə ilə Azərbaycanın yeni və ortaq güvənlik kəməri

yazısı səh.9-da

### Məmurların bölüşdürdüyü rayon - Ağsu...

yazısı səh.13-də

### Ərdoğan sərt tənqid elədiyi İrana səfərə gedir

yazısı səh.9-da

### Gəncə SOS Uşaq Kəndində işgəncə iddiası...

yazısı səh.15-də

### Göyçayda ağır qəza: 1 ölü

yazısı səh.14-də

### Türkiyə vətəndaşı keçmiş arvadını Bakıda doğradı

yazısı səh.15-də

### Ülkər İsayevanın döyülməsi işində yeni detallar

yazısı səh.12-də

"Ermənistan rəhbərliyi özünü lal-karlığa vurub..."

# QARABAĞDA GECƏ DÖYÜŞLƏRİ: ÇOXLU ERMƏNİ ƏSGƏRİ ÖLDÜRÜLDÜ!

**Müdafiə Nazirliyi:** "Düşmənin itkiləri daha böyükdür..."; Azərbaycan tərəfə qaçmış Andranik Qriqoryanın işğalçı orduda başıpozuqluğun hökm sürdüyü barədə dedikləri bir daha təsdiqini tapır; erməni hərbçiləri arasında vərəm və suçiçəyi epidemiyası da yayılıb...



yazısı səh.8-də

## Ağsu qatilinin ölüm siyahısındakı şok adlar "Yeni Müsavat"da

Ramiz Ələkbərovun aradan götürəcəyini anons etdiyi şəxslər sırasında YAP İdarə Heyətinin üzvü, idarə rəisi və bir sahibkar var; Ağsunun icra başçısı 30 il həbs yatmış cinayətkara avtomobil hədiyyə edibmiş...

yazısı səh.5-də



### "Neftçi" klubu yazıçı Çingiz Abdullayevə tapşırılır

yazısı səh.4-də



*İqbal Ağazadə:*

### "Neftin qiyməti büdcədə 50 dollardan götürülməlidir"

yazısı səh.6-da



*Abdulla Abdullayev:*

### "Bəraət almasam, ürəyim partlayar"

yazısı səh.12-də

**31 mart 2015**

## Müsavatın Divanı toplandı

**Müsavat Partiyası Divanının növbəti iclası keçirilib. Divanda qərarların icrası və görülən işlər barədə məlumat verilib. Musavat.com-a verilən məlumata görə, Novruz bayramı günlərində müsavatçı siyasi məhbuslar, başqan müavinləri - Tofiq Yaqublu, Yadigar Sadıqlı və Fərəc Kərimlinin ailə üzvləri ni ziyarət edilməsi haqqında məlumat verilib. Beyləqan, Ağcabədi və Qaradağ rayon təşkilatlarının üzvləri ilə keçirilən görüşlər barədə Müsavat Partiyası başqanının müşaviri Dadaş Əhmədov və Divan üzvü Elman Fəttah məlumat verib.**

Partiyanın başqanı Arif Hacılı və başqan müavini Elman Fəttahın Tbilisiyə səfəri və orada baş tutan görüşlər barədə məlumat dinlənilib. Gürcüstanda fəaliyyət göstərən hakim koalisiyanın üzvü Respublikaçılar Partiyası ilə müttəfiqlik münasibətləri çərçivəsində aparılan müzakirələrin səmərəli olduğu qeyd edilib və bu istiqamətdə əməkdaşlığın intensivliyinin artırılması məqsədəuyğun sayılıb.

Yığıncaqda partiya Məclisinin növbəti toplantısının aprelin 4-də saat 11.00-da keçirilməsi və Məclisin gündəlik layihəsi razılaşdırılıb. Divanda keçirilməsi nəzərdə tutulan mitinqlə bağlı ətraflı müzakirələr aparılıb. Mitinqlə bağlı məsələnin partiyanın növbəti Məclisində müzakirəyə çıxarılması məqsədəuyğun hesab edilib. Toplantıda siyasi məhbusların məhkəmələrinin diqqətdə saxlanılması barədə tapşırıq verilib. Divanda Yəməndə baş verən hadisələr müzakirə olunub, bu hadisələrin nəticələrindən narahatçılıq ifadə edilib.

## Qubad İbadoğlu ABŞ Dövlət Departamentində görüşlər keçirib


Qubad İbadoğlu

**Martın 30-da Azərbaycan Demokratiya və Rifah (ADR) Hərəkatının sədri Qubad İbadoğlu ABŞ Dövlət Departamentində Demokratiya, İnsan Haqları və Əmək Bürosunun xarici işlər üzrə məsul əməkdaşı Vendi Silvərmanla, Qafqaz məsələləri və regional münaqişələr üzrə ofisinin Azərbaycan bölməsinin rəhbəri Cinthiya Kookla, Enerji siyasəti üzrə bölmənin əməkdaşı Haley Raysla görüşüb.**

Musavat.com bu barədə xəbəri Q. İbadoğlundan alıb. Onun dediyinə görə, Vaşinqtona səfəri çərçivəsində Q. İbadoğlu Amerikanın Azərbaycandakı keçmiş səfiri, Corc Mason Beynəlxalq əlaqələr, hökumət və siyasət məktəbinin professoru, Enerji araşdırmaları və siyasəti mərkəzinin direktoru Riçard Kozlarıçlə, Demokratiyanı Milli Himayə İnstitutunun prezidenti Karl Gerşmanla, Açıq Cəmiyyət Fondunun Avrasiya proqramının rəhbəri Jeff Qoldsteynlə, Demokratik aradırmalar üzrə beynəlxalq forumunun icraçı direktoru Kristofer Walkerlə, Dünya Demokratiya Hərəkatının rəhbəri Art Kaufmanla, Beynəlxalq Özəl Sahibkarlıq Mərkəzinin icraçı direktoru John Sullivam, proqram rəhbəri Lars Bonsonla, Avrasiya üzrə proqram direktoru Natalia Otel Belan və proqram direktorunun müavini David Markla, Medianı Dəstək Beynəlxalq Mərkəzinin baş direktoru Mark Nelsonla görüşərək müzakirələr aparıb.

## Yəmən savaşı getdikcə böyüyür

**Pakistan hökuməti Yəmənə Husilərə qarşı hərbi əməliyyatlarda iştirak etmək üçün Səudiyyə Ərəbistanına əsgər göndərəcəyi barədə qərar qəbul edib. «Daily Star» xəbər agentliyi bu məlumatı Pakistan hökumətindəki mənbələrinə isrinadən yayıb. (ANS)**

Xəbərə görə, Yəmənə göndəriləcək əsgərlərin sayı hələlik dəqiq bilinmir. Qeyd edək ki, Ərəb Dövlətləri Liqası Vahid Ərəb Ordusunun yaradılması barədə qərar qəbul edib. Bu isə o deməkdir ki, Yəməndə quru əməliyyatlarına start veriləbilər.

Rusiya prezidenti Vladimir Putin isə ərəb ölkələrinə səslənərək bildirib ki, Yəməndəki böhran sülh yolu ilə həll olunmalıdır.

## "Pilotun özünəqəsd meylliliyi olub"

**Psixiatrlar A320 təyyarəsini qəzaya uğratmaqda şübhəli bilinən ikinci pilot Andreas Lübitsdə bir neçə il ərzində suisidə meyllilik qeyd ediblər. Musavat.com BBC-yə istinadən xəbər verir ki, bu barədə aviaqəzanı araşdıran Düsseldorf Prokurorluğundan bildirilib.**

Prokurorluğun mətbuat katibi Ralf Xererenbryukun sözlərinə görə, hələ ki istintaq pilotun layneri niyə məhv eləmək istəməsinin motivini müəyyənləşdirməyib və uçuş zamanı onda fiziki halsızlıqlar aşkar eləməyib. Xatırladaq ki, A320 sərnişin təyyarəsinin Fransadakı Alp dağlarına çırpılması nəticəsində ekipaj üzvləri də daxil, 150 nəfər həlak olub. İlkin versiyaya görə, Andreas Lübits gəminin komandirinin (əsas pilot) kabinədən müvəqqəti çıxmasından istifadə edərək, qapını arxadan bağlayıb və qəzanı qəsdən törədib.

## Dələduzluqda təqsirləndirilən vəkilin məhkəməsi başladı

**Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən vəkil Mənsum Bayramovun cinayət işi üzrə məhkəmə prosesi başlayıb. APA-nın məlumatına görə, prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib. Prosesin baxış iclası isə aprelin 7-nə təyin edilib. Qeyd edək ki, M. Bayramov bir müddət əvvəl saxlanılıb. O, Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsinə əsasən ittiham edilir. Onu da qeyd edək ki, Mənsum Bayramov 2005-ci ildə Mərkəzi Seçki Komissiyasının AXCP-dən namizədliyi irəli sürdüyü üzvü olub.**

# Bəşər Əsədə qarşı vuruşanların məhkəməsi başladı

## Müdafiə tərəfinin vəsatətləri təmin olunmadı; valideynlər ölkə başçısına müraciət etdilər

**Martın 30-da Bakı Ağır Cinayətlər Məhkəməsində Suriyadakı döyüşlərdə iştirak etmək ittihamı ilə həbs olunan şəxslərdən Mustafayev Ruslan, Məmmədov Namiq, Muradov Fərid, Əliyev Elvin, Həsənov Tural və Mustafayev Tariyelin məhkəməsi başlayıb.**



Proses 11:00-da Ənvər Seyidovun sədrliyi ilə başladı. Hakim təqsirləndirilən şəxs Məmmədov Namiqin vəkili Müzəffər Baxışın işin icraatına xitam verilməsi ilə bağlı vəsatətinə baxılacağını elan etdi. Prokuror məhkəmə baxışının təyin olunmasının vacibliyini vurğuladı.

Digər təqsirləndirilən şəxs Tural Həsənovun vəkili Elmar Süleymanov məhkəmə qarşısında bir sıra vəsatətlərlə çıxış etdi. O, təqsirləndirilən şəxslərin vəkillərin yanında əyləşməsini istədi. Vəkilin vəsatətlərindən biri də sübutlar olmadığına görə işin ibtidai istintaqa qaytarılması ilə bağlı oldu.

Dövlət ittihamçısı verilən bütün vəsatətlərin əleyhinə çıxış etdi.

**Müdafiə tərəfinin vəkillərindən olan Osman Kazımov verilən vəsatətləri dəstəklədiyini bildirdi:** "Nə qədər ki, hökm yoxdur, müdafiəni qurmaq üçün təqsirləndirilən şəxsin vəkilinin yanında oturması vacibdir. Sübutlar varsa, vəkillər olaraq, bizə də təqdim olunmalıdır. Verilən vəsatətlər əsaslıdır".

Təqsirləndirilən şəxslər və digər vəkillər də vəsatətləri müdafiə etdilər. Bundan sonra məhkəmə heyəti qərar qəbul etmək üçün müşavirəyə yollandı.

**Hakim müşavirədə olarkən təqsirləndirilən Mustafayev Tariyel mediaya üzünü tutaraq dedi ki, heç bir günahı yoxdur:** "Doğrudur Suriyaya getmişdim. Amma orda baş verən hadisələri gördükdən sonra vətənə qayıtdım. Heç bir cinayət törətməmişəm. Xahiş edirəm ki, bizə kömək edəsiniz".

Müşavirədən qayıdan məhkəmə heyəti qərarını açıqladı. Vəsatətlərin heç biri təmin olunmadı. Məhkəmə baxışının təyin olunması barədə qərar qəbul edildi.

**Prosesdən sonra Tural Həsənovun atası Namiq Həsənov oğlunun həbsi barədə "Yeni Müsavat"a danışdı:** "Cinayəti oğlum da daxil olmaqla, bu şəxslərin üzərinə atıblar. Olmaz axı belə. Nə etsələr, insafı əldən verməsinlər. Səhvləri olsa belə, yazıqdılar axı. Ürəkləri istəyib, müsəlman kimi gediblər. Görüblər ki, vəziyyət tamam başqa cürdür. Dərhal qayıdıblar. Cəmi 20 gün orada olublar. Bu günə 15-20 il iş verərlər? Bu qədər haqsızlıq olmaz. Prezidentimizə müraciət edirəm ki, bu gəncləri azadlığa buraxsın. Onların cinayətləri yoxdur. Əgər ittihamlar doğru olsa, biz də bir qədər rahat olarıq".

Xatırladaq ki, Suriyada baş verən hadisələrdə iştirak etmək ittihamı ilə ölkəmizdə 40-a yaxın şəxs həbs edilib. Onları ittiham edildikləri maddələr üzrə 15 ildən 20 ilə qədər azadlıqdan məhrumetmə cəzası gözləyir.

**Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**



## Prezident yeni bulvarda oldu

**Prezident İlham Əliyev Bakı Ağ Şəhər bulvarında həyata keçirilən inşaat işlərinin gedişi ilə tanış olub. Dövlət başçısına layihə çərçivəsində görülən işlər barədə məlumat verilib. Bakı sakinlərinin və şəhərin qonaqlarının istirahəti üçün Ağ Şəhər bulvarında infrastruktur ən müasir tələblər səviyyəsində olacaq, müasir iaşə və xidmət obyektləri yaradılacaq. Burada dənizkənarı piyada yolları çəkiləcək, xüsusi yaşıllıq zonaları yaradılacaq, müxtəlif sahilbərkitmə işləri həyata keçiriləcək. Həmçinin bulvarda hərəkətin təhlükəsizliyini təmin etmək üçün piyada keçidləri də inşa ediləcək. Dövlət başçısı yeni bulvarın müxtəlif yerlərində aparılan inşaat işlərinin gedişi ilə maraqlanıb və müvafiq tapşırıqlarını verib.**



## Ziya Məmmədovun qardaşı yeni qatarların şərəfinə şampan sındırdı

**"Uralvaqonzavod" Azərbaycanın sifariş etdiyi vaqonların ilk hissəsini göndərir. "Qafqazinfo" Rusiya KİV-nə istinadən xəbər verir ki, dünən müqavilənin detallarını danışmaq üçün "Azərbaycan Dəmir Yolları"nın nümayəndələri şirkətin baş direktoru Oleq Sienko ilə görüşüblər. Görüş bu yaxınlarda "Azərbaycan Dəmir Yolları"nın sifariş etdiyi müxtəlif model yük vaqonlarının alış-satışı ilə bağlı imzalanan müqavilənin reallaşdırılması çərçivəsində baş tutub. Artıq sifariş olunan vaqonların ilk hissəsi iki həftə sonra Azərbaycana göndəriləcək. Azərbaycan nümayəndə heyəti yeni vaqonlarla tanış olublar, həmçinin Oleq Sienko və millət vəkili Elton Məmmədov göndərilməsi nəzərdə tutulan vaqonların biri üzərində şampan şüşəsi sındırıblar.**

bakcell

## Asan İmza güzəştli kampaniyasının bitməsinə bir ay qalır

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti abunəçilərin nəzərinə çatdırır ki, 30 aprel 2015-ci il tarixində "Asan İmza" mobil elektron imza xidmətinə qoşulmaya dair qüvvədə olan güzəştli kampaniyanın müddəti bitir.**

Xatırladaq ki, ötən ilin 16 may tarixindən etibarən qüvvədə olan bu kampaniya çərçivəsində hər üç "Asan İmza" istifadəçi kateqoriyası (vətəndaşlar - fiziki şəxslər, hüquqi şəxslərin nümayəndələri, dövlət qulluqçuları) üzrə xidmətə qoşulma qiymətləri endirilərək 18 AZN təşkil edirdi və bununla əvvəlki qiymətlərlə müqayisədə "Asan İmza"nın əldə edilməsi üzrə vətəndaşlara 40 faiz, hüquqi şəxslərin nümayəndələrinə 90 faiz, dövlət qulluqçularına isə 80 faiz qənaət etmək imkanı yaradılmışdı.

İstifadəçilər arasında "Asan İmza" mobil elektron imzanın artan populyarlığı, eləcə də "Asan İmza"nın effektiv qənaət aləti olduğu nəzərə alınaraq, bu xidmətə qoşulma üzrə qiymətlərin bundan sonra da əvvəlki səviyyədə saxlanılmasına qərar verilib. Beləliklə, cari ilin 1 may tarixindən başlayaraq bütün "Asan İmza" istifadəçi qrupları üzrə xidmətə qoşulma haqqı 18 AZN, aylıq abunə haqqı 1 AZN, göndərilən 1 SMS ismarıcının qiyməti isə 0,03 AZN təşkil edəcək.

Onu da qeyd etmək lazımdır ki, yaxın zamanlarda "ASAN Xidmət" tərəfindən yeni, "Asan Ödəniş" innovativ xidmətinin istifadəyə verilməsi gözlənilir. Bu xidmət vasitəsilə sürücülər "Asan İmza"dan istifadə edərək əlavə qeydiyyatdan keçmədən öz elektron kabinetlərinə daxil olaraq real zaman rejimində yol-hərəkət qaydalarının pozuntusuna görə cərimələrinin olub-olmamasını yoxlaya, cərimənin foto və video materialları ilə tanış ola və cəriməni onlayn ödəyə biləcəklər. Bundan əlavə, "Asan Ödəniş" portalında (www.asanpay.az) avtomobillərinin dövlət nömrə nişanlarını "Asan İmza" vasitəsilə qeydiyyatdan keçirən bütün sürücülər cərimələri barədə Asan Ödəniş sistemi tərəfindən ödənişsiz SMS ismarıclar alacaqlar.

"Asan Ödəniş" sistemində, eləcə də dövlət və özəl təşkilatların təqdim etdiyi elektron xidmətlərdə "Asan İmza"dan istifadəyə marağın daha da stimullaşdırılması məqsədilə, həmçinin may ayında ölkə üçün əlamətdar olan bir sıra tarixləri qeyd edən həmvətənlərimizin bayram ovqatına əlavə sevinc qatmağı hədəfləyərək həmin ayda daha bir həvəsləndirici aksiyanın keçirilməsi qərara alınıb. Qeyd edilən aksiya çərçivəsində "Asan İmza" xidmətinə qoşulmaq istəyən istənilən şəxs xidmətin aktivləşdirilməsi üçün nəzərdə tutulmuş 18 AZN məbləğində ödənişi etmədən "Asan İmza" mobil elektron imzanın istifadəçisinə çevrilə biləcək. Aksiyanın başlanma tarixi və müddəti barədə yaxın zamanlarda əlavə məlumat veriləcək."

Siz də öz "Asan İmza"nızı almağa tələsin və ölkədə mövcud olan 500-dən artıq müxtəlif elektron xidmətlərdən asanlıqla faydalanmağa başlayın.

## 31 mart - azərbaycanlıların soyqırımından 97 il ötür

**31 mart - Azərbaycanlıların Soyqırımı Günü münasibətilə həm ölkədə, həm də dünyanın müxtəlif ölkələrində tədbirlər, anım mərasimləri, konfranslar keçiriləcək. Soyqırım Günü ilə əlaqədar Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) Elmira Süleymanova bəyanat yayıb. Bəyanat BMT-nin baş katibinə, onun müavininə, təşkilatın insan hüquqları üzrə ali komissarına, Avropa Komissiyasına, Avropa Şurasına, ATƏT-ə, Beynəlxalq və Avropa Ombudsmanlar institutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, Beynəlxalq Sülh Bürosuna, Universal Sülh Federasiyasına, müxtəlif ölkələrin ombudsmanlarına, Azərbaycanın xarici ölkələrdəki, xarici dövlətlərin respublikamızdakı səfirliklərinə və Azərbaycanın diaspor təşkilatlarına ünvanlanıb.**

31 Mart soyqırımı ilə əlaqədar Ankarada da özəl toplantı keçiriləcək. Bu barədə TRT-nin Bakı nümayəndəliyinin rəhbərliyi məlumat yayıb.

Xatırladaq ki, 1918-ci ilin mart ayından etibarən ermənilər Azərbaycan boyunca minlərlə dinc azərbaycanlı əhalini yalnız milli mənsubiyyətinə görə məhv edib, evlərə od vurub, insanları diri-diri yandırıb, günahsız insanları amansızcasına qətlə yetiriblər. Həmin dövrdə Azərbaycan ərazisində 700 min nəfər soyqırıma məruz qalıb. Qafqaz İslam Ordusunun Nuru Paşanın komandanlığı altında Azərbaycana gəlişi qırğınların qarşısını alıb.

Azərbaycan tarixinin səhifəsinə qara hərflərlə yazılan 31 mart 1998-ci il martın 26-dan etibarən Soyqırım Günü kimi qeyd edilir.

YENİ MÜSAVAT
N 66 (6094) 31 mart 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Ermənniyə pul, şəhidə "get tullan"

**Qəzetimizin əməkdaşı Elşad Paşasoy tez-tez mandat verilərək parlament binasında işə təyin edilmiş yapçılardan müsahibə götürür. YAP onlara "deputat" ayaması yapışdırıb, amma uca və qədirbilən xalqımız həmin adamları öz adları ilə çağırır. Çünki adama ayama, ləğvə qoşmaq yaxşı deyil. Əl tutmaq Əlidən qaldığı kimi, "adın çıxınca canın çıxsın" ifadəsi də parlamentarizmin düşmənləri olan adamlara "deputat" ayaması yapışdırılandan sonra meydana gəlib. Bir də baxırsan, Elşad bəy bir deputatın yaxasına çöküb tərs-avand sualları ilə sillələyir.**

Belə suallardan biri də ölkədə siyasi məhbuslar haqqında olur. O, təxminən belə bir sual verir: "Hörmətli filankəs deputat, filankəs müxalifətçiyə məhkəmə 8 il iş verib, o isə özünü günahkar saymır və deyir ki, siyasi fəaliyyətinə görə həbs edilib. Həmin deputat da cavabında deyir ki, ümumiyyətlə, cinayətkarlar öz əməlini etiraf etmirlər. Onlar bir qayda olaraq suçsuz olduğunu deyirlər, o cümlədən də özünü siyasi məhbus adlandıran məhbuslar. Mənim də "deputat" ayamalı məmurlara belə bir sualım var. Heç seçkiləri saxtalaşdırdığını, siyasi rəqiblərini uydurma ittihamlarla həbsə atdığını, avtoritar rejimlərə rast gəliblərmi? Mən heç diktatura rejimlərini demirəm. Təsəvvür edin ki, İslam Kərimov deyir ki, o, seçkiləri saxtalaşdırmaq hesabına hakimiyyətdədir və hüquq-mühafizə orqanlarına siyasi rəqiblərini şərləyib dama doldurmağı tapşırıb. Gülməli çıxır, elə deyilmi? Elşad Paşasoyun sualına cavab verən deputatların dediyinə inansaq, əgər belə bir şey olsaydı, iqtidar hər şeyi olduğu kimi açıb deyərdi. Demirsə, deməli, siyasi məhbuslar və onların müdafiəçiləri yalan deyirlər. Özü də fikir verin, bunlar belə suallar qarşısında "rüşvət hər yerdə var" kimi sarsaq ritorikadan istifadə etmirlər. Bu halda onda gərək belə deyəydilər: "Seçkilərin saxtalaşdırılması və siyasi rəqiblərin şərlənib həbsə atdırılması dünyanın hər yerində var. Uzağa getməyək, götürək Almaniyanın özünü..."

Bəli, bunlar belə tipdirlər. Bir dəfə İsa Qəmbər Tiflisdə hansısa beynəlxalq tədbirə qatılmışdı. Sözsüz ki, İsa bəy Tiflisə getmişdisə, hansısa hoteldə qalmalıydı. Yapçılar başladılar ki, sən demə, bəyin qaldığı hotelin sahibi erməniymiş. Bəs necə? Əli Əhmədov xarici səfərə gedəndə hotel sahibinin əcdadlarının da DNK analizlərini yoxlayır ki, birdən Vaşinqtondakı hotelin sahibi Cek Huldentin qanında erməni qatışığı olar. Baxmayaraq ki, bu iqtidar üçün Serj Sərkisyanla dəfələrlə görüşmək, onunla birlikdə eyni sənədin altına imza atmaq ayıb sayılmır, amma İsa Qəmbər bir erməni demokratı ilə birlikdə region üçün sülh və demokratiya çağırışları nəzərdə tutan sənədə imza atırsa, o, xalq düşmənidir.

Şəxsən mən iqtidarın Serj Sərkisyanla dəfələrlə görüşməsinə, o cümlədən, müxalifət nümayəndələrinin də ayda-ildə bir dəfə erməni demokratı ilə hansısa tədbirdə qabaq-qabağa *(yan-yana)* oturmasına pis baxmıram. Çünki günümüzün reallığı belə tələb edir. Sadəcə olaraq, "ermənilərlə əlaqə" mövzusunu iqtidar neqativ planda istismar etdiyi üçün deyirəm bunları. Əgər bu pis işdirsə, Bakıya Avropa Oyunlarına gələn ermənilərin yol, yatmaq, yeyib-içmək və pal-paltar pulunu niyə verirsiniz? Bəs onda Rauf Mirqədirovu, Leyla Yunusu və Arif Yunusu niyə həbs etmisiniz? İndi kimsə, durub sübut etsə ki, Bakıya gələn erməni idmançılarından biri *(bəlkə də bir neçəsi)* Xocalı qətliamını törətmiş cəlladların yaxın qohumudur, onda neyləyəcəksiniz? Həmin idmançı birinci yer tutacaqsa, Bakıda dalğalanan Ermənistan bayrağı və himnini AzTV bütün ölkəyə, o cümlədən dünyaya yayımlamayacaq? Necə olur ki, bütün bunlar olmalı iş kimi qəbul edilir, amma Rauf Mirqədirovun İrəvana səfəri vətənə xəyanət sayılır?! Rauf bəyin İrəvan səfəri üçün Azərbaycan dövləti bir qəpik də xərcləməmişdi, amma erməni idmançılara dövlətimizin büdcəsindən bir ətək pul xərclənir. Hansı ki, bu büdcə ermənilərin öldürdüyü şəhidlərimizin qan pulunu verə bilmir.

❑ **Tofiq YAQUBLU**

# Apreldə növbəti iqtidar-müxalifət görüşü gözlənilir

## Mirmahmud Mirəlioğlu: "Əfv fərmanına düşməyən siyasi məhbusların məsələsi təbii ki, bizim hamımızı qayğılandırır"

**Prezident Administrasiyasının şöbə müdiri Əli Həsənovla siyasi partiyaların fevralın 12-də keçirilən görüşündə bundan sonra görüşlərin iki aydan bir keçirilməsi barədə razılıq əldə olunmuşdu. Aprelin 12-də sonuncu görüşdən iki ay vaxt keçəcək. Bu isə o deməkdir ki, növbəti görüşün keçirilməsi yaxınlaşır. Hələlik hakimiyyət tərəfdən üçüncü görüşün konkret nə vaxt keçiriləcəyi barədə rəsmi açıqlama verilməyib.**

Müxalifət düşərgəsindən indiyə qədər keçirilən görüşlər öncəsi koordinator rolunu həyata keçirən KXCP sədri Mirmahmud Mirəlioğlu ilə dünən əlaqə saxlayıb növbəti görüşün nəzərdə tutulub-tutulmadığını öyrəndik.

**Mirmahmud Mirəlioğlu** bildirdi ki, görüşlərin iki aydan bir keçirilməsi nəzərdə tutulub. Ola bilər növbəti görüş tez də olsun. O da mümkündür ki, iki ayın tamamında keçirilsin: **"Lakin hələ ki növbəti görüşlə bağlı bizdə məlumat yoxdur".**

Dekabr ayında keçirilən birinci görüşdən sonra əfv fərmanı verildi. Fevralda keçirilən ikinci görüşdən sonra da - martda əfv fərmanı imzalandı. İki görüş və iki əfv fərmanı oldu, bir sıra məhbuslar azadlığa buraxıldı. Tanınmış məhbusların hələ də həbsdə saxlanması hakimiyyət təmsilçisi ilə görüşlərin ciddi nəticəsinin olmayacağını iddia edənlərin sanki əlinə oynamış oldu. "Əfv fərmanlarının bundan sonrakı keçiriləcək görüşlərə hansısa təsiri olacaqmı, sizcə" sualına isə M.Mirəlioğlu belə cavab verdi: **"Bəzi adamlar qeyd edirlər ki, bu görüşlər olmasaydı əfv fərmanları da olmazdı. Amma əfv fərmanı artıq neçə illərdir bayramlarda verilir. Əfv fərmanına düşməyən siyasi məhbusların məsələsi təbii ki, bizim hamımızı qayğılandırır. Amma əfv məsələsi dövlət başçısının müstəsna səlahiyyətinə daxildir. Bəlkə də elə adamlar var ki, o siyahını tərəfkeşlik edirlər, kiminsə adını ora daxil eləyirlər, kiminsə adını kənarda saxlayırlar. Yaxud ola bilsin ki, elə adamlar olur siyahının prezidentə təqdimatı zamanı kimlərinsə adı siyahıdan çıxarılır. Bu cür hallar da ola bilər. Hər halda, gözləntilər doğrulmadı. Hər kəs arzulayırdı ki, əfvə bütün siyasi məhbuslar düşsün. Amma bu, o demək deyil ki, bütün bu məsələlər hamısı həm də bizdən asılıdır. Mənim qənaətim budur ki, prezidentə əfvlə bağlı təkliflər paketini hazırlayıb təqdim edənlər balanslaşdırılmış siyasət yürüdürlər. Bu da uğurlu nəticə vermir".**



Mirmahmud Mirəlioğlu

❑ **Etibar SEYİDAĞA**

# "Ermənistan rejimindən bezənlər Azərbaycana gəlmək istəyəcəklər"

## Hərbi ekspertdən İsa Qəmbərin "Peşmanlıq Qanunu" təklifinə dəstək

**"Mən də Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri hörmətli İsa Qəmbərin Azərbaycan tərəfə keçmiş əsgərlə bağlı söylədiyi fikirləri dəstəkləyirəm və düşünürəm ki, Milli Məclis də bu işdə öz sözünü deməlidir. Biz mütləq mənada gələcəkdə könüllü surətdə bizim tərəfə keçənlər üçün, xüsusən Qarabağ erməniləri üçün "Peşmanlıq Qanunu" qəbul etməliyik".**

**Hərbi ekspert Üzeyir Cəfərov** bunu Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbərin Qarabağ erməniləri üçün "Peşmanlıq Qanunu" qəbul etməklə bağlı təklifini "Yeni Müsavat"a şərh edərkən bildirdi. Ehtiyatda olan polkovnik-leytenantın sözlərinə görə, bu qanunla bağlı həm media, həm rəsmilər və ictimaiyyət tərəfindən geniş şəkildə izahat işləri aparmaq lazımdır: "Hər addımda bizə dost və qardaş olan Türkiyə təcrübəsinə müraciət edən rəsmilər də unutmamalıdırlar ki, "Peşmanlıq Yasası" rəsmi Ankara tərəfindən geniş tətbiq olunur və terrorçu PKK təşkilatının sıralarından könüllü olaraq qaçıb, dövlətə sığınanların himayəsini, cəzalarının, yaxud da cəzasızlıqlarının dərəcəsini müəyyənləşdirir. Məhz bu qanunun tətbiqindən sonra PKK sıralarından minlərlə gənc qaçaraq, dövlətə sığınma şansı əldə edib. Mənə də elə gəlir ki, Ermənistan rəhbərliyinin ən çox qorxduğu məqamlardan biri də məhz belə bir qanunun Azərbaycanda qəbul olunması variantıdır ki, ondan sonra kütləvi də olmasa, yəqin ki, Ermənistan rejimindən yaxa qurtarmaq istəyənlər Azərbaycana gəlmək istəyəcəklər. Bu da çox önəmli məqamlardan biridir. Buna elə adi bir məsələ kimi baxmaq düzgün olmaz. Qanunvericilik bazası olandan sonra vəziyyətdə müsbətə doğru mütləq mənada dəyişiklik olmasını düşünürəm".

**Ü.Cəfərov martın 22-də Azərbaycan tərəfə keçmiş erməni əsgər Andranik Qriqoryanla bağlı son günlər bir-birinin ardınca yayılan xəbərlərə də diqqət çəkdi:** "Ermənistanda bu hadisə o qədər qıcıq yaradıb ki, bədbəxt əsgərin az qala nəslini polis idarəsinə dartıb aparırlar və deyirlər sizin oğlunuz bizi biabır edib. Əgər ən sonuncu xəbərə inansaq, erməni siyasi və hərbi rəhbərliyi Qriqoryanın atasını müvəqqəti də olsa həbs edib ki, bu minvalla Bakıya gətirilmiş əsgərə təsir və təzyiq göstərsin. Ancaq ermənilərin cəhdlərinin heç bir effekti olmayacaq və tezliklə hadisələr öz məcrasına düşəcək. İndiki halda həm cinayətkar Ermənistan prezidenti Serj Sərkisyan və onun kimi qatı cinayətkar müdafiə naziri Seyran Ohanyan özlərini sığortalamaq və baş vermiş rüsvayçı hadisəyə görə vəziyyətdən təcili çıxış yolu kimi əsgərin ailəsini günahlandırmağa başlayıblar. Əsl həqiqəti isə əsgərin anası artıq olduğu kimi söyləyib. Erməni əsgəri orada olan əzab-əziyyətdən canını qurtarmaq üçün Azərbaycan tərəfinə keçib". **Hərbi ekspert deyir ki, biz də bu faktdan son dərəcə ağıllı istifadə etməliyik:** "Məni bir qədər müdafiə nazirliyimizin Qriqoryanla bağlı ard-arda verdiyi məlumatlar narahat edir. Hesab edirəm ki, bu qədər geniş açıqlamalara da heç bir ehtiyac yoxdur. Ay onun səhhəti yaxşıdır, ay saxlanma şəraiti elədir, belədir. Allah göstərməsin sabah onun başına tam təsadüf nəticəsində bir hadisə gəlsə və ya o özünü öldürsə, bizim MN-i bizə ola biləcək basqıları təsəvvürünə gətirə bilirmi? Olmaz elə şeyləri etmək. Bu bizim MN-in deyil, Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) üzərinə düşən vəzifələrdir. Bir də mən də o fikirlə razıyam ki, onu hərbi əsr kimi təqdim etmək qətiyyən düzgün deyil. Belə kobud səhvlərə yol vermək olmaz. Qriqoryan növbə çəkdiyi postu atıb, ağ bayraq qaldırıb və könüllü olaraq Azərbaycan tərəfə keçib. Belə hərbçiyə bildiyim qədər fərari və ya daha ağır formada "dezertir" deyilir ki, bu da tamamilə fərqli hüquqi anlayışdır".



Üzeyir Cəfərov

❑ **Cavid TURAN**



# "Qara siyahı"ya düşməmək üçün...

Hüseynbala SƏLİMOV

**Senzuranın bıçağının irəli-geri kəsdiyi vaxtlarda bir üsul fikirləşmişdik. Götürüb xarici siyasət mövzularında yazırdıq. Amma yazının ortasında və ya axırında Azərbaycanla paralellər aparır, öz problemlərimizi qələmə almağa cəhd edirdik...**

Həmişə olmasa da, əksər hallarda bu, özünü doğrulurdu. Senzorlar bir az oxuyub görürdülər ki, bəs yazı xarici siyasətdəndir, tutaq ki, Rusiyadan bəhs edir. Ona görə də toxunmurdular...

İndi də xarici siyasətin "at oynadan" vaxtıdı. Telekanallar yerli mövzuda xəbərlər verə bilmədiklərindən B.Əsəddən başlayıb Yəməndə qurtarır, oradan da ən yaxşı halda bir az yaxına - Ermənistana və Gürcüstana baş vururlar...

İndi senzura yoxdur, amma "qara siyahı"lar var. Ona görə də az qalırsan ki, köhnə üsulları bərpa edəsən. Məsələn, Gürcüstandan yazasan, gəl, elə yazasan ki, Azərbaycan "nəzərdə tutulsun"...

Bu, elə də asan deyil. Amma sınaqdan keçirmək olar... İndi, bəli, indi isə adamların ən çox danışdığı mövzudan, yay vaxtına keçiddən də danışmaq olar...

Ərz edim ki, Avropa ölkələrində bu praktika tətbiq olunmur. Bura da həmin ölkələrin təsnifatında şərqi Avropa ölkəsi hesab olunur. Deməli, heç olmasa, bircə dəfə avropalı olmaq olardı...

Baxırsan, hərə bir söz deyir. Amma faydasızdır, çünki onsuz da ictimai fikirlə hesablaşan hökumət yoxdur və böyük ehtimalla saatların dəyişdirilməsində də əsas motiv heç də bundan əldə olunacaq iqtisadi gəlir deyil, bəlkə də kiməsə və yaxud da kimlərəsə belə daha xoşdur...

Əvvəldə "bir dəfə avropalı olmaq" ifadəsini işlətdik. Amma bu da çətin məsələdi, bioloji ritmlər uzlaşmadığı kimi ictimai-siyasi ritmlər də uzlaşmır və rəsmi Bakı öz "saat"ı ilə yaşamaqda davam edir...

Amma ölkənin cəmi saatları geriyə gedir. Bir dəfə əqrəbləri geriyə işləyən saat düzəldən saatsazı danışdırırdılar. O vaxt bu, bizə simvolik görünmüşdü - həqiqətən də 1993-cü ildə ölkə saatlarını xeyli geri çəkdi...

Bəlli oldu ki, kommunistlərlə vidalaşmaq tezdir, ölkə müqəddəratını düşünüb-daşınmadan onlara həvalə etdi...

Onlar da bərk-bərk yapışdılar bundan, çünki digərlərindən fərqli olaraq bu zümrə gözəl başa düşürdü ki, hakimiyyət sərvət deməkdir, hakimiyyət başqa həyat deməkdir - o həyat ki, onlar bu vaxta qədər onu yaşamağa alışmışdılar...

Qısa müddətdə, təxminən 4-5 il onlara "tarix qatarı"nda yer tapılmadı. Bəli, onlar da hər şeyi etdilər ki, "qatar" hərəkət edə bilməsin - "rels"ləri sökdülər, "yol işarələri"ni dəyişdilər... Axır "qatar" dayandı və sükanı onlara təhvil və təslim edildi...

Qərəz, başladılar bu "qatar"ı özləri hərəkət etdirməyə... Daşa-divara çırpmaqla, "yol qaydaları"nı pozmaqla, min cür çətinliklə axır ki, gətirib bu günə çıxardılar...

Fəqət, məlum oldu ki, bu, o "stansiya" deyil - sərnişinlərdən beşi-üçü etiraz etmək istədi, amma onları dərhal "qatar"dan bayıra atdılar... Qalanlar vəziyyətlə barışdı, hamı da "saatları"nı geri çəkdi - bu, artıq yay və ya qış vaxtı deyildi, bir partiyanın, bir siyasi sistemin vaxtı idi...

Az keçməmiş məlum oldu ki, saatlar sadəcə, geri çəkilməyib, onlar tamam-kamal geriyə işləyir. Qərəz, beş-üç il ərzində ölkə adını dəyişməsə də məzmununu tamam dəyişdi, bu vaxtadək nə əldə olunmuşdusa, demək olar ki, hamısı insanların əlindən alındı və onlar faktiki olaraq bir partiyanın rəhbərliyi altında yenidən "çiçəklənən diyar" qurmağa başladılar...

"Xoşbəxtlik olmazdı, əgər bədbəxtlik kömək etməsəydi"-deyiblər. Bir az keçəndən, daha doğrusu, 2014-cü ilin ortalarından məlum oldu ki, saatlar elə hakimiyyətin özü üçün də geri işləyir...

Bəli, məlum oldu ki, böyük neft pulları dövrü arxada qalıb. Düzdür, proses çox ağrılı keçir, gah incidir, gah da ümid yaradır...

Fəqət, deyəsən, tendensiya üzü o tərəfədi - daha o dövr qayıtmayacaq... O dövr isə az qala bütün rayonlarda tikilən mərkəzlər, təkrar-təkrar, az qala hər kvartal təmir olunan yollar, böyük idman yarışları dövrü idi...

O vaxt hər nazir bir idman sahəsinə başçılıq edirdi. İndi deyəsən idmançıları görəndə nazirlər qaçacaq...

Ona görə də "yay-qış vaxtı" deyib pəjmürdə olmağa dəyməz. İndi başqa bir vaxt gəlir - problemli ölkədə yaşamaq və bir də problemli ölkəni idarə etmək vaxtı. Görək ölkə bu sınaqdan necə çıxacaq?..

Vallah, heç istəməzdim pessimist bir şey alınsın. Amma yenə də belə oldu və o səbəbdən də qınamayın - deyilənə görə, elə pessimist də yaxşı informasiyalı optimist deməkdi...

# "Neftçi" yazıçı Çingiz Abdullayevə tapşırılır

## Almaniyanın azarkeşi, atçılıq üzrə idman ustası və "Neftçi"...

**Martın 30-da "Neftçi" klubunun prezidenti Sadıq Sadıqov istefa verib. S.Sadıqovun istefası çoxdan gözlənilən olsa da, kluba təyin edilən yeni prezident idman ictimaiyyətində şok yaradıb. Belə ki, kluba bundan sonra Azərbaycan Yazıçılar Birliyinin katibi, dünya şöhrətli yazıçı Çingiz Abdullayevin rəhbərlik edəcəyi gözlənilir.**

"Çingiz Abdullayevin "Neftçi"nin prezidenti vəzifəsinə gətirilməsi məsələsi bu ayın əvvəllərindən gündəmdə olub".

Bu sözləri qol.az-a **AYB-nin mətbuat xidmətinin rəhbəri Xəyal Rza** deyib. O qeyd edib ki, xalq yazıçısına həqiqətən "Neftçi"nin prezidenti vəzifəsi təklif olunub: **"Biz onun "Neftçi"yə gedişini gözləyirdik".**

Saytın əldə etdiyi başqa bir xəbərə görə, "Neftçi"nin strukturunda dəyişiklik olacaq. Bundan sonra klubda prezidentlik institutu ləğv olunacaq və Müşahidə Şurası yaradılacaq. Şuraya Çingiz Abdullayev rəhbərlik edəcək. "Neftçi" futbol klubunun mətbuat xidmətinin rəhbəri **Gündüz Abbaszadə** Çingiz Abdullayevin klubun prezidenti postuna gətirilməsi barədə yayılan xəbərləri təsdiqləməyib. **"Çingiz Abdullayevin "Neftçi"nin rəhbərliyinə gətirilməsi haqda da kluba heç bir rəsmi məlumat daxil olmayıb. Biz də bu məlumatları mətbuatdan izləyirik. Yenə deyirəm, biz - kluba bu barədə hər hansı rəsmi məlumat daxil olmayıb"** - deyə, klub rəsmisi bildirib.

SOCAR da baş sponsoru olduğu "Neftçi" klubunun prezidenti Sadıq Sadıqovun vəzifəsindən istefa verdiyinə dair xəbərlərə münasibət bildirib. Qurumun mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri **Nizaməddin Quliyev** deyib ki, "Neftçi" PFK "Neftçi" İdman Klubunun tərkibinə verilib. Bununla əlaqədar bəzi nizamnamə və struktur dəyişiklikləri gözlənilir.



Çingiz Abdullayev



Sadıq Sadıqov

"Neftçi" İdman-Sağlamlıq Mərkəzinin rəhbəri Sadıq Sadıqov klubun prezidenti 2009-cu ilin dekabrında təyin edilib. Sadıq Sadıqov AFFA-nın prezidenti Rövnəq Abdullayevin yaxın qohumudur.

Onun kluba rəhbərlik etdiyi dövrdə "Neftçi" üç dəfə Azərbaycan çempionu, iki dəfə ölkə kubokunun qalibi olub. Azərbaycan futbolu tarixində ilk dəfə Avropa Liqasının qrup mərhələsinə vəsiqəni də "Neftçi" S.Sadıqovun kluba rəhbərlik etdiyi dövrdə qazanıb.

Uzun müddətdir maliyyə böhranı yaşayan "Neftçi"də son aylar qruplararası mübarizə pik nöqtəsinə çatmışdı. Hələ bir neçə gün əvvəl Sadıq Sadıqovu prezident postundan gedəcəyi barədə xəbərlər yayılmışdı. Onun yerinə Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti Xaliq Məmmədovun və ya Məşqçilər Komitəsinin sədri olan Vaqif Sadıqovun təyinat alacağı gözlənilirdi. Amma...

55 yaşlı Çingiz Abdullayev 1989-cu ilin fevralından Azərbaycan Yazıçılar İttifaqının, 1991-ci ildən isə Azərbaycan Yazıçılar Birliyinin katibidir. Beynəlxalq təcavüz problemi barədə dissertasiya müdafiə edib, hüquq elmləri namizədi alimlik dərəcəsi alıb (1988). Daha sonra beynəlxalq cinayət problemi barədə doktorluq dissertasiyası müdafiə edib (1991). O, həm də Azərbaycan PEN klubunun vitse-prezidentidir.

Onun idmana marağına gəlincə, Ç.Abdullayev idman ustasıdır. Amma futbol üzrə deyil, atçılıq üzrə... Hüquq elmləri doktoru, professordur.

Ç.Abdullayevin facebook səhifəsində onun futbola bağlılığı ilə bağlı maraqlı qeydləri var. **"Universitetdə oxuyanda da futbol komandamız vardı. Qapıçımız indiki Dövlət Gömrük Komitəsinin sədri, general-leytenant Aydın Əliyev, müdafiəçimiz milli təhlükəsizlik nazirinin müavini, general-leytenant Əli Şəfiyev, o biri müdafiəçimiz ağır cinayətlərin sədri Mahmud Nəbiyev, kapitanımız "Standart holdinq"in vitse-prezidenti Rəhman Babayev, hücumçumuz Moskvada çox tanınmış biznesmen Natiq Ağamirov və başqaları olub. Komandanın prezidenti mən idim"** deyə, Ç.Abdullayev yazıb. Futbola marağını gizlətməyən Ç.Abdullayev Almaniyanın azakeşidir.

❑ Xəbər xidməti

# AMİP rəhbərliyi Avroparlamentdə görüşlər keçirib

## Qarabağ problemi və Azərbaycanda insan haqları məsələsi müzakirə olunub

**AMİP sədri Yusif Bağırzadə, baş katibi Arzuxan Əlizadə və beynəlxalq əlaqələr katibi Elşən Mustafayevdən ibarət nümayəndə heyəti Avropa Xalq Partiyası (EPP) rəhbərliyinin dəvəti ilə 6 günlük Brüssel səfərindən geri dönüblər.**

AMİP-dən verilən məlumata görə, səfərin ilk günü AMİP rəsmiləri AXP baş qərərgahında Avropa Xalq Partiyasının prezidenti Jozef Doulla, növbəti gün isə AXP Baş katibi Antonio Lopez-İsturislə görüşüblər. Görüşlərdə AXP tərəfindən AXP baş katibinin müavini Kristian Kremer, AXP xarici əlaqələr katibi Patrik Voller, AXP-nin siyasi məsələlər üzrə müşaviri Qalina Fomençenko və AXP rəhbərliyində təmsil olunan digər şəxslər iştirak ediblər. İkitərəfli görüşlər zamanı 7 ildən artıq tarixi olan AMİP-AXP münasibətləri yüksək qiymətləndirilib. Bu münasibətlərin inkişafında hər iki tərəfin maraqlı olduğu vurğulanmaqla AMİP-in AXP-yə üzvlük məsələsi və digər ikitərəfli maraq daşıyan məsələlər müzakirə olunub.

Xəbərdə həmçinin deyilir ki, səfər çərçivəsində AMİP rəsmiləri Avropa Parlamentində olmuş, burada Avropa Xalq Partiyası qrupunu təmsil edən parlamentarilərlə, Avropa Parlamentinin İsveçdən olan üzvü Gunnar Hökmarkla, AP-nin Xorvatiyadan olan üzvü Andrej Plenkoviçlə, AP-nin Rumıniyadan olan üzvü, AXP Xarici Əlaqələr Komitəsinin vitse-prezidenti Cristian Dan Preda ilə və digər AP üzvləri ilə ikitərəfli görüşlər keçiriblər.



AMİP nümayəndə heyəti Brüssel səfəri zamanı Vilfrid Martins adına Avropa Araşdırmalar Mərkəzinin direktoru Tomi Huhtanenlə, Avropa İttifaqı Qonşuluq və Genişləndirmə siyasəti komissarı Johannes Hahnın müşaviri Hanna Jahnsla, Avropa Parlamentinin Şərq Tərəfdaşlığı Təşkilatının Xarici Əlaqələr Komitəsində Azərbaycan, Ermənistan və Belorus üzrə Qrup rəhbəri Chris Kendalla da görüşlər keçirilib.

Məlumatda qeyd olunur ki, keçirilən bütün görüşlərdə Avropa-Azərbaycan münasibətləri, Azərbaycanın Dağlıq Qarabağ və ətraf yeddi rayonunun Ermənistan tərəfindən işğalının törətdiyi fəsadlar, Azərbaycanda insan haqları, kütləvi informasiya vasitələri və sərbəst toplaşma azadlığı ilə əlaqədar mövcud durum, karbohidrogen ehtiyatları və enerjidaşıyıcıları ilə əlaqədar Azərbaycanın yürütdüyü siyasət, eləcə də regiondakı hazırkı vəziyyət müzakirə olunub. Görüşlərdə iştirak edən Avropa siyasətçiləri Azərbaycanı Avropanın bir hissəsi kimi qəbul etdiklərini, bu istiqamətdə əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıblar, AMİP-in bu yöndə fəaliyyətini yüksək qiymətləndiriblər.

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 66 (6094) 31 mart 2015

# Ağsu qatilinin ölüm siyahısındakı şok adlar "Yeni Müsavat"da

**Ağsu şəhər sakini 62 yaşlı Ramiz Ələkbərovun axtarışları nəticə vermir. Martın 29-da iki həmyerlisini qətlə yetirən, üç nəfəri isə öldürəcəyini deyən R.Ələkbərov sanki hüquq-mühafizə orqanlarından gizlənmək üçün xüsusi təlim keçib. Onu respublikanın bütün şəhər-rayon polis idarələri axtarır, lakin yerini müəyyən edə bilmirlər. Ağsu təşviş içində hər an yeni qətlin törədiləcəyi xəbərini gözləyir. Bu gözlənti əbəs deyil. Çünki R.Ələkbərov 2 qətldən sonra polisə zəng vurub və "məni axtarmayın, öldürəcəyim daha üç nəfər adam var, öldürüm, gəlib özüm polisə təslim olacağam" deyib!**

## Ramiz Ələkbərovun aradan götürəcəyini anons etdiyi şəxslər sırasında YAP İdarə Heyətinin üzvü, idarə rəisi və bir sahibkar var; Ağsunun icra başçısı 30 il həbs yatmış cinayətkara avtomobil hədiyyə edibmiş; polis hər yerdə onu axtarır, qatilin Rusiyaya qaçma ehtimalı böyükdür

### İki qətl və Mərəzədə itən izlər...

Xəbər verdiyimiz kimi o, martın 29-da Ağsu şəhərinin Şakir Hacıyev küçəsində kirayədə yaşadığı 6 saylı evdə 1966-cı il təvəllüdlü Sərxan Əsgər oğlu Soltanovu odlu silahdan açdığı atəşlə öldürüb. Bundan əvvəl isə Ağsu aşırımındakı "Ata yurdu" restoranının qarşısında xalq artisti, mərhum aktyor Mikayıl Mirzənin qardaşı oğlu, sahibkar Mahir Mirzəyevi də öldürərək qaçıb. Məlumata görə, Ramiz Ələkbərov şəxsi maşını ilə Ağsu aşırımı ilə Şamaxı rayonunadək gedib, sonra avtomobilini Şamaxıda yolun kənarında saxlayaraq yoldan keçən başqa avtomobilə oturub və onunla Qobustan rayonu Mərəzə qəsəbəsinədək gedib. R.Ələkbərov orada həmin avtomobildən düşərək naməlum istiqamətə gedib...

### Qətllərin mümkün səbəbi odur ki...

"Yeni Müsavat"a daxil olan son məlumata görə, qətllərdən bir gün əvvəl R.Ələkbərov "Ata yurdu" restoranında olub. Rayon sakinlərindən aldığımız məlumatlarda deyilir ki, R.Ələkbərov restorana gedəndə oranın sahibi Mahir Mirzəyev, Sərxan Soltanov və digər şəxs bir masa arxasında əyləşib çörək yeyiblər. R.Ələkbərov isə restorana orada çalışan və əvvəldən münasibəti olan xanımla söhbət etməyə gəlib. Söhbət zamanı R.Ələkbərov həmin xanımla mübahisə edib və onu təhqir edərək döyüb. Yaranmış mübahisəyə yaxınlıqda əyləşən M.Mirzəyev və S.Soltanov müdaxilə ediblər. R.Ələkbərov restorandan uzaqlaşdırıblar. Növbəti gün isə R.Ələkbərov özünə məxsus avtomobilin xarab olan mühərrikini düzəltdirmək bəhanəsi ilə motor ustası işləyən, şəhərin Azadlıq küçəsindəki 20 saylı ünvanda qeydiyyatda olan və Heydər Əliyev prospektindəki 16 saylı evdə yaşayan S.Soltanovu evinə dəvət edib. Heç nədən şübhələnməyən usta R.Ələkbərovun evinə gəlib və həyətə girəndən sonra odlu silahla öldürülüb. Bundan sonra "Ata yurdu" restoranına yollanan R.Ələkbərov M.Mirzəyevi söhbətə çağırıb və qəfildən ona odlu silahdan atəş açaraq ərazini tərk edib.

### Ustanın qətli 7-8 saat sonra bilinib

Ağsu sakinləri deyir ki, hüquq-mühafizə orqanları S.Soltanovun qətlindən çox gec xəbər tutublar. M.Mirzəyevin qətlini araşdıran istintaqçılar qatilin yaşadığı ünvana 7-8 saat sonra baxış keçirmək qərarına gəliblər və həmin vaxt evdə S.Soltanovu meyitini aşkar ediblər.

### Qatilin siyahısında adı olanlardan biri polisdə gecələyir

Rayon sakinlərindən aldığımız məlumatda deyilirdi ki, R.Ələkbərov qətlləri törədəndən bir neçə saat sonra hüquq-mühafizə orqanları ilə əlaqə saxlayıb və daha 3 şəxsin qətlini anons edib. Deyib ki, həmin 3 nəfəri də öldürəndən sonra özünü polisə təslim edəcək. Rayonda həmin şəxslərin kimliyi ilə bağlı xəbərlər dolaşır və hətta belə iddia var ki, Ağsudan olan qatilin siyahısında adı olanlardan biri Ağsu polis idarəsində gecələyir.



### Mümkün qurbanlar bu şəxslərdir

R.Ələkbərovun qətlə yetirə biləcəyi şəxslərin siyahısını əldə etmişik. Mənbə bildirir ki, ehtimal edilən qurbanlardan biri "Meliorasiya və Su Təsərrüfatı" ASC-nin Ağsu Suvarma Sistemləri İdarəsinin rəisi Səfər Məmmədovdur. Bu vəzifəli şəxs Ağsu qatilinin siyahısına niyə düşüb, görəsən? Yerli mənbələrdən musavat.com-a verilən məlumata görə, Səfər Məmmədov qatilin qardaşı Rizvan Ələkbərovu işdən çıxarıb. Qeyd olunur ki, S.Məmmədov bir müddət əvvəl R.Ələkbərovla mübahisə edib və onu işdən çıxarıb.

Qatilin siyahısında olan digər mümkün qurbanlardan biri də sahibkar Sanif Həsənovdur. Onun vaxtilə "Pepsi-Cola" adlanan iri ticarət mərkəzi R.Ələkbərovun bir müddət əvvəl satdığı və rayonun mərkəzində yerləşən Səməd Vurğun küçəsindəki ata evinin qonşuluğundadır. Belə ehtimallar var ki, R.Ələkbərovun S.Həsənovu qətlə yetirəcəyi şəxslərin siyahısına salmasına səbəb onların aralasında illər əvvəl yaranmış mübahisədir. S.Həsənov YAP-ın yerli təşkilatının idarə heyətinin üzvüdür və rayondakı tədbirlərin fəal iştirakçılarındandır.

Üçüncü mümkün qurban isə hazırda R.Ələkbərovun qorxusundan polisə sığındığı deyilən Əlişiraz Məmmədovdur. Ə.Məmmədovun avtomobillərin ehtiyat hissələrinin satışı ilə məşğul olduğu söylənir. R.Ələkbərovun Ə.Məmmədovla mübahisəsinin mümkün səbəbi kimi avtomobili üçün aldığı hissənin pulunu ödəməməsi göstərilir. Qeyd olunur ki, Ə.Məmmədov dəfələrlə R.Ələkbərovdan avtomobil hissələrinin pulunu ödəməsini istəyib, sonuncu dəfə isə telefonda aralarında mübahisə yaranıb.

### 30 illik həbs həyatının öyrətdikləri...

Rayon sakinləri R.Ələkbərovun indiyədək polisin əlinə keçməməsini onun kriminal keçmişi ilə əlaqələndirirlər. Deyirlər ki, əvvəllər soyğunçuluq və quldurluğa görə dəfələrlə həbsdə yatmış R.Ələkbərovun yolu Rusiya zindanlarından da keçib. Onun qətllərdən sonra polisdən yayına bilməsi 30 illik həbs təcrübəsi ilə əsaslandırılır. Qatilin Rusiyaya qaçıb orada gizlənə biləcəyi ehtimalının çox olduğunu da deyirlər.

### İcra başçısı qatilə niyə maşın bağışlayıb?

Ötən sayımızda R.Ələkbərova rayondakı yüksək vəzifə sahiblərindən birinin maşın bağışladığını da yazmışdıq. Qaynağımız demişdi ki, R.Ələkbərovun kriminal keçmişindən xəbərdar olan rayondakı vəzifəlilər onunla dost münasibəti qurmağa çalışıblar. Hətta ona Ağsu Rayon İcra Hakimiyyətində çalışan vəzifəlilərdən birinin "Reno" markalı avtomobil hədiyyə etdiyi də gələn məlumatlar sırasında idi. Aldığımız son məlumatda vəzifəli şəxsin icra başçısı Ənvər Seyidəliyev olduğu vurğulanır. Qeyd olunur ki, icra başçısı R.Ələkbərov həbsdən çıxandan sonra onun dinc həyata qayıtması üçün ona maşın bağışlayıb...

### Qatili ömürlük həbs gözləyir

Hüquq-mühafizə orqanlarından əldə etdiyimiz məlumata görə, R.Ələkbərovun fotosu və əlamətləri ölkənin bütün polis idarələrinə göndərilib. Qeyd edilən cinayəti törətməkdə şübhəli bilinən R.Ələkbərovun yerinin müəyyən edilməsi və tutularaq məsuliyyətə cəlb olunması istiqamətində tədbirlər davam etdirilir.

Faktla bağlı Ağsu Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.7-ci (iki və ya daha çox şəxsi qəsdən öldürmə) maddəsi ilə cinayət işi başlanaraq müvafiq ekspertizalar təyin edilib. R.Ələkbərov ələ keçəcəyi təqdirdə onu ömürlük həbs gözləyir.

**Mövzuya qayıdacağıq.**

**❑ E.MƏMMƏDƏLİYEV**

# Cəmil Həsənlinin ittihamları aranı qatdı

## **Zamin Hacı:** "Bu adamların xətrinə dəymək asan olmamalıdır, siyasətçi belə eləməz"
## **Zaur Qurbanlı:** "Biz gəncik, onlar qoca - söhbət yaşdan daha çox başdan gedir"
## **Üzeyir Məmmədli:** "Cəmil bəy NİDA-nın bu etimadsızlığının səbəbləri barədə düşünsə daha yaxşı olar"

**Milli Şuranın sədri Cəmil Həsənlinin "Azadlıq" qəzetinə müsahibəsi birmənalı qarşılanmayıb. C.Həsənli müsahibəsində NİDA-çı gəncləri və REAL-ın icra katibi Natiq Cəfərlini tənqid edib: "Çox təəssüf ki, biz yalnız hakimiyyətdən deyil, dostlarımızdan da zərbə aldıq. 15 mart mitinqinin qarşısını almaq mümkün olmayanda, xüsusi xidmət orqanları onun effektini azaldan təxribatlara əl atdılar.**

Bu məqsədlə mitinq başlamazdan 30-40 dəqiqə əvvəl, adam az olan vaxt ətrafdakı hündürmərtəbəli binanın damından kamera ilə çəkilmiş meydanın görüntüsü "Mitinq "quş uçuşu" məsafəsindən" adı altında bizim çox hörmət etdiyimiz AzadlıqRadiosunun Azərbaycan xidmətinin səhifəsində yerləşdirildi və şəklin sol tərəfində də 16:31 zaman göstəricisi qoyuldu. Bax, bu, bizim üçün doğrudan da gözlənilməz oldu. Birincisi, ona görə ki, Azərbaycan cəmiyyətinin qarşısında böyük xidmətləri olan, hazırda isə hökumətin repressiyaları ilə üzləşən bir informasiya orqanı cəmiyyətdə mitinq haqqında yanlış təəssüratlar yaratmağa cəhd etmişdi. İkincisi və bundan daha betəri isə o idi ki, Azərbaycan xüsusi xidmət orqanlarının bu təxribatı AzadlıqRadiosu kimi mötəbər bir quruma necə yol tapmışdı? Burada xüsusi xidmət orqanlarının məqsədi etibarlı bir informasiya orqanına istinadən mitinqi gözdən salmaq idi. Ona görə də sol tərəfində "16:31" zaman göstəricisi, sağ küncündə isə "AzadlıqRadiosu RFE/RL" brendi olan bu təxribat hökumətin nəzarətində olan medianın mitinq "təhlillərində" başlıca istinad nöqtəsi idi. Biz özümüzü tənqidə açıq bir qurum hesab edirik. Amma REAL-ın icra katibi Natiq Cəfərlinin mitinqdə səsləndirilən fikirləri tərsinə şərh edib aksiyanın hədəflərini tamamilə arzuolunmaz istiqamətə yönəltməsi də bizim üçün bir qədər gözlənilməz oldu. Rəğbətlə yanaşdığımız NİDA Gənclər Təşkilatının mitinq müzakirələri də bizdə bəzi suallar doğurdu. Biz özümüzə dost hesab etdiyimiz hər iki quruma hörmətlə yanaşırıq, amma xatırlatmaq istəyirik ki, bizim bu qurumlara etimadımız onların mövcud təşkilat strukturlarından, sosial baza və siyasi imkanlarından çox böyükdür".



Cəmil Həsənli

**Sözügedən müsahibəyə reaksiya verənlərdən biri də "Yeni Müsavat" qəzetinin yazarı Zamin Hacı olub. Z.Hacı son köşə yazısında bildirib ki, o cür siyasi mübarizə məktəbi keçmiş C.Həsənli onu tənqid edənləri vurmaqla məşğul olur:** "Misal üçün, 15 mart aksiyası haqda intervüsündə REAL və NİDA qurumlarına söz atır, onları sosial bazası, imkanları zəif adlandırır. Əslində ortada ciddi bir narazılıq, problem yoxdur, 15 mart mitinqi haqda da REAL və NİDA-dan bir neçə nəfər tənqidi qeydlər yazsalar da, meydanda bu qurumların xeyli üzvü var idi. Lider keyfiyyətləri tələb edir ki, bu cür narazıları iynələməyəsən, öz mübarizənin fokusunu ancaq iqtidara yönəldəsən, elə bir mübarizə ortaya qoyasan ki, artıq səninlə birgə olmamaq həmin narazı qrupların faciəsinə çevrilsin. İnsanları sənin arxanca getməyə maraqlı etməlisən, lider bütün xalqa, o cümlədən onun "sosial bazası zəif" qruplarına rəhbərliyə iddialı olmalıdır. Bayaq adını çəkdiyim Elçibəy hər cür adamlardan komanda qurmuşdu. *(Sonra bunları idarə edə bilməmək başqa mövzudur).* REAL və NİDA-nı zəif adlandırmaq isə həm də ədalətsiz yanaşmadır, çünki son illərin İlqar Məmmədov kimi mübarizlik örnəyi var. Həbsdə gənc yaşlarının 2 ildən çoxunu keçirdən NİDA-çılar var. Bu adamların xətrinə dəymək asan olmamalıdır. Siyasətçi belə eləməz. Cəmil müəllim isə hətta daha qabağa gedib AzadlıqRadiosunu mitinq meydanından pis şəkil yaymaqda *(adamlar az görünürmüş)*, xüsusi xidmət orqanları ilə əməkdaşlıqda suçlayır. Xalq hərəkatı liderinin, ümumiyyətlə, öz şəkillərinə baxmağa vaxtı olmamalıdır. Bu dərəcədə xırdaçılıq olmaz".

**NİDA üzvü, bir neçə ay öncə həbsdən azad edilmiş Zaur Qurbanlı "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, müsahibənin onlara aid olan hissəsi ilə tanışdır. Müsahibimizin sözlərinə görə, bu, növbəti mitinqdir:** "Bizim onu tənqid etməyimiz, onların bizə tənqid atəşi ilə cavab vermələri normaldır. Biz deyirik ki, bu mitinqlərin xeyri yoxdur. Onlar isə deyirlər ki, var. Zamanla kimin haqlı olduğu görünəcək".

**Z.Qurbanlı dedi ki, bu reaksiya gözlənilləndir, təbiidir:** "Bizə bu qədər hörmətlərinə görə şəxsən minnətdaram, qarşılıqlıdır. Biz gəncik, onlar qoca. Söhbət yaşdan daha çox başdan gedir. Bu, atalar-oğullar davasına bənzəyir. Hörmətlərini də saxlayırıq, ehtiram da bildiririk, amma mən onlarla razılaşmıram".

**Daha bir NİDA üzvü, bir neçə ay öncə həbsdən azad edilmiş Üzeyir Məmmədli xatırlatdı ki, NİDA üzvlərindən bir neçəsi facebookda mitinq barədə öz tənqidi fikirlərini yazıblar:** "Yəqin Cəmil bəyin tənqidi də buna görə olub. Ümumiyyətlə, NİDA təşkilat olaraq bu mitinqlərə qatılmamaq qərarı verib. Mən şəxsən bu mitinqlər barədə ictimai şəkildə heç bir fikir bildirməmişəm. Amma NİDA-nın bu qərarını dəstəkləyirəm. Burada əsas məsələ etimad məsələsidir. NİDA bir müddət Milli Şuranın tədbirlərində aktiv iştirak edib. Amma indi iştirak etmir. Demək ki, artıq Milli Şuraya etimad eləmir. Cəmil bəy NİDA-ya etimadlarının yüksəkliyini bildirməklə NİDA üzərinə mənəvi məsuliyyət qoymağa cəhd eləməkdənsə, NİDA-nın bu etimadsızlığının səbəbləri barədə düşünsə daha yaxşı olar, məncə".

**❑ Sevinc TELMANQIZI**



# Azərbaycanın Qərb üçün önəmi

**Azər RƏŞİDOĞLU**

**ABŞ təkqütblü dünya yaratmaq istəyir. Lakin son zamanlar dünyada Vaşinqtona qarşı açıq çıxış edən ölkələrin də sayı durmadan artır. Birləşmiş Ştatlara qarşı çıxış edən ölkələr başda Rusiya olmaqla, adətən antidemokratik ölkələrdir. Bəzən Ağ Ev bu ölkələrin qarşısından geri çəkilir.**

Sürətlə cərəyan edən proseslər ən çevik araşdırma mərkəzlərini belə çətin duruma salıb. Yaşadığımız region geopolitik məngənədə sıxılır. Cənubi Qafqaz regionunda dinamik siyasi proseslər cərəyan edir. Azərbaycan bu baxımdan bir qədər fərqli durumdadır. Bunun səbəbini müxtəlif cür yozurlar.

Azərbaycandakı siyasi proseslər müəyyən mənada Rusiyadakı proseslərə bənzəyir. Hakimiyyətə gələndən sonra sabiq Rusiya prezidenti Vladimir Putin demokratik və hüquqi dövlət anlayışını "effektiv dövlətçilik" anlayışı ilə əvəz etdi və bundan sonra ölkədə söz azadlığının və siyasi hüquqların məhdudlaşdırılması prosesi başlandı.

İndi Rusiyada hökumətin siyasətini tənqid edən çox az nəşrlər var, siyasi partiyaların fəaliyyəti nəzərə çarpmır.

Azərbaycanda da demokratiya anlayışına alternativ axtarmaq və ya onu milli, yerli formada təqdim etmek cəhdləri çox olub. Dövlət rəsmiləri demokratiyaya müxtəlif şərhlər, yozumlar verməyə başladılar.

Əvvəlcə "məsuliyyətli demokratiya" anlayışı meydana çıxdı. Bununla ölkədə mövcud olan sərt idarəçiliyə haqq qazandırmağa cəhd etdilər.

Hakimiyyət daim xaricdən demokratiyanın vəziyyəti ilə bağlı tənqidlərə məruz qaldığından sonradan "suveren demokratiya" anlayışı yarandı. Bu, daha çox neftdən gələn gəlirlərin artmağa başladığı son dövrlərə aiddir.

Son aylar dərc olunan yazılarda "demokratiya, yoxsa müasirləşmə" dilemması gündəliyə gətirilir və bir qayda olaraq müasirləşməyə üstünlük verilir.

Əslində demokratiyanı müasirləşmə olmadan və ya əksinə, müasirləşməni demokratiyasız təsəvvür etmək mümkün deyil. Azərbaycan rəsmilərinin çıxışlarında isə bunlar alternativlər kimi səslənir.

Dünyada isə demokratiya küləkləri əsir. Belə qlobal tendensiyanın qarşısını almaq mümkün olmayacaq. Azərbaycanda da demokratiya bərqərar olacaq.

Doğrudur, Qərb ölkələri də problemə həmişə adekvat yanaşmırlar, bütün ölkələrdə demokratiyanı prinsipial müdafiə etmirlər, amma hər halda getdikcə demokratiyanın cəbhəsini böyüdürlər.

Etiraf etmək lazımdır ki, sadaladığım ölkələrin hər birində demokratiya Qərb ölkələrinin, ilk növbədə Amerikanın köməyi ilə bərqərar olub. İstər Ukraynada, istər Gürcüstanda, istərsə də digər məxməri inqilablar baş verən ölkələrdə Qərb proseslərə açıq şəkildə müdaxilə edib.

Qərb üçün dəyərlər və maraqlar mövcuddur.

Qərb demokratik dəyərlərin təminatı məsələsini nəzərdə tutanda bunu ilk növbədə öz vətəndaşlarına şamil edir.

Azərbaycanda bu dəyərlərin tətbiqi məsələsinə gələndə isə burada maraqlar tərəfi daha üstün gəlir.

Amma eyni zamanda onu da nəzərə almaq lazımdır ki, Azərbaycan tərəfi demokratik dəyərlərdən özü imtina edir.

Eyni zamanda Azərbaycandan bir çox layihələrdə tranzit ölkə kimi istifadə olunur. Bu da hakimiyyətə müəyyən dividentlər verməmiş deyil.

Maraqların başqa bir qrupu isə regiondakı ciddi qarşıdurma ilə bağlıdır. Burada söhbət təkcə enerji maraqlarının toqquşmasından getmir.

Azərbaycanın regiondakı vəziyyəti ilə bağlı Avropanın, Rusiyanın və ABŞ-ın bir-birindən fərqli maraqları var.

Üçüncü maraqlar qrupu isə İranla bağlı olan məsələlərdir ki, Qərbin Tehranla münasibətlərində Azərbaycanın konkret yeri və rolu var.

Sonuncu - dördüncü qrup isə bütövlükdə Qərbin regiona münasibətinin hələ qeyri-müəyyən olmasını göstərir.

Qərb bu günə qədər müəyyənləşdirməyib ki, Cənubi Qafqaz regionu onun üçün hansı əhəmiyyət daşıyır?

Yəni Cənubi Qafqaz Qərb üçün bir xammal mənbəyidir, tranzit vasitəsidir, yoxsa vahid Avropanın tərkib hissəsidir. Bu məqamlara aydınlıq gətirildikdən sonra Qərb regionda baş verən proseslərə, o cümlədən ölkələrin daxilində cərəyan edən hadisələrə öz münasibətini dəqiq bildirəcək. Məhz bu suallara hələ konkret cavabın müəyyənləşdirilməməsi üzündəndir ki, bu gün Azərbaycan hakimiyyəti özünü məhz bu cür aparır.

Hazırda böyük siyasi, iqtisadi problemlərlə məşğul olan Qərb üçün Azərbaycan kimi ölkələrə reaksiya vermək vacib deyil...

# Müsavat Məclisinin üzvündən xəbərdarlıq

**Qubad İbadoğlunun sədrlik etdiyi Azərbaycan Demokratiya və Rifah Hərəkatında (ADR) olan Müsavat Partiyası üzvlərinin bəzilərinin davranışları partiyada narazılıq yaradıb. Xüsusilə də Vurğun Əyyubun və Ellada Məmmədlinin deputatlığa namizədliklərinin özləri deyil, rayon təşkilatı və Qadınlar Birliyi tərəfindən irəli sürülməsi ortaya yeni iddiaların çıxmasına səbəb olub.**



**Mustafa Hacıbəyli:** "Görünür, onlar seçkilərdə partiyanın iki siyahısının olması barədə rəy yaradırlar"



**Ellada Məmmədli:** "Qalmaqal yaratmağa ehtiyac yoxdur"

Müsavat Məclisinin üzvü **Mustafa Hacıbəyli** dünən bəyan edib ki, ADR rəhbərliyinin indi başqa məqsədləri ortaya çıxıb: "Belə görünür, onlar alternativ siyahı hazırlayıblar və cəmiyyətdə belə rəy yaratmaq istəyirlər ki, guya Müsavatın parlament seçkilərində iki siyahısı var. Yəni çalışırlar ki, Müsavatın bir dairədən iki namizədinin olduğunu nümayiş etdirsinlər. Biz Müsavat Partiyası olaraq buna imkan verməyəcəyik".

**APA-ya açıqlamasında Mustafa Hacıbəyli onu da deyib ki, Müsavat üzvlərinin iki yerdə təmsil olunması uzun müddət davam edə bilməz:** "Müsavat Məclisinin sədri Nüşabə Sadıqlının ADR-dəki müsavatçılara müraciətini dəstəkləyirəm, həqiqətən də Müsavat üzvlərinin iki yerdə təmsil olunması uzun müddət davam edə bilməz. Ümid edirəm ki, o adamlar özlərinə hörmət qoyacaqlar".

**M.Hacıbəyli Müsavat rəhbərliyinin ADR-də olan partiya üzvlərinin parlament seçkilərində iştirakına əngəl yaratdığı barədə fikirlərə də münasibət bildirib. Onun sözlərinə görə, Müsavat Partiyasının Nizamnaməsində göstərilib ki, partiyanın parlament seçkilərindəki namizədlərinin siyahısını Məclis müəyyənləşdirir:** "Məclisi tanımayan, Məclisə qatılmayan insanların həmin səsvermədə səs yığacaqları gözlənilmir. Digər tərəfdən, burada Müsavat əleyhinə fəaliyyət göz qabağındadır. Düşünürəm ki, onların bu fəaliyyətlərinə görə müvafiq tədbirlər görülməlidir".

**M.Hacıbəyli partiyanın Suraxanı rayon təşkilatının rəhbərliyini sabotaj yaratmaqda ittiham edib:** "Suraxanı rayon təşkilatının rəhbərliyi 6 aydır sabotajla məşğuldur, partiyanın qərarlarını icra etmir, üzvlük haqqını ödəmir. Nümayişkaranə şəkildə Sədrlər Şurasına, Məclisə qatılmırlar, partiya ilə əlaqəni tamamilə kəsiblər. Bütün bunlar partiyanın nizamnaməsinə ziddir. Müsavatın qərarlarını icra etməyən və nizamnamə tələblərini yerinə yetirməyən təşkilatlar haqqında tədbirlər görülür və yəqin ki, bu məsələyə də baxılacaq".

**ADR sədrinin müavini, Müsavat Qadınlar Birliyinin sədri Ellada Məmmədli isə "Yeni Müsavat"a bildirib ki, M.Hacıbəylinin ADR-dəki müsavatçılar haqqında iddialarının əsası yoxdur:** "ADR-dəki müsavatçılar Müsavatın ziyanına heç bir fəaliyyətdə bulunmurlar. Müsavat Partiyası üzvlərinin ya Azərbaycan Demokratiya Rifah Hərəkatı, ya da Müsavat Partiyasında təmsil olunmaları ilə əlaqədar seçim etmələri ilə bağlı çağırışlar nizamnamə pozuntusudur. Hər bir insanın vətəndaş kimi haqq və hüquqları var. Müsavatın Nizamnaməsində yazılmır ki, partiya üzvü hər hansı bir ictimai qurumda təmsil oluna bilməz. ADR-in də Nizamnaməsində yazılmayıb ki, bu qurumun üzvü siyasi partiyalarda təmsil oluna bilməz. Əgər vətəndaşın qüvvəsi, enerjisi, vaxtı bir neçə qurumda fəaliyyət göstərməyə imkan verirsə, bu qurumlarda təmsil olunmaq onun hüququdur və hüququ tapdalanmamalıdır. Seçim etməklə bağlı çağırış insan, vətəndaş hüquqlarının tapdanmasıdır".

**Deputatlığa namizədliyin irəli sürülməsinə gəlincə, E.Məmmədli bildirdi ki, burada heç bir nizamnamə pozuntusu yoxdur:** "Şəxsən mənim namizədliyimi Müsavat Qadınlar Birliyinin Şurası irəli sürüb, buna məsul da Qadınlar Birliyinin seçkilər üzrə sədr müavinidir. Qadınlar Birliyinin namizədlik sənədi rəhbərliyə təqdim olunub. Qadınlar Birliyinin sədr müavini Dünyaxanım Cərullayeva protokoldan çıxarışı təqdim edib və Gülağa Aslanlı qəbul eləyib".

**E.Məmmədli onu da dedi ki, nizamnamənin tələbini təhrif olunmuş qaydada təqdim etmək cəhdi hiss olunur:** "Mən namizədliyimi fərdi qaydada versəydim həmin tələb o zaman tətbiq olunmalıdır. Məni isə Qadınlar Birliyinin Şura üzvləri seçiblər. Məncə, buna hörmətlə yanaşmaq lazımdır və qalmaqal yaratmağa ehtiyac yoxdur.

Yox, əgər rəhbərlik mənə olan qərəzi nümayiş etdirmək niyyətindədirsə, bu, onlara başucalığı gətirmir".

**❑ E.SEYİDAĞA**

# Dövlət büdcəsinə yenidən baxmağa ehtiyac varmı?

**"Biz dövlət büdcəsini təsdiq edəndə neftin qiymətini 90 dollar təsdiq etmişdik. Amma hazırda dünya bazarında neftin qiyməti təxminən 55-60 dollar səviyyəsindədir. Yəqin ki, bu ilin axırınadək belə davam edəcək. Çünki proqnozlar da elədir".**



**Vahid Əhmədov:** "Azərbaycan hakimiyyəti çox ağıllı addım atıb..."



**İqbal Ağazadə:** "Neftin qiyməti 50 dollardan götürülməlidir"

**Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü, deputat Vahid Əhmədov** bunu Azərbaycanın dövlət büdcəsində dəyişikliyin olub-olmayacağı barədə sualın cavabında bildirdi. Qeyd edək ki, artıq Rusiya mövcud reallıqları nəzərə alaraq dövlət büdcəsini yenidən müzakirə edərək təsdiqləyib. Azərbaycanda adətən büdcə dəyişiklikləri may ayında həyata keçirilir. Bu dəfə isə hələlik büdcəyə baxılıb-baxılmayacağı bəlli deyil. V.Əhmədov indiki halda buna zərurət görmür: "Düzdür, dövlət büdcəsinə neftin birbaşa təsiri cəmi 11 faizdir, bu da təqribən 2 milyard 200 milyon manat edir. Odur ki, büdcəyə baxıla da bilər, baxılmaya da. Neftin qiyməti 60 dollar səviyyəsində qalarsa, təxminən 650-700 milyon manat dövlət büdcəsində fərq olacaq. Azərbaycan hakimiyyəti isə çox ağıllı addım atıb. O mənada ki, investisiya layihələrini təsdiq edəndə orda 1 milyard manat ehtiyat saxlayıb. Bu ehtiyat ona görə saxlanılıb ki, sabah neftin qiymətində kəskin enmələr olarsa, büdcədə ciddi problem yaranmasın. Ancaq ola bilsin neftin qiyməti 50-60 səviyyəsində qalarsa, heç dövlət büdcəsinə baxmağa zərurət olmasın".

**V.Əhmədov deyir ki, Rusiyada vəziyyət tamamilə başqadır. Ona görə də şimal qonşumuzla Azərbaycanı müqayisə etmək olmaz:** "Rusiyada dövlət büdcəsi əsasən neftdən asılıdır. Amma bizim ehtiyatımız olduğu üçün ehtiyatdan istifadə etmişik. Neft Fondundan 10, 3 milyard manat dövlət büdcəsinə transfert olunub. Lakin büdcəyə yenidən baxılıb-baxılmaması gedən proseslərdən asılıdır. Yəni apreldə, mayda proseslər hansı istiqamətdə davam edəcək, bundan asılı olacaq. Bizim dövlət büdcəmiz müəyyən qədər neftin qiymətindən asılıdır".

**İqtisadçı deputat manatın kursu ilə bağlı gözləntilərini də bölüşdü:** "Manat 34 faiz devalvasiyaya uğrayandan sonra müəyyən proqnozlar verilir, bəzi söhbətlər gedir, həmçinin qiymət artımı əsas müzakirə mövzusudur. Qiymət artımı labüddür, bunun qarşısını almaq mümkün deyil. İnzibati yolla müəyyən qədər artımın qarşısını almaq mümkün olsa da, son nəticədə əksər məhsulların istehsalında xaricdən gətirilən xammal istifadə olunduğu üçün qiymət artımı olacaq. Yalnız daxildə istehsal olunan məhsulların qiymət artımına fikir vermək lazımdır. İqtisadi İnkişaf Nazirliyi bu məhsullara diqqət yetirməlidir ki, süni qiymət artımı olmasın". **V.Əhmədov bildirdi ki, hələlik manat öz həqiqi bazar qiymətini almayıb:** "Yəni real məzənnəsi bugünkü dəyərdir. Ola bilər ki, manatın məzənnəsində müəyyən dəyişiklik baş versin. Amma yəqin ki, o dəyişiklik yaxın vaxtlarda olmayacaq, biz birinci yarımildə dəyişikliyi gözləmirik. Lakin neftin qiyməti 50 dollardan aşağı düşərsə, 30-40 dollar olarsa, əlbəttə, manatın devalvasiyası labüddür. Ancaq Mərkəzi Bank elə addım ata bilər ki, kəskin yox, yumşaq devalvasiya həyata keçsin".

**Ümid Partiyasının sədri, deputat İqbal Ağazadə isə büdcəyə ənənəvi qaydada mayda baxılacağını vurğuladı:** "Büdcəyə yenidən baxılmasına da mütləq mənada zərurət var. Əgər neftin qiyməti ilə bağlı investisiya layihələrinin gerçəkləşdirilməsində problemlər varsa, büdcə mütləq dəyişməlidir". İ.Ağazadənin fikrincə, büdcənin yenidən təsdiqlənməsi halında neftin qiyməti 50 dollardan götürülməlidir.

**❑ E.PAŞASOY**

YENİ MÜSAVAT
N 66 (6094) 31 mart 2015

**Təxminən 17 ildir ki, 31 mart dövlət səviyyəsində Soyqırım günümüz kimi qeyd edilir. Bu soyqırım Azərbaycan xalqı və dövlətçiliyinin tarixində baş vermiş faciəli hadisələrə milli yaddaşın təzahürü də sayılır. Azərbaycan türklərinin kütləvi surətdə qırğını, repressiyalara məruz qalması, doğma yurdlarından sürgün edilməsi və didərgin salınması XX əsr tarixinin ən faciəli və dəhşətli səhifələrindən hesab oluna bilər. Bu günlər bir daha istər ölkə daxilində, istərsə də xaricdə yaşayan soydaşlarımızın da soyqırım günü ilə bağlı tədbirləri keçirilir. Təsadüfi deyil ki, bu il ermənilər də saxta soyqırım iddialarının 100 illiyini qeyd edir və dünyanın ayrı-ayrı nöqtələrində erməni cəbhəsində böyük hazırlıq işlərinin həyata keçirilməsinin şahidiyik.**



**Rüfət MURADLI**
**Ümid Partiyasının İctimaiyyətlə əlaqələr və xaricdə yaşayan soydaşlarımızla iş üzrə sədr müavini**

# Soyqırım gerçəyimiz, yetərsiz siyasətimiz...

Dünyanın 20-dən artıq ölkəsinin, o cümlədən Avropanın Fransa, İtaliya, Almaniya kimi nəhənglərinin, ABŞ-ın 30-dan cox ştatının, hələ 1995-ci ildən Rusiyanın da rəsmən tanıdığı bir "soyqırım" iddiasının müqabilində biz, Azərbaycan olaraq, gerçək bir soyqırım faktını dünya ictimaiyyətinə çatdırmaq xüsusunda nə qədər təsirli fəaliyyət göstərmişik?

Dünyanın 20-dən artıq ölkəsinin, o cümlədən Avropanın Fransa, İtaliya, Almaniya kimi nəhənglərinin, ABŞ-ın 30 dan cox ştatının və nəhayət hələ 1995-ci ildən Rusiyanın da rəsmən tanıdığı bir "soyqırım" iddiasının müqabilində biz, Azərbaycan olaraq, gerçək bir soyqırım faktını dünya ictimaiyyətinə çatdırmaq xüsusunda nə qədər təsirli fəaliyyət göstərmişik? Bu məsələ ilə bağlı cavabdeh olan dövlət qurumu ya qurumları qonşularımızın total təbliğat hücumuna adekvat cavab verə biliblərmi?

Əlbəttə ki, hələ 20-ci əsrin sonlarında bəşəriyyətin gözləri önündə törədilən Xocalı soyqırımının bəzi ölkələr tərəfindən rəsmi şəkildə tanınmasına nail olmaq görülən işlərin "pik nöqtəsi" sayıla bilər. Amma Meksika, Honduras, Kolumbiya, Peru, Çexiya, Bosniya-Hersoqovina və Pakistanın dünyanın siyasi arenasındakı yerindən bəhs etməkdə hər hansı fayda görmürəm. Dünyanın bizə qarşı ikili standartlarla davranması faktını da qəbul edirəm. Amma ümumilikdə dövlət və millət olaraq bu yöndəki kompleks fəaliyyətlərimiz nə qədər effektiv olub? Mediamızın rolu bizi soyqırıma məruz qalmaqda da analoqu olmayan bir millət kimi təqdim etməklə məhdudlaşır. Sonucda cəmiyyətdə mübarizə ruhu sönür, problemlərin rasional həll yollarının tapılması ilə bağlı yollar dalana dirənir. Digər tərəfdən, Azərbaycan ordusunun gücü və potensialından bəhs edən müsahibələr və mövqelərin təqdim edilməsi də artıq cəmiyyətdə ikrah obyektinə çevrilib. Başqa tərəfdən, əgər ümummilli məsələlərdə iqtidar -müxalifət ayırımı qabarırsa və bu tendensiya xaricdəki diaspora fəaliyyətlərindən belə yan keçmirsə nəticədə milli təşkilatlanmada əlbəttə ki fiasko ilə üzləşəcəyik. Elə bu yanlış siyasətin nəticəsidir ki, soyqırım tədbirlərinə soydaşlarımızın cəlb olunması üçün xaricdə fəaliyyət göstərən qurumlarımız ermənilərdən fərqli olaraq xüsusi maddi-həvəsləndirici vasitələrdən belə istifadə edirlər. Halbuki ümummilli məsələlərdə ran məhz erməni diasporası idi. Yaqin ki, bizdən fərqli olaraq iqtidar- müxalifət yönünü də nəzərə almadan. Bizimkilər isə nə yazıq ki, hələ də Bakıdan gələcək "direktivlər" və bu "direktivlər"i şərtləndirən "qəpik- quruşlar"a ümid etməkdədirlər.

Bütün bunları müşahidə edəndən sonra əlbəttə ki ermənilərin təbliğat triumfunun səbəblərini gedib uzaqda axtarmağa dəyməz.

Düşünürəm ki, əslində diaspora fəaliyyətini əsas etibarilə mühacirətdəki soydaşlarımızın mənəvi faktorlar prioritet təşkil etməlidir. Nə yazıq ki, diaspora siyasətimiz yalnız maddi dayaqlara söykəndiyi üçün bu yetərsizlik özünü aşkar şəkildə büruzə verir. Təsadüfi deyil ki, son günlər mühacirətdəki dostlarımızdan biri deyirdi ki, Avropadakı tədbirlərdən birinə qatılan üç minə yaxın erməninin dörd yüzə yaxını uzaq Avstraliyadan gəlmişdi. Üstəlik öz imkanları hesabına. Amma onları təşkilatlandıvətəndaş təşəbbüslərinin öhdəsinə buraxmaqla daha uğurlu sonuclar ala bilərik. Üstəlik, bu sahədə nəhəng dövlət qurumunun olmaması ilə dövlət büdcəsinə qənaət olunmaqla yanaşı ölkə xaricində diaspora fəaliyyətləri ve lobbiçilik adı ile "tələf" olunan yersiz xərclərin də qarşısı alınar. Hətta Diaspora komitəsinin maddi "dəstəyi" üstündə gedən "savaşlar" da sona yetmiş olar. Şəxsi müşahidələrim bunu da deməyə əsas verir ki, belə olduğu təqdirdə mühacirətdə Quzey və Güney Azərbaycan adına fəaliyyət göstərən soydaşlarımız arasında da inteqrasiya, əməkdaşlıq atmosferi də yüksək səviyyədə və səmimi olar. Eləcə də diaspora çalışmalarında nisbətən müstəqil və aktiv təşkilatlar üçün süni surətdə yaradılan "alternativlər" də ortaya çıxmaz. Hər halda, bu da üzərində dayanmalı olduğumuz önəmli mövzu, eyni zamanda həqiqətlərimizin dünya ictimaiyyətinə çatdırılması yönündə yetərsiz qalan sferamızdır. Və düşünürəm ki, bu mövzuya təkrar təkrar qayıtmağımızda fayda olar. Amma hazırkı status-kvoda Azərbaycan hakimiyyəti, daha korrekt desək hakimiyyətin diaspora ilə məşğul olan qurumu milli faciələrimiz və tarixi həqiqətlərimizin tanıtdırılması yönündəki fəaliyyətlərə daha peşəkar, iqtidar maraqlarını deyil, məhz dövlət maraqlarını, milli maraqları əsas tutan prizmadan yanaşmalıdır. Bu istiqamətdə Türkiyə diasporası ilə paralel çalışmalarda da böyük fayda olacağını düşünürəm. Biz dünyaya faktlarla, sənədlərlə, arqumentlərlə səslənməyi bacarmalıyıq. Bəzi dövlətlərin ikili standartları ilə üzləşsək də belə, xalqlara ədalətli mövqeyimizi çatdırmaqda israrlı olmalıyıq. Yetər ki, haqlı olduğumuzu haqlı və doğru yanaşma ilə təqdim edək, tanıtdıraq!

# Ümid Partiyası bəyanat verdi

**Son vaxtlar satirik şair Mirzə Sakitlə AXCP funksionerləri və mühacirətdə olan jurnalist Fikrət Hüseynli bir-birilərinə qarşı xoşagəlməz ifadələrlə mətbuat orqanlarında çıxış edir, ciddi ittihamlar irəli sürürlər. Təəssüflər olsun ki, bəzən etik normalardan kənara çıxaraq mübahisəyə heç bir aidiyyatı olmayan tanınmış ictimai-siyasi şəxslərin də adını hallandırırlar. Adı hallandırılan şəxslərdən biri də Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadədir.**

Hesab edirik ki, insanlar arasında hansısa dostluq əlaqələrinin, yaxın münasibətlərin olmasının adiyyatı olmayan məsələlərdə hallandırılması etik qaydalara ziddir. İnsanlar bir-birinə hörmət edərəkən, dostluq münasibəti saxlayarkən başqalarından məsləhət alası deyil. Bu cür məsələlərdə şəxsi münasibətlərə istinad edilməsi, insanlar arasındakı dostluq münasibətlərinə kölgə salınmağa və bundan şəxslərə qarşı mənfi mənada istifadə olunmasına çalışılması, məsələdə aidiyyatı olmayan tanınmış insanların adının hallandırlması yolveriməzdir. İqbal Ağazadənin Mirzə Sakitlə dostluq münasibətləri uzun illərdir davam edir, bu dostluq münasibətində heç bir təmənna da umulmur.

❑ **Ümid Partiyasının Mətbuat Xidməti**

**Kiçik yaşlarımızda böyüklərin bizdən soruşduğu müntəzəm bir sual vardı: "Böyüyəndə kim olmaq istəyirsən?" Hərəmiz bu suala dövrünə uyğun olaraq bir cavab verirdik. Sovetlər dönəmində bu sualın cavabı ilk növbədə kosmonavt, prokuror, polis idisə , istiqlalımızın ilk illərindən başlayaraq cavabın məzmunu mövcud ictimai-siyasi şəraitə uyğun olaraq dəyişdi-kommersant, əsgər, biznesmen, polis, siyasətçi, sürücü və s. Bütün bu cavablar illər keçdikcə reallaşdı, hətta bizdən kosmonavt olanlar da tapıldı. Lakin bir qisim isə cəmiyyətdə özünə mövqe tutmaqda çətinlik çəkərək sosial yerləşimin ən dibində yer aldı və "təkər qaraldan", "moykada" maşın yuyan, bazarda araba çəkən, ordudan yarımşikəst halda təxris olub lotoreya bileti satmaqla məşğul olan və də sayı minlərlə ifadə ediləcək "malyar" arasında özünə təsəlli tapdı.**



**Qədir ASLANOV**
**Ümid Partiyası Seçki və Təbliğat şöbəsinin müdiri**

# Axı niyə o əjdahadan bizdə yoxdur?

İnanmaq istədiyim daha bir məqam da var- haqqı dərk etmiş vətəndaş cəmiyyətini, beyin aydınladan təhsili, əxlaqlı iqtisadiyyatı və şanlı qalib ordunu qurmaq da nəsibimiz olacaq, növbəti nəsillərə bu yükü ağır miras kimi ötürməyəcəyik

Ancaq bir məsələ var; baxaq görək biz bu ixtisaslara və peşələrə yiyələnməsək, yaxud yiyələnməzdən əvvəl kim oluruq, özümüzə sual verək ; Axı sən bir yerdə işləməsən və şəxsi biznesin olmasa kimsən bu cəmiyyətdə? Axı sən **KİMSƏN?**

Sual sadə olduğu qədər də düşündürücüdür. Müxtəlif cavabların olması ehtimalını nəzərə alaraq inkişaf etmiş cəmiyyətlərdə bu sualın cavabına nəzər salaq - **"MƏN HƏR ŞEYDƏN ÖNCƏ VƏTƏNDAŞAM"**... Həmin dövlətlərin insanı özünü tamhüquqlu, təhlükəsizliyi və ədaləti təmin edilmiş **VƏTƏNDAŞ** olaraq hiss edir. Özünə dair vəzifə və öhdəlikləri olduğunu dərk edir, bütün vətəndaşlıq haqlarından geninə-boluna istifadə edəcək qədər savadlıdır, maariflidir. Bəs bizdə bu mənada durum necədir? -Bərbad vəziyyətdədir. Səbəb? Aşağıdakı tezisləri səbəb kimi göstərmək olar məncə..

**1)** Əvvəla, biz uzun illərdir kollektiv demokratiyanın ictimai şüurumuza vurduğu zərbələrdən əziyyət çəkən azərbaycanlılarıq....

**2)** 18 yaşımıza çatarkən aldığımız vətəndaşlıq pasportu (şəxsiyyət vəsiqəsi) bizim üçün kredit götürməkdən, kommunal xərcləri ödəməkdən və TQDK-da imtahan verməkdən və hərbi xidmətə çağırılmaqdan başqa heç nədə gərəkli görünmür. Cibimizdəki pasport "iPhon"umuz qədər hörmətli deyil, heç kağız parçası qədər də urvatı yoxdur.

**3)** Biz dərk etmirik ki, ölkənin ali qanunu olan konstitusiya, qanun məcəllələri, hüquqi aktlar və normativlər, hüquq mühafizə orqanları, ordu, məmurlar, millət vəkilləri və ən sonda prezident bizim şəxsiyyət vəsiqəmiz olmadan, bizim iradəmiz olmadan sadəcə ola bilməzlər və onlar bizə xidmət etmək üçün mövcuddurlar.

**4)** Papuazlardan və Seneqaldakı qəbilə və sürü halında yaşayan insanlardan fərqimizi dərk etmirik ki, yerləşdiyimiz coğrafi mövqe, tariximiz, qonşularımız və s. bu kimi şərtlər bizdən **VƏTƏNDAŞ** olmağı tələb edir.

**5)** Bizim **VƏTƏNDAŞ** olmağımız düşünən beynimizi mədəmizə sırıyıb kütləşdirənlərin marağında deyil. Əksəriyyətimiz mənafeyimizi birbaşa müdafiə edən konstitusiyanı ömrümüzdə heç olmasa bir dəfə də olsun vərəqləməmişik və s.

Bu siyahını çox uzatmaq olar, lakin sadalamaqla iş bitmir. Azərbaycan Respublikasının vətəndaşları, nə qədər ki tibbi xidməti Səhiyyə nazirliyindən deyil Elgizin verilişindən alacaqlar, nə qədər ki, işsiz insanlarımız məşğulluq idarələrinin yerini deyil, Zaurun qapısını döyəcəklər, hüququ pozulan, haqqı tapdanan insanlar ali orqan sayılan məhkəmədən deyil televiziya aparıcılarından imdad umacaqlar biz dəyişə bilməyəcəyik. Sosial rifahı təmin etmək, hüququn aliliyi bərqərar olan cəmiyyəti qurmaq və sağlam və təhlükəsiz yaşamaq istəyiriksə və ən nəhayət tamhüquqlu **VƏTƏNDAŞ** vərdişlərinə yiyələnmək istəyiriksə, papağımızı yox, şəxsiyyət vəsiqəmizi qarşımıza qoyub düşünməliyik və seçim etməliyik. Ya biz hamılıqla onun-bunun ölkəsinə qaçıb bu torpaqları erməniyə peşkəş çəkəcəyik, ya da qətiyyətli qərar verib seçkilərdə sandıqları öz xeyrimizə çalışdıraraq millətin və Azərbaycan Respublikasının xilasını, gələcək nəsillərin rifahını təmin edəcəyik.

İnanmaq istədiyim daha bir məqam da var- haqqı dərk etmiş vətəndaş cəmiyyətini, beyin aydınladan təhsili, əxlaqlı iqtisadiyyatı və şanlı qalib ordunu qurmaq da nəsibimiz olacaq, növbəti nəsillərə bu yükü ağır miras kimi ötürməyəcəyik. Ancaq hər şey seçkilərə getməkdən və səs verməkdən asılıdır. Əgər yenə də hakimiyyət təhdid gücünə müəllimləri 200 manat maaş itkisi ilə qorxudaraq 9 milyonun milyardlarını talamaq, gələcəyini qaraltmaq və azadlıqlarını əlindən almağa müvəffəq olacaqsa gerisi seçki məntəqələrində deyil, təlatümün, inqilabın mətbəxində həll olunacaq, özü də millətin ziyanına.

Bu baxımdan da biz polis, prokuror, həkim, müəllim, bənna, rəngsaz, çilingər və S. olmazdan öncə **VƏTƏNDAŞ** olmağı hədəfləməliyik. Övladlarımızın kiçik yaşlarında yuxarıdakı suala "Mən böyüyəndə **VƏTƏNDAŞ** olacağam" cavab verməsinə nail olmalıyıq. Ancaq özümüz üçün yaşamalı deyil, ictimaiyyətə töhfə vermək kimi də amacımız olmalıdır.

Bütün bunların nəticəsi olaraq, biz pasportlu insan yığını olmaq durumundan çıxıb, cibimizdəki şəxsiyyət vəsiqəsinin bizə verdiyi **VƏTƏNDAŞLIQ** imtiyazlarından tam istifadə edərək sosial rifah dövlətini, güclü dövləti qura bilərik.

**P.S.** *ABŞ-da 18 yaşına çatan vətəndaşlar bələdiyyə sədri vəzifəsinə namizədlik verib, qalib ola bilirlər. Axı niyə o əjdahadan bizdə yoxdur?*

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# Göydə uçan patriotizm

Zamin HACI
zaminhaci@gmail.com

“Tiflisin üstü bostan
Gözəl yerdir Gürcüstan.
Namərdin qaydasıdır
Ayırar dostu dostdan"

(bayatı)

**Bəzi vətəndaşlarımız AZAL təyyarələri ilə uçmağın baha olmasından şikayətlənirlər. Örnək üçün, vəkil Aslan İsmayılov yazır: “Bilet qiymətləri ilə bağlı qısa araşdırmalar göstərdi ki, Azərbaycan Hava Yolları bu sahədə inhisarçıdır və istənilən istiqamətə bilet qiymətləri başqa ölkələrlə müqayisədə təxminən iki dəfə bahadır. Bakıya uçan başqa ölkə reysləri də AZAL-ın diktəsi ilə biletləri qat-qat baha qiymətə satmağa məcbur edilir.**

Bayram gunləri AZAL-ın qiymətləri qaldırmasına görə Türk Hava Yolları da məcburən qiymətləri qaldırır. Novruz bayramı ərəfəsində Bakı-İstanbul-Bakı reysi 600 avro olur. Təxminən eyni məsafə olan Tbilisi-İstanbul-Tbilisi isə 200 avrodur.

Bakıdan Kiyevə uçan reyslərdə qiymətlər 450-600 avro olur. Ukrayna Hava Yollarının eyni məsafədə olan digər ölkələrə uçuş qiyməti 200 avro civarındadır.

Məsələn, təxminən eyni məsafə olan Kiyev-Tbilisi-Kiyev reysinin gediş, dönüş qiyməti 180-220 ABŞ dollarıdır. Bakı-Riqa-Bakı reysi 500 avrodan artıq olduğu halda Tbilisi-Riqa-Tbilisi reysinin gediş dönüş qiyməti 250 avrodur". Sitatın sonu.

Hələ bu vəkildir, ziyalıdır, gör nələr düşünür. Sən belə fikirləşəndən sonra savadsız camaat neyləsin? Üstəlik, belə dırnaqarası ziyalılarımız xalqımıza məsləhət görürlər ki, onlar AZAL-ı boykot eləsinlər, qatara, avtomobilə minib Tiflisə getsinlər, xaricə ordan uçsunlar. Nəticədə Cahangir müəllim ziyana düşsün, AZAL-ın ofşor zonalardakı cürbəcür hesablarından dolananlar ac qalsın. Guya Cahangir müəllim o hesabları təkbaşına yeyir? Ay hay... Kürdəxanıya “uçmaq” istəmirəm, yoxsa yazardım.

Başqa yöndən, vətənpərvər olmalıyıq, öz canavarlarımızı başqa xalqların quzularından doğma, üstün bilməliyik. Erməni əsgər Andranik müəllim əsir düşəndən bəri gündə üç dəfə isti yeməklə, meyvə şirəsi ilə qidalanır, intervü verib, deyir bütün erməniləri yaşamaq üçün Bakıya dəvət edirəm. Başqa bir cavan güləşçi yarışda erməni himni çalınanda çömbəltmə oturub. Sən bunları görə-görə nə təhər antipatriot olursan? Ayıb deyilmi?

Millətin uşaqlarını Tiflisə, gürcü təyyarəsinə minməyə çağırmaq ilk növbədə mənəvi məsuliyyətsizlikdir. Lazım gəlsə cinayət məsuliyyəti də yaradır. Fikrimcə, MTN bu mövzuda tədbirlər görməlidir. “Zeytun” ləqəbli cəsur çekist, təzəlikcə “Vətənə 1-ci dərəcəli xidmətə görə 3-cü dərəcəli Şərəf ordeninin 2-ci səviyyəsi” medalı almış generalissimus Akif Çovdarovu əməliyyatlara cəlb eləmək məqsədyönlü olardı, çünki dəqiqləşdirilməsi qeyri-mümkün məlumatlara görə Akif müəllim əslən gürcüstanlıdır. *(Əsl çekistin yeri-yurdu gizli qalmalıdır. Sözgəlişi, vaxtilə mən Akif müəllimin cahanşümul fəaliyyəti haqda “Zeytunluqda Çovdarovdan qoruyan” adlı yazı yazmışdım, lakin buna görə mənə “Selincer adına 4-cü dərəcəli medal” verən olmadı. Qədirbilməz millətdi, neyləyəsən).*

Qayıdaq mövzumuza, mövzumuz isə ondan ibarətdir ki, Gürcüstan uçaqlarından yararlanan soydaşlarımızı tutub cəzalandırmalıyıq. Bunun hansısa mexanizmləri düşünülməlidir, çünki gör nə qədər pul aradan çıxır, vətəndaşların cibində qalır.

Məncə ilk növbədə Sınıq Körpü kimi Gürcüstana keçid məntəqələrində ciddi nəzarət qurulmalıdır. Kiminsə cibində gürcü təyyarə bileti çıxsa dərhal həbs olunmalıdır. Çantasında gürcü təyyarəsinin yük birkası olanları lap yolun qırağında ağaca bağlayıb güllələmək olar. Bir neçə nəfərin qaşqasına güllə qoysan ondan sonra görüm AZAL-a necə bivəfa çıxırlar. Ölünü özbaşına qoysan, təyyarə reysini səhv salar - atalar demişkən. Hökumət eşşək boyda “Boinq”lərə, “Airbus”lara dünyada olmayan pul verib gətirib ki, sən gürcü uçağında uçasan? Niyə ölüb yerə girmirik?

# “Ermənistan rəhbərliyi özünü lal-karlığa vurub...”



**Cəbhə xəttində düşmənin xain təxribatları davam edir. Son vaxtlar bu təxribatlar tez-tez lokal döyüşlərə gətirməklə yanaşı, həm də diqqətçəkicidir ki, işğalçı qüvvələrin daha ağır itkilər verməsi ilə müşayiət edilməkdədir.**

# Qarabağda gecə döyüşləri: çoxlu erməni əsgəri öldürüldü!

## Müdafiə Nazirliyi: “Düşmənin itkiləri daha böyükdür...”; Azərbaycan tərəfə qaçmış Andranik Qriqoryanın işğalçı orduda başıpozuqluğun hökm sürdüyü barədə söylədikləri bir daha təsdiqini tapır; erməni hərbçiləri arasında vərəm və suçiçəyi epidemiyası da yayılıb...

Son dəfə - Novruz bayramı ərəfəsində törədilən bu cür təxribatların birində erməni tərəfi rəsmi məlumata görə, 20-dək hərbçisini itirmişdi. Düşmən tərəf 5 ölüm faktını (bir yaralının sonradan hospitalda keçindiyi deyilirdi) təsdiqləsə də, az sonra (martın 22-də) silahını ataraq Azərbaycan tərəfə keçən hərbçi Andranik Qriqoryanın söylədikləri itkilərin həqiqətən 5-dən çox olmasına və erməni işğalçı ordusunda acınacaqlı ab-havanın və başıpozuqluğun hökm sürdüyünə şübhə yeri saxlamadı.

Belə bir qənaətin bir təsdiqi də Ermənistan prezidenti Serj Sərkiyanın həmin günlərdə “France 24" telekanalına verdiyi müsahibədə müharibə xofunu dilə gətirməsi sayıla bilər. Sərkisyan demişdi: ”Qəfil insidentlər eskalasiyaya gətirə bilər. Bu, əlbəttə ki, bizi narahat edir. Ermənistan müharibədən qorxur, şəxsən mən də qorxuram". Ancaq Sərkisyan bilməlidir və yəqin bilir də ki, Azərbaycan ərazilərinin işğalı davam etdikcə müharibə ehtimalı da həmişə qalacaq və yad torpaqlar onun hərbçiləri üçün gec-tez məzara çevriləcək.

***

Artıq çevrilir də. Belə ki, martın 29-dan 30-na keçən gecə Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində döyüşlərdə düşmən tərəfin növbəti dəfə ciddi itki verdiyinə dair məlumatlar yayılıb. Virtualaz.org xəbər verir ki, bu haqda express.am və ilur.am erməni saytlarında məlumatlar yer alıb.

“Ötən sutka ərzində biz gözləyirdik ki, hökumət öz vətəndaşlarına həqiqətləri deyəcək. Lakin növbəti dəfə ”DQR" və Ermənistan əhalisi çaşqınlıq vəziyyətindədir. Belə ki, 29-30 mart tarixlərində cəbhənin bir çox istiqamətlərində toqquşmalar olub. Tavuş istiqamətində bir hərbçi daxili orqanlarını deşib keçən çoxsaylı güllə yaralarından ölüb. Yuxarı Seyid-Əhmədli istiqamətində (Ağdam-red.) bir əsgər həlak olub. Qarakənd istiqamətində dörd ölü var. Talış istiqamətində Ermənistan vətəndaşı öldürülüb" - məlumatlarda deyilir.

Düşmən ölkə KİV-ləri onu da yazır ki, erməni hərbçiləri arasında vərəm və suçiçəyi epidemiyası yayılıb. Yerli əhalinin bildirdiyinə görə, yaralılar və xəstələr üçün dərman çatışmır. Bu üzdən yaralılar və vərəm xəstələri üçün Qarakəndə dislokasiya olunmuş 3-cü polkun 4-cü batalyonunda səhra hospitalının yaradıldığı bildirilir.

“Lakin heç bir şübhə yoxdur ki, bu dəfə də bizim rəhbərliyimiz özünü lal və karlığa vuracaq. Müdafiə Nazirliyinin şəffaf olmayan fəaliyyəti, vətəndaş cəmiyyətinin nəzarətinin yoxluğu, deputat korpusunun laqeydliyi bundan sonra da erməni ordusunda itkilərə səbəb olacaq” - erməni KİV-ləri yazır.

Burdaca qeyd edək ki, Ermənistan Müdafiə Nazirliyi ötən gün (axşam) deyilən istiqamətdə həqiqətən bir əsgərini itirdiyini rəsmən təsdiqləyib. Bu - 20 yaşlı Ovsep Andeasyandır. Yəqin ki, davamı da gələcək.

***

**Azərbaycan Müdafiə Nazirliyi isə martın 29-30-da ermənilərlə cəbhədə döyüşlərin olduğunu təsdiqləyib:** “Lakin erməni tərəfinin itkiləri heç də erməni mediasında bildirildiyi kimi, 7 nəfər yox, daha çoxdur. Sadəcə, hələ onların qeyri-rəsmi formada açıqladıqları budur. Yəqin ki, ermənilər öz itkilərini dəqiqləşdirməklə məşğuldurlar. Konkret olaraq dünən (srağagün -red) axşam gedən döyüşlərdə erməni tərəfinin çoxlu itkiləri olub və bu itkilər göstərilən rəqəmlərdən qat-qat artıqdır. Yəqin ki, onlar itkilərini yavaş-yavaş, tədricən ortaya çıxaracaqlar”.

**Bunu “Trend”in sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı bildirib. İşğalçı orduda vərəmin və digər xəstəliklərin yayılmasına gəlincə, Dərgahlı bildirib:** “Biz dəfələrlə demişik ki, erməni tərəfi həm döyüşlərdəki, həm də xəstəliklər nəticəsində olan itkilərini gizlədir. Bu barədə yayılan məlumatlar isə həqiqətdir”.

**Nazirlik sözçüsü Ermənistanın hərbi-siyasi rəhbərliyinin xalqına yalan danışmaqla məşğul olduğunu da qeyd edib:** “Əslində erməni ordusunda intizamsızlıq baş alıb gedir. Martın 22-də biz tərəfə keçən erməni hərbçisi Andranik Qriqoryan da məhz bu səbəblərdən döyüş mövqeyini atıb qaçmışdı. Onun səngər yoldaşları öz həmkəndliləri olduğu üçün ona atəş açmamışdılar. Ermənistanın müdafiə naziri həmin əsgərin valideynlərini günahkar çıxarır. Valideynlər isə bildiriblər ki, hərbi hissələrdə baş verən intizamsızlıq nizamnamədənkənar münasibətlərdir, özbaşınalıqlardır”.

***

Əlavə edək ki, son zamanlar qardaş Türkiyənin də dəstəyi ilə Azərbaycan Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin artırılmasına yönəlik addımlar, o sırada müdafiə naziri Zakir Həsənovun səngərlərə tez-tez baş çəkməsi düşmən qüvvələrə daha ruhdan salıcı təsir göstərməkdədir.

❑ Siyasət şöbəsi

# “Azərbaycan Dağlıq Qarabağın ətrafındakı rayonları azad etməyə hazırlaşır”

## **Araşdirmalar Mərkəzindən şok xəbərdarlıq:** “Bu plan Bakıda Avropa Oyunlarından sonra reallaşa bilər”

**Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Bakıda keçirilən şənlikdə çıxış edərək bildirdi ki, erməni hərbçiləri ölmək istəmirlərsə Ağdam, Füzuli və digər işğal altındakı rayonlarda xidmət etməsinlər.**

Bundan sonra Müdafiə Nazirliyi açıqlama verərək qarşı tərəfin martın 21-də baş verən döyüşdə 20 nəfər itki verdiyini bildirdi. Bir gün sonra isə Azərbaycan ordusunə təslim olan erməni hərbçinin görüntüsü yayınlandı. Erməni hərbçi təmas xəttində yerləşdirilən əsgər yoldaşlarının ölmək istəmədiklərini və dözülməz şəraitdə xidmət etdiklərini dedi.



**“Atlas” Araşdırmalar Mərkəzinin** yaydığı hesabatda bütün bunlar xatırlandıqdan sonra digər məsələlərə də diqqət çəkilir: “Prezidentun ardınca, müdafiə naziri Zakir Həsənov hərbi hissələrdən birini ziyarət edərkən Ermənistana və beynəlxalq aləmə iki mesaj ünvanlandırdı:

**Birinci mesaj:** “Düşmən işğal altında olan torpaqlarımızda rahat oturmamalı, daim qorxu içərisində yaşamalıdır”.

**İkinci mesaj:** “Biz elə ilk zərbədə işğalçıların 70 faizini məhv edəcəyik. Bizim o qədər silah və texnikamız var ki, qarşı tərəf yüz illərlə özlərinə gələ bilməyəcək”. Prezidentin və müdafiə nazirinin çıxışları ondan xəbər verir ki, Azərbaycan ordusu Dağlıq Qarabağ ətrafındakı rayonların azad olunmasına ciddi hazırlaşır. Bu plan Bakıda Avropa Oyunlarından sonra reallaşa bilər".

**“Atlas” hesab edir ki, Azərbaycan ordusu Dağlıq Qarabağ separatçılarının işğal altında saxladıqları Ağdam və Füzulidəki məntəqələrinə bundan sonra da zərbələr endirəcək:** “Separatçıların bu vəziyyətdə iki yolu var. Onlar ya həmin ərazilərdəki hərbi məntəqələrdən geri çəkilməlidirlər, ya da savaşı qəbul edib, zaman-zaman əks-hücuma keçməlidirlər. Separatçıların həmin məntəqələrdən geri çəkilməsi problematikdir. Çünki bu halda üstünlük Azərbaycan ordusunun tərəfinə keçəcək və Ağdamın azad olunması planı qısa müddətdə işə salınacaq. Ancaq separatçıların daima Ağdam və Füzulidə hərbi post saxlamaları da onlara hər zaman problem vəd edir. Çünki həmin postlar daima vurulacaq və orada qulluq edən ermənilər öldürüləcəklər. Təsadüfi deyil ki, Ermənistandan gətirilən gənclər həmin postlarda xidmət etmək istəmirlər”.

**Hesabatda qeyd olunur ki, separatçılar Ağdam uğrunda savaşmayacaqlar:** “Ermənilər geri çəkilib Dağlıq Qarabağın müdafiəsini gücləndirəcəklər. Rəsmi Bakı ancaq Dağlıq Qarabağa aidiyyəti olmayan rayonları azad etmək istəyir. Ordunun Xankəndinə hücum etmək kimi planı yoxdur. Azərbaycan ordusu Ağdam rayonunu qəfil hücumla ələ keçirərsə, bu, sülh danışıqlarında Azərbaycanın mövqeyini gücləndirəcək. Çünki Ağdamın alınmasıyla mənəvi və hərbi üstünlük qazanan Azərbaycan ordusu digər işğal altındakı rayonların boşaldılması prosesini davam etdirəcək. Bu isə müharibənin genişlənməsi demək olacaq. Belə olan halda Minsk Qrupu erməni tərəfini güzəştə getməyə məcbur edəcək. Separatçılar Ağdam kimi bufer zonasını itirməklə ya digər işğal altındakı rayonların boşaldılması əvəzinə Bakı ilə mərhələli həll planına razılaşacaqlar, ya da genişmiqyaslı müharibəyə başlayacaqlar ki, bunun sonu heç kimə bəlli deyil”.

❑ Hazırladı: E.PAŞASOY

# TANAP: Türkiyə ilə Azərbaycanın yeni və ortaq güvənlik kəməri

## İki qardaş ölkəni bir-birinə daha sıx bağlayacaq və əlavə qarant rolu oynayacaq bu layihə bölgədəki münaqişəli məsələlərin həllinə də münbit zəmin yarada bilər...

**"Bir millətin iki dövləti" olaraq Azərbaycanla onun əsas təbii müttəfiqi Türkiyə arasında son vaxtlar dərinləşən əlaqələr şübhəsiz, təqdiredicidir. Sevindiricidir ki, güclənməkdə olan bu dinamika hərbi əməkdaşlıq sahəsindən başlayaraq artıq bütün strateji sferaları əhatə eləməkdə və güclənməkdədir. O sahələrdən biri də energetikadır.**

2012-ci il iyunun 26-da İstanbulda imzalanan Trans-Anadolu Təbii Qaz Boru Kəməri Projesi (TANAP) sazişi bu xüsusda iki qardaş dövlətin adına son 10-15 ilin ən sanballı, ən yadda qalan ortaq nailiyyəti sayıla bilər - özü də tək iqtisadi anlamda deyil, həm də və daha çox siyasi və geosiyasi əhəmiyyət daşıyan bir nailiyyət kimi.

***

**ARAYIŞ ÜÇÜN:** TANAP Azərbaycanın "Şahdəniz-2" qaz yatağındakı və Xəzər dənizinin cənubundakı digər sahələrdən hasil ediləcək təbii qazın Gürcüstan vasitəsilə Türkiyəyə və oradan da Avropaya daşınması layihəsidir. TANAP daha sonra Güney Qafqaz Boru Xətti və Trans-Adriatik Boru Xətti (TAP) ilə birləşərək Güney Təbii Qaz Dəhlizini təşkil edəcək.

Boru kəmərinin diametri 56 düym və ya 1,4 metr nəzərdə tutulub. Layihənin işə düşməsi "Şahdəniz-2" layihəsi üzrə qaz hasilatına başlanması vaxtı ilə uzlaşdırılıb və 2017-ci ilə hesablanıb. Bu layihə üzrə Azərbaycan təbii qazı Türkiyənin Şərq sərhədindən Qərb sərhədinə daşınacaq, bütün ölkədə sabit tranziti təmin edəcək. Türkiyədə 20 vilayət, 67 mahal və 600 kənddən keçməsi planlaşdırılan xəttin 19 km-i Mərmərə dənizindən







keçməklə toplam 1850 km təşkil edəcək.

Layihə Azərbaycandan başlayan genişlənmiş Cənubi Qafqaz Boru kəmərini Avropa Birliyi ölkələri ilə bir neçə kəmərlə əlaqələndirəcək. 5 il ərzində reallaşması nəzərdə tutulan layihənin ümumi dəyəri 7 milyard ABŞ dollarıdır. 4 mərhələdə həyata keçiriləcək layihənin ilk mərhələsi 2018-ci ildə başa çatacaq. Həmin ildən etibarən isə Azərbaycandan Türkiyəyə ilk qaz nəqlinə başlanılacaq. Başlanğıcda ildə 16 milyard kubmetr həcmində ötürüləcək qaz sonradan 24 və 31 milyard kubmetrə çatdırılmalıdır.

2020-ci ilin əvvəlindən TANAP TAP-a birləşdiriləcək və təbii qazı Cənubi Qafqaz Boru Xətti ilə Yunanıstan, Albaniya və İtaliya üzərindən Avropaya çatdıracaq. 2020-ci ildə kəmərin buraxılış qabiliyyəti ildə 16 milyard, 2023-cü ildə 23, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılmalıdır.

İlk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq. Avropa üçün nəzərdə tutulan qaz Türkiyə-Bolqarıstan və ya Türkiyə-Yunanıstan sərhədində (iki çıxış nöqtəsində) təhvil veriləcək.

Layihədə Azərbaycan 58, BOTAŞ 30, bp isə 12 faiz paya malikdir.

***

Bu il martın 17-də Qarsda TANAP-ın Türkiyə ərazisindən keçən hissəsinin təntənəli təməlqoyma mərasimi keçirilib. Mərasimdə Türkiyə, Azərbaycan və Gürcüstan prezidentləri iştirak ediblər. Bununla da, layihənin praktik məcraya yönəldilməsinə start verilib.

Doğrudur, TANAP-a rəqib kimi Rusiyanın sponsoru olduğu "Türk axını" layihəsi göstərilir. Bəllidir ki, "Qazprom" artıq Türkiyə tərəfi ilə bu kəmərin marşrutunu razılaşdırdığını elan edib. Məlum olur ki, "Türk axını" Yunanıstanla sərhədə məhz TANAP kəməri ilə eyni nöqtədə çıxacaq. Belə ki, TANAP kəmərinin öncədən razılaşdırılmış marşrutuna əsasən, Yunanıstanla sərhədə Ədirnə bölgəsinin İpsala yaşayış məntəqəsində çıxacaq. Oradan da TAP kəmərinə birləşdiriləcək. "Qazprom" isə "Türk axını" ilə nəql olunacaq qazı həmin məntəqədə yaradılacaq habda müştərilərə təhvil verməyi nəzərdə tutur.

Beləliklə, hesab edilir ki, "Qazprom" Azərbaycandan daha tez və daha böyük həcmdə qazı Yunanıstanla sərhədə çatdıra biləcək. Çünki TANAP kəməri ilə qaz nəqli ən tezi, 2019-cu ildə başlamalıdır. Digər tərəfdən, "Qazprom" Türkiyənin daxili tələbatının da demək olar, tam ödəməyə bəs edən həcmdə qaz verəcək.

Bəzi təhlilçilər bunu enerji oyununda Azərbaycanın maraqlarının əleyhinə yönəlik müəyyən proseslərin göstəricisi sayırlar. Lakin əksər ekspertlərə görə, bütün hallarda TANAP öz sözünü deyəcək və iki qardaş ölkə ilə yanaşı, Avropanın enerji təhlükəsizliyində vazkeçilməz pay qazanacaq.

Bu layihə, şübhəsiz, iqtisadi, energetik önəmdən daha çox, mühüm geosiyasi dəyər də daşıyır və iki qardaş ölkənin regionda, Avropada rolunun labüd olaraq güclənməsinə xidmət edəcək. Ən başlıcası, həm də yeni, ortaq bir güvənlik kəməri olaraq Türkiyə və Azərbaycanı bir-birinə daha sıx bağlayacaq, iki ölkə üçün əlavə varlıq qarantı rolu oynayacaq. Bu isə bölgədəki münaqişəli və böhranlı məsələlərin, o sırada Qarabağ konfliktinin həllində Bakı və Ankaraya daha böyük söz sahibliyinin tanınması demək olacaq - hakimiyyətdə hansı siyasi qüvvənin olmasından asılı olmayaraq .

❑ **Siyasət şöbəsi**

# Ərdoğan sərt tənqid elədiyi İrana səfərə gedir

## Kəskin bəyanatlara rəğmən, Ankara və Tehran Yaxın Şərq böhranının həlli ilə bağlı danışıqlarda maraqlıdır...

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Yəmən olaylarına görə İranı ittiham etməsi qarşı tərəfdə sərt etiraza səbəb olub. İran xarici işlər naziri Cavad Zərif Ərdoğanın çıxışını tənqid edib. Türkiyə ilə əlaqələrə böyük önəm verdiklərini deyən Zərif qeyd edib ki, "strateji xətalar və ambisiyalı siyasətlə bölgədə bərpası mümkün olmayan dağıntılara səbəb olanların məsuliyyətli siyasət apararaq potensiallarını süln və sabitliyin təmin olunmasında istifadə etsələr daha yaxşı olar".**

Ancaq vəziyyət bununla da sakitləşməyib. İran parlamentinin milli təhlükəsizlik və xarici siyasət komissiyasının sədr müavini Mənsur Həqiqətpur hökumətə müraciət edərək Türkiyə prezidentinin İrana gözlənilən səfərinin ləğv olunmasını istəyib. Ötən həftə Türkiyənin Səudiyyə Ərəbistanının Yəmənə hücumunu dəstəkləməsini və İranı tənqid etməsini pisləyən Ayətullah Həsən Amili də İran XİN-ə müraciət edərək Ərdoğanın aprel ayına planlaşdırılan səfərini "gözdən keçirilməsini" istəyib.

Qeyd edək ki, Ərdoğanın İrana səfəri bu il yanvarın sonuna təyin olunsa da, müəyyən səbəblərdən baş tutmayıb. Tərəflər səfərin aprelin 7-də keçirilməsi ilə bağlı razılaşma əldə ediblər. İran xarici işlər nazirinin müavini Hüseyn Qaşqavi isə yerli mətbuata Ərdoğanın Tehran səfəri proqramında heç bir dəyişikliyin nəzərdə tutulmadığını bildirib. Qaşqavi onu da deyib ki, Ərdoğanın sözlərinə xarici işlər naziri uyğun dildə cavab verib. Eyni zamanda o, "bölgə ölkələrinin bir-birini ittiham etmək əvəzinə, regionun reallıqları və şərtlərini nəzərə alaraq problemləri ortaq şəkildə həll etmələrinin lazım gəldiyini" söyləyib.

**Türkiyə prezidenti özü də ötən gün mətbuata açıqlamasında İrana səfər proqramında hər hansı dəyişikliyin nəzərdə tutulmadığını bildirib. İrandan onun səfərinin əngəllənməsi çağırışları haqda danışan Türkiyə prezidenti "onlar mənim tərəf-müqabilim deyil" deyib. Sitat:** "Biz Yəmən mövzusuyla əlaqədar verdiyimiz açıqlamada Yəmənin ərazi bütövlüyünün qorunması, istər içəridən, istərsə də xaricdən edilən müdaxilənin yanlış olduğu, təcavüzkarların Yəməndən çəkilməsinin lazım olduğunu demişik".



Qeyd edək ki, İranla Türkiyə arasında münasibətlər Suriya münaqişəsindən sonra kəskin şəkildə pisləşib. Türkiyə Suriyadakı müxalif qruplaşmaları dəstəkləyir, İran isə Bəşər Əsəd hökumətini müdafiə edir. Ötən ilin sonlarında İran prezidenti Həsən Ruhani Türkiyəyə səfər edib. Bundan sonra Ərdoğanın İrana səfəri planlaşdırılsa da, müəyyən səbəblərdən bu səfər təxirə salınıb. Suriya, daha sonra İraqda yaranmış vəziyyət iki ölkə münasibətlərini soyuqlaşdıran əsas səbəblərdən idi.

Martın 26-da Ərdoğanın keçirdiyi brifinqdə İranı kəskin tənqid etməsi və Yəməndən çəkilməsini tələb etməsi iki ölkə münasibətlərində gərginliyin son həddi kimi qəbul olunur. Lakin bir sıra müşahidəçilərə görə, əslində durum göründüyü kimi deyil. Türkiyə regional siyasi vəziyyətlə bağlı Tehranla anlaşmaqda maraqlıdır. İslam Respublikası da Yaxın Şərqdə davam edən aktiv siyasi proseslərdə Türkiyənin ərəb blokundan qopmasında maraqlıdır.

Bu səbəbdən üzdə görünən sərt bəyanatlar iki ölkənin planlaşdırılan siyasi müzakirələrinə təsir etməyəcək. Üstəlik, İranın nüvə məsələsində və Suriyada böhranın həll olunması mövzusunda hər iki ölkənin ortaq maraqlarına cavab verə biləcək variant üzərində hazırda ciddi danışıqlar gedir. Doğrudur, danışıqlar hazırda Rusiya paytaxtında gedir, lakin aydın məsələdir ki, Suriya böhranının siyasi həlli Ankara və Tehranın razılaşdığı variant üzərində olacaq. Bu mənada diqqətdən kənarda qalsa da, Moskva danışıqları hazırda regional siyasətin əsas müəyyənedici mərhələsinə çevrilib.

O ki qaldı Yəmən mövzusunda sərt çağırışlara, bir sıra müşahidəçilərə görə, Ərdoğanın kəskin bəyanatları Suriya mövzusunda İrana təzyiq məqsədi daşıyır. Çünki son dövrlərdə Türkiyə Yaxın Şərqdəki siyasi proseslərdə küncə sıxışdırılıb və toqquşan tərəflər Qərbin dəstəklədiyi ərəb rejimləri və İrandır. Türkiyə üçünsə proseslərdə əsas keçid nöqtəsi Suriya böhranının həllini tapmasıdır. Bu məsələ indi daha çox Rusiya və İranın güzəştlərindən asılıdır.

❑ **Kənan RÖVŞƏNOĞLU**

**Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov daha 5 il müddətinə vəzifəsində qalacaq. Belə ki Mərkəzi Bankın İdarə Heyətinə üzvlüyünə namizədlər sırasında yenə də onun adı var. Xəbərlərə görə, parlamentin 3 apreldə keçiriləcək toplantısında "Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti üzvlərinin təyin edilməsi haqqında" layihə müzakirə olunacaq. Mərkəzi Bankın İdarə Heyətinə namizədlər sırasında E.Rüstəmovla yanaşı onun müavini Xəqani Abdullayevin də adı var.**

Manatın devalvasiyası ilə bağlı bəzi deputatların da ciddi tənqid etdiyi Elman Rüstəmovun səlahiyyət müddəti bitdikdən sonra yenidən vəzifəsinə təyin olunmayacağına dair iddialar vardı. Elman Rüstəmovun əvəzlənəcəyi ehtimalı Cahangir Hacıyevin martın 18-də Beynəlxalq Bankın İdarə Heyətinin sədri vəzifəsindən gözlənilmədən istefa verməsindən sonra gündəmə gəlmişdi. C. Hacıyevin Mərkəzi Banka rəhbər gətiriləcəyi ilə bağlı xəbərin real ola biləcəyini düşünənlər sabiq bankirin hakimiyyətdə müəyyən güc mərkəzlərinə bağlılığına, eləcə də əlində külli miqdarda kapital olmasına diqqət çəkirdi. Ancaq E.Rüstəmovun Mərkəzi Bankın İdarə Heyətinə üzvlüyünə yenidən namizədliyinin irəli sürülməsi həm bu ehtimala, həm də Elman Rüstəmovun dəyişdiriləcəyinə dair söz-söhbətə son qoydu.

63 yaşlı Elman Rüstəmov ilk dəfə 1995-ci ilin yanvarında Milli Bankın (Mərkəzi Bankın) İdarə Heyətinin sədri vəzifəsinə təyin edilib. Daha sonra o, 2000 və 2005-ci illərdə yenidən 5 il müddətinə Milli Bankın İdarə Heyətinin sədri vəzifəsinə təsdiqlənib. 2010-cu il aprelin 6-da prezident İlham Əliyevin sərəncamı ilə Elman Rüstəmov daha 5 il müddətinə banka rəhbərlik edib. Beləliklə, E.Rüstəmov daha 5 il səlahiyyət alaraq, 25 illik rekorda doğru gedir.

Xəqani Abdullayevə gəlincə, o, Mərkəzi Bankda 2000-ci ilin avqustundan fəaliyyət göstərir. 2008-ci ilin aprelində bankın baş direktorunun səlahiyyətlərinin icraçısı vəzifəsinə təyin edilib. 2009-cu ilin iyulunda Mərkəzi Bankın baş direktoru vəzifəsinə təsdiqlənib. 2010-cu ildə parlamentdə təsdiqləndikdən sonra müavin kimi fəaliyyət göstərir.

# Sabiq bankir 50 milyon dolları rus "dünya gözəli"nə niyə verib

# Cahangir Hacıyevi bitirən şok səbəb ortaya çıxdı

## Beynəlxalq Bankın sabiq sədri devalvasiyadan yüz milyonlar qazansa da, dövlətə ciddi ziyan dəyib; Mərkəzi Bank sədri və maliyyə naziri Samir Şərifov prezidentə nə məruzə ediblər?; Elman Rüstəmovun əvəzlənə biləcəyi ilə bağlı iddialar təsdiqlənmədi



Toğrul İsmayıl

**Bu arada istiqlal.az saytı C.Hacıyevin istefaya göndərilməsinin səbəbləri ilə bağlı sensasion xəbər yayıb. Xəbərdə deyilir ki, C.Hacıyevin istefaya göndərilməsinin kökündə devalvasiyadan öncəki dollar alveri durur:** "Cahangir Hacıyev devalvasiya qərarından öncədən xəbərdar olub və iri kapital sahiblərinin sərəncamından olan manatı dövlətin sərəncamında olan dollarlarla dəyişib ki, bu da dövlətə çox baha başa gəlib. Bu alverdən Cahangir Hacıyev yüz milyonlar qazansa da, Mərkəzi Bank və səhm paketi dövlətə məxsus Beynəlxalq Bank xeyli ziyan çəkib".

Saytın xəbərində bildirilir ki, Mərkəzi Bankın ilkin qərarı yumşaq devalvasiya olub. Ancaq Cahangir Hacıyevin bir neçə milyardlıq dollar alverindən sonra dövlətin sərəncamında olan valyuta ehtiyatı xeyli azalıb və Mərkəzi Bank sərt devalvasiyaya məcbur olub. Mərkəzi Bankın sədri Elman Rüstəmov və maliyyə naziri Samir Şərifov prezidentə məruzəsində yaranmış situasiyaya görə Cahangir Hacıyevin günahkar olduğunu bildirib və dövlətə nə qədər ziyan vurduğunu konkret rəqəmlərlə əsaslandırıblar. Bundan sonra prezident Cahangir Hacıyevin vəzifəsindən uzaqlaşdırılması barədə Samir Şərifova göstəriş verib. Və Beynəlxalq Bank sədri 50 yaşında "xəstəliyi" ilə bağlı istefaya göndərilib".

Qeyd edək ki, prezident İlham Əliyevin konkret ad çəkməsə də fevralın 24-də Mingəçevir səfərində "devalvasiyada bəzi möhtəkirlər, natəmiz adamlar əsassız qazanc əldə etmək üçün bu vəziyyətdən istifadə edirdilər" deyəndə konkret olaraq C.Hacıyevi nəzərdə tutduğu iddia edilir.

"Yeni Müsavat" qəzetinə çatan başqa bir məlumatda isə qeyd edilir ki, Cahangir Hacıyev rəhbərlik etdiyi bankdan ayrı-ayrı vətəndaşlara milyonlarla dollar kredit verib, qarşılığında isə heç bir təminat tələb etməyib. Onlardan biri də 45 yaşlı rusiyalı "Dünya gözəli" (zamanında), məşhur və təsirli azərbaycanlı milyarderin sevgilisidir. Ona 50 milyon dollar kredit verilib - lakin həmin məbləğin geri qaytarılması mümkün olmur - rus xanım borcu qaytarmaqdan imtina edir. Bu və bu kimi bir neçə fakt Cahangir Hacıyevin bankir vicdanında qalıb; üstəlik də onun karyerasını bitirib.

❑ **Xəbər xidməti**

# Kredit kartları cibimizə ziyan vurur...

## İqtisadçı ekspert: "Kart götürəndə bilmək lazımdır ki, bu sizin şəxsi pulunuz deyil, borcdur"

**Təxminən bir neçə il əvvəl xarici ölkələrə səfər edəndə oranın vətəndaşlarının pul qablarında çoxlu sayda kartlar görəndə bunun mahiyyətini tam anlamırdıq. Bu gün isə əksər Azərbaycan vətəndaşının pul qabında hətta bir neçə kart var ki, bunlar artıq gündəlik həyatımızın bir hissəsinə çevrilib. Mağazaların əksəriyyətində hər on nəfərdən beşi bu kartlar vasitəsilə ödəniş edir. Hazırda Azərbaycanda dövriyyədə olan alış-veriş kartlarının ümumi sayı illik müqayisədə 38,22 faiz və ya 360 min ədəd artaraq 2015-ci il yanvarın 1-dən 1,302 milyon ədədə çatıb. Ötən ilin dekabr ayında isə artım 2,93 faiz və ya 37 min ədəd olub. Bankomatlar vasitəsilə aparılan əməliyyatlar illik müqayisədə 42 faiz artaraq 142 milyon manat, POS-terminallar üzrə isə 6 faiz artaraq 53 milyon manat təşkil edib. Kredit kartlarında ödəniş müddəti, kredit limiti, güzəşt müddəti və borcun son ödənilmə tarixləri fərqli ola bilər. Bütün bu vasitələrdən yaxşı yararlanaraq, siz borc vəsaitlərdən pulsuz istifadə edə, faizsiz alış-veriş edə bilərsiniz.**

Ümumiyyətlə, kredit kartlarını bir neçə meyara görə təsnifatlaşdırmaq mümkündür: tipinə, ödəniş sisteminin və üstünlüklərin növünə görə.

**Standart kartlar:** bu kartlar maqnit zolağına malik olur. Sözügedən zolaqda bankomat vasitəsilə bank hesabına keçid etməyə imkan verən məlumat saxlanılır. Kartların bu növü istifadəçilər arasında daha geniş yayılıb.

**Çipli kartlar:** bu kartlarda maqnit zolağı ilə yanaşı, mikroprosessor da olur. Mikroprosessorda saxlanan informasiyanın həcmi maqnit zolağında saxlanılan məlumatın ölçüsü ilə müqayisədə 80 dəfə daha çoxdur. Bu kartlarda bank hesabı üzrə bütün məlumatları saxlamaq mümkündür. Sözügedən kartların ən böyük üstünlükləri isə fırıldaqçılardan maksimum dərəcədə müdafiəni təmin etmələridir. Ödəniş sisteminin beynəlxalq və lokal olmaqla, 2 tipi mövcuddur. Beynəlxalq ödəniş sistemləri sırasına Visa, MasterCard, American Express və Diners Club sistemlərini aid etmək olar. Lokal ödəniş sistemlərindən ibarət siyahıda isə Sberkard *(yalnız Sberbankın şöbələrində və əməkdaş təşkilatlarda istifadə olunur)*, Union Card, NPS və digərlərinin adını qeyd etmək olar. Ödəniş sisteminin daha nüfuzlu olması ona məxsus kartların daha geniş ərazidə və daha çox insan tərəfindən istifadə olunacağı mənasına gəlir. Bir qayda olaraq, ödəniş sisteminin görünüşü kart sahibinin əlavə ödənişlərinə təsir etmir. Üstünlüklərinə görə kartların müqayisəsinə gəlincə isə onları aşağıdakı kimi sıralamaq olar.

**Klassik kartlar:** standart xidmət növünü nəzərdə tutan bu kartlar istifadəçilərə adi xidmət və kredit xətti təklif edir. Bütün müştərilər üçün xüsusi təyinatla rəsmiləşdirilir.

**Qızıl kartlar:** yüksək kredit limitinə malikdirlər. Hesab xidməti üzrə nisbətən sadələşdirilmiş şərtlər təklif edirlər. Malların və xidmətlərin ödənilməsi müqabilində xüsusi təkliflər təqdim edirlər.

**Platin kartlar:** imtiyazlı kartlar olmaqla yanaşı, həmçinin kart sahibinin yüksək nüfuzundan xəbər verir. Sözügedən kartların üstünlükləri sırasına əlavə xidmət (məsələn, sutka ərzində bank mütəxəssisinə dəstək verilməsi formasında), konsyerj xidməti (taksi çağırılması, soraq məlumatı), xarici ölkələrə gedən zaman təklif olunan əlavə sığorta, mağazalarda alış-veriş edən zaman endirimlər edilməsi daxildir.

**Kobrend kartlar:** bonus proqramları *(əksər hallarda, aviaşirkət və ya ticarət şəbəkələri)* ilə birlikdə istifadəçilərə təqdim olunur. Kartdan xərclədiyiniz məbləğlər sizə bonus xallar qazandırır. Onların vasitəsilə isə bir sıra üstünlüklər əldə etmək mümkündür.







Maraqlıdır, həyatımızın bir hissəsinə çevrilmiş kredit kartları cibimizə nə dərəcədə xeyirli və ya ziyanlıdır?

**İqtisadçı ekspert Samir Əliyev bir çox insanları iqtisadi biliyi olmadığı üçün kredit kartlarından düzgün istifadə etmədiyini bildirdi:** "Kartlar elə bir şeydir ki, ona məsuliyyətlə yanaşmaq lazımdır. Kredit kartlarından mən də istifadə edirəm və bu çox xeyirlidir. Bütün kommunal xidmətlərdən tutmuş vergi ödənişlərini də bu kartlar vasitəsilə həyata keçirirəm. Həmçinin iri marketlərdə də istifadə edirəm. Bir çox insanların bu kartlardan düzgün istifadə edə bilməməsi onların iqtisadi bilik səviyyəsinin aşağı olmasından irəli gəlir. Kredit kartlarından başı çıxan adam bilir ki, onlardan istifadə edəndə faiz vermirsən. Faiz yalnız o vaxt verilir ki, həmin kartdakı pul nağdlaşdırılır. Bizdə də insanların əksəriyyəti pulu nağdlaşdırıb ondan sonra alış-veriş edirlər. Nəzərə almaq lazımdır ki, elektron əməliyyatlar üçün bu kartlardan heç bir faiz tutulmur. Kartdakı pul nağdlaşdırılandan sonra obyektiv və subyektiv səbəblərdən vaxtında yerinə qoyulmur. Belə olduğu halda isə faizlər gəlir. Kart götürəndə bilmək lazımdır ki, bu sizin şəxsi pulunuz deyil, borcdur. Çox vaxt insanlar bu pula şəxsi pulu kimi baxır. Mən razıyam ki, kredit kartlarının faizi yüksəkdir. Ancaq faiz tutulmadan da istifadə etmək olar. Ona görə də kredit kartlarının zərərli olması fikri ilə razı deyiləm".

**Ekspert taksit kartları ilə kredit kartlarının fərqləndiyini, insanlarınsa çox vaxt bu fərqi ayırd edə bilmədiyini bildirdi:** "Taksit kartı ilə nəyisə alıb hissə-hissə ödəmək olur. Kredit kartlarında isə o funksiya yoxdur. Nəyisə taksit kartı ilə alanda daha baha alırsınız. Məsləhət görərdim ki, taksit kartı yox, kredit kartı alsınlar. Bankların qazancı da bunlardandır".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 66 (6094) 31 mart 2015

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Qarabağ məsələsində status-kvo odla su arasında

## Konfliktin həllində çəkişən vasitəçi güclərin bərabər imkanlılığı danışıqları dalandan çıxarmağa qoymur; amerikalı analitik: "Münaqişə ətrafında situasiyanın iki inkişaf ssenarisi mümkündür..."




**Rusiya prezidenti Vladimir Putinin aprelin 24-də İrəvana gedəcəyi artıq dəqiqləşib. Həmin gün o, Ermənistan prezidenti Serj Sərkisyanla Dağlıq Qarabağ məsələsini müzakirə edəcək. Bu barədə Rusiya Dövlət Dumasının MDB məsələləri komitəsinin sədri Leonid Slutskiy İrəvanda Duma komissiyası ilə Ermənistan parlamentinin xarici əlaqələr komissiyasının birgə iclasında deyib.**

"Qarabağ münaqişəsi incə və həssas məsələdir. Danışıqlar ATƏT-in Minsk Qrupu formatında və prezidentlərin üçtərəfli görüşləri formatında gedir. Keçən ilin avqustunda Soçidə Rusiya, Azərbaycan və Ermənistan başçılarının görüşündə bu məsələ olduqca dərindən müzakirə edilib. Əminəm ki, İrəvanda "soyqırımın" 100 illiyi ilə bağlı anım tədbirlərinə qatılacaq Vladimir Putinin öz erməni həmkarı ilə görüşündə də bu problem eyni ciddiliklə müzakirə olunacaq" - əlavə edib komitə sədri.

*****

Lakin siyasi müşahidəçilər bu görüşdən pozitiv heç nə gözləmirlər. Çünki Putin İrəvana məxsusi şəkildə Qarabağ düyününü açmaq üçün gəlmir. Əks halda, o, fransalı həmkarı Fransua Olland kimi İrəvanın ardınca Bakıya da səfər edər, yaxud elə İrəvanda üçtərəfli bir formatda müzakirələr aparmağı planlaşdırardılar. Bəllidir ki, belə bir şey olmayacaq. Hər halda, rəsmi məlumatlar əksini söyləməyə imkan vermir.

Deməк, Kreml başçısı Ermənistanda olarkən, sadəcə, bir saygı jest olaraq Qarabağ mövzusunda söhbət edəcək. Ümumiyyətlə isə hazırda Moskva Qarabağ məsələsinin hayında deyil. Bu problemin nizamlanması ondan ötrü ciddi önəm, maraq kəsb eləmir. Başı Ukraynaya Ş, Donbasa qarışan Moskva üçün daha maraqlı olan konfliktin hələ bir müddət də "dondurulmuş" vəziyyətdə qalması, bu fonda münaqişədə olan Azərbaycan və Ermənistanı bir qədər də öz təsir və təzyiqi altında saxlamaq, Azərbaycana silah satmaqdır *(Qarabağ ixtilafı olmasaydı, bu silahlar kimə lazımdır ki)*.

Moskvanın ixtilafın "ədalətli həlli"ni necə gördüyünü isə "Kremlin danışan dillərindən" sayılan Vladimir Jirinovski bir neçə gün ortaya qoyub: Dağlıq Qarabağa Rusiya silahlı qüvvələri yerləşdirilməli, bölgə Moskvanın birbaşa tabeçiliyinə, yəni protektoratlığına verilməlidir. Yəni necə ki, vaxtilə Dağlı Qarabağda Arkadi Volskini başçılıq elədiyi xüsusi idarə forması mövcud olub, təxminən elə bir status. Həmin statusa görə, Dağlıq Qarabağ nə Azərbaycana tabe olacaq, nə də Ermənistana. Elə Jirinovski də bunu nəzərdə tutduğunu gizlətməyib.

Təbii ki, artıq bir dəfə bu acı "təcrübəni" görmüş Bakı razılıq verməz. Beləcə, dairə qapanır, beynəlxalq norma və prinsiplərin qulaqardı edilməsi nəticəsində konflikt həll olunmamış qalır. Qaldıqca, müharibə riskləri də artır, cəbhə xəttində atışmaların geniş miqyaslı əməliyyatlara keçmə ehtimalı güclənir. Son aylar qoşunların təmas xəttində baş verən toqquşmalar bunu bir daha sübut edir.

*****

**Ancaq "Rusiya Qarabağ konfliktinin qızışmasında da maraqlı deyil". Belə bir ehtimalı isə amerikalı analitik Qordon Han "Region" tədqiqat mərkəzinin təşkil elədiyi mətbuat konfransında deyib.** "Düşünmürəm ki, Rusiya Qarabağ konfliktinin qızışmasında maraqlı olsun. Bu, sırf lokal münaqişədir və Bakı ilə İrəvan arasında etimadsızlığa, sovet dövlət quruculuğunun irsinə əsaslanır" - deyib analitik.

**Onun sözlərinə görə, Azərbaycan və Ermənistan müstəqil şəkildə anlaşma əldə eləməsələr, o zaman Rusiyanın Ermənistanla köhnə sıx əlaqələri və bu əlaqələrin sonradan Avrasiya İqtisadi Birliyi çərçivəsində daha da möhkəmlənməsi nəzərə alınmaqla iki inkişaf ssenarisi mümkün ola bilər:** "Birinci variant: münaqişə yenə də tərəflərin özləri və (və ya) Rusiya ilə Qərb arasında rəqabətlə şərlənəcək - o Qərb ki, Azərbaycanı Rusiya-Ermənistan birliyinə qarşı kontur-amil kimi qəbul edəcək. İkinci variant: ya da konflikt Rusiyanın himayəsi (egidası) və ya zəmanətləri əsasında yoluna qoyulacaq".

Rusiyanın "himayəsi" və ya "zəmanəti" isə yalnız Avrasiya layihələri çərçivəsində mümkündür. Lakin məsələ ondadır ki, Avrasiya layihələri hələ ki heç cür real məzmun qazana bilmir. Kremlin layihələrin mühüm tərkib hissəsi kimi baxdığı Azərbaycan onlara ciddi maraq göstərmir. Səbəb də həmənkidir - Qarabağ probleminin həll olunmamış qalması, Avrasiya layihələri çərçivəsində də Moskvanın ona "əl batırıb" həllinə zəmanət verməməsi.

*****

Problemin dinc vasitələrlə həllinin uzanması isə qeyd edildiyi kimi, yeni-yeni canlı itkilər, müharibə ehtimalının artması deməkdir. Bu narahatlığı Ermənistan Müdafiə Nazirliyində iki gün öncə keçirilən müharibə toplantısı bir daha təsdiq edir. Məlumata görə, toplantıda separatçı rejimin nümayəndələri də iştirak edib. Nazirliyin mətbuat xidmətinin açıqlamasında bildirilir ki, "iclas idarəçilik sistemində effektliliyi artırmağa yönəlik tədbirlərə, mövcud problemlərə və onlardan çıxış yollarına" həsr olub.



Ancaq aydındır ki, toplantını ilk növbədə cəbhə xəttində işğalçı tərəfin ciddi uğursuzluğu və müharibə xofu zəruri edib. Belə ki, müdafiə naziri Seyran Ohanyan bildirib ki, "regionda gərgin geosiyasi situasiya nəzərə alınmaqla müzakirə edilən problemlərin dairəsi çox mühümdür".

Ohanyan növbəti dəfə Azərbaycan tərəfini cəbhə xəttində gərginliyi artırmaqda və "inamsızlıq atmosferi yaratmaqda" ittiham edib. "Bütün bu məsələlər müdafiə strukturlarından idarəçiliyə və problemlərin həllinə diqqəti artırmağı diktə edir" - deyib düşmən ölkənin hərbi naziri.

# Ermənilərin kökü kəsilir

## Beynəlxalq təşkilatların xüsusi məruzəsində şok rəqəmlər açıqlanıb...



**Hazırda Ermənistanda qeydiyyatda olanların 28,75 faizi ölkədən kənarda yaşayır. Bu məlumat Ermənistan dövlət qurumlarının beynəlxalq təşkilatlarla birlikdə hazırladığı xüsusi məruzədə yer alır (anspress). Daha dəqiqi, 870 min Ermənistan vətəndaşı xaricdə yaşayır.**

Özü də burada söhbət vətəndaşlıqdan imtina edərək Ermənistanı birdəfəlik tərk edənlərdən getmir. Məruzədə respublikadan kənarda yaşayan Ermənistan sakinlərindən bəhs edilir, onların çoxu ailələri ilə birlikdə başqa ölkələrdə yaşayıb işləyirlər. Ermənistan vətəndaşlarının çox hissəsi məlum olduğu kimi, Rusiyada yaşayır, bu yaxınlara qədər orada iş tapmaq daha asan idi.

Ermənistan əhalinin artan köçünün səbəbləri hamıya aydındır. Bu, aydan aya artan işsizlik, maaşların verilməməsi, ərzağın və ilkin tələbat mallarının qiymətinin yüksək olması ilə bağlıdır. Sadalananlar əlbəttə ki, əhalinin yoxsullaşmasına səbəb olur.

Təbii ki, Dağlıq Qarabağ münaqişəsini də yaddan çıxarmaq olmaz. Ermənistan sakinləri çağırış yaşına çatan övladlarının taleyinə görə çox narahat olur, onları müxtəlif bəhanələrlə hərbi xidmətdən yayındırmağa çalışırlar. Bu səbəbdən düşmən ordusunda xeyli vaxtdır əslində çağırışçı qıtlığı mövcuddur. Martın 22-də erməni əsgəri Andranik Qriqoryanın öz silahını ataraq biz tərəfə keçməsi və burda verdiyi açıqlamalar, o sırada erməni gənclərinə etdiyi çağırış da yəqin ki, prosesə öz təsirini göstərəcək.

Bundan əlavə, ölkə rəhbərləri yeni əsas qanunun qəbul edilməsindən sonra iqtisadi islahatlar vəd edib. İslahat konsepsiyası artıq erməni dövlətinin başçısı tərəfindən qəbul olunub. Tezliklə onların ümummilli müzakirəsi başlayacaq. Hakimiyyətdəkilər hesab edirlər ki, indiki konstitusiya erməni xalqına 1995-ci ildə sırınıb və ölkənin inkişafını ləngidir. Yerli ekspertlər isə bu məsələyə çox şübhə ilə yanaşırlar. Onlar Ermənistanın yeni əsas qanununun əhali üçün deyil, tamamilə başqa qüvvələr üçün faydalı olacağını deyirlər, yəni əhalinin köçü köhnə qaydada davam edəcək.

Buna görə mütəxəssislərin əksəriyyəti o qənaətdədir ki, əvvəlcə iqtisadiyyatla məşğul olmaq lazımdır. Məhz bundan sonra iqtisadiyyat əsasında ölkənin siyasi quruluşunu dəyişmək olar.

Ancaq siyasi quruluş dəyişsə də, dəyişməsə də Ermənistan Rusiyanın vassalı olaraq qalır. Ermənilərin ən böyük problemi də elə budur.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 66 (6094) 31 mart 2015



# “Bəraət almasam, ürəyim partlayar”

## **Abdulla Abdullayev:** “Qurddan qorxan quzu kimi müstəntiqin qarşısında əsiblər”

**Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əfqan Hacıyevin sədrliyi ilə “A.M.A.Y.” rəhbəri Abdulla Abdullayev, daha beş nəfər - Elşən Nəzərov, Heydər Rzayev, Mehman Məmmədxanlı, Vidadi Qurbanov və Hadejda İlyasovanın işi üzrə məhkəmə prosesi davam edir.**

“Birlikbank”ın sabiq sədr müavini Heydər Hüseynov ifadəsində Abdulla Abdullayevin bankda Müşahidə Şurasının sədri olduğunu diqqətə çatdırıb və bankın idarə heyətinin qərarlarına aidiyyəti olmadığını deyib. Ondan heç bir tapşırıq almadığını da söyləyib. Müttəhimin məhkəmədəki ifadəsi ibtidai istintaqa verdiyi ifadəsinə zidd olub. Belə ki, H.Hüseynov istintaqa ifadəsində A.Abdullayevin tapşırığı ilə hərəkət etdiklərini bildirib. Bu məqamı dəqiqləşdirən hakimlərə H.Hüseynov istintaqa verdiyi ifadələri xatırlamadığını deyib. Hakim isə bildirib ki, təcrübəli auditorun istintaqa ifadəsini xatırlamaması inandırıcı deyil: “Siz həmin ifadənizin altına imza etmisiniz. Hər atdığımız imza isə daş altında yatan ilandır. Nə vaxt o daşı qaldırsan, həmin ilan səni çalacaq. Ona görə də hamımız imzamıza hörmət etməliyik”.

**Abdulla Abdullayev isə bildirib ki, H.Hüseynov qorxusundan istintaqa elə ifadə verib:** “Qurddan qorxan quzu kimi müstəntiqin qarşısında əsiblər”. Prokurorlun “bəs burada niyə əsmirlər” - sualına A.Abdullayev replika ilə cavab verib. “Burada qurd yoxdur axı!”

**Fasilədə A.Abdullayev Azərbaycanda qorxu mühitinin yarandığını deyib:** “Azərbaycanda hamı qanun qarşısında cavabdeh olmalıdır. Hakim prokurordan, prokuror hakimdən qorxur. Jurnalistlər həqiqəti yazıb mənim günümə düşməkdən qorxurlar. Mən üzümə duracaq üzəduranlardan qorxuram... Hamı qorxur. Mən isə mübarizə aparacağam və mütləq bəraət alacağam. Bəraət almasam, ürəyim partlayar".

Fasilədən sonra H.Hüseynov vəkillərin suallarına cavab olaraq bildirib ki, A.Abdullayevə qarşı irəli sürülmüş ittihamlarda götürülmüş kreditlərin qaytarılmaması yer alsa da, iş adamının bu məsələ ilə əlaqəsi yoxdur. “Sahibkarlığa Kömək Milli Fondu”ndan ayrılmış pullar “Birlikbank” tərəfindən müxtəlif müəssisələrə kredit şəklində verilib. Bu kredit müqavilələri isə müştərilərlə “Sahibkarlığa Kömək Milli Fondu” arasında deyil, “Birlikbank”la müştəri arasında bağlanıb. Buna görə də müştərinin “Sahibkarlığa Kömək Milli Fondu” qarşısında heç bir məsuliyyəti yoxdur. "“Birlikbank”ın ləğv edilməsindən sonra qalan borclarının ödənilməsi ilə bağlı məsuliyyət isə Ləğvetmə Komissiyasının üzərindədir və Abdulla Abdullayevin bu məsələyə ilə də əlaqəsi yoxdur. “Sahibkarlığa Kömək Milli Fondu”nun iddiası isə əsassızdır. Çünki banka olan borcların əvəzində məhkəmə qərarı ilə banka əmlaklar təqdim edilib. Əgər icra xidməti həmin əmlakı vaxtında sataraq pulu ödəməyibsə, bu məsələdə günahkar biz deyilik" - deyən H.Hüseynov əlavə etdi ki, onun “A.M.A.Y.”-la heç bir əlaqəsi olmayıb və ittihamda yer alan mütəşəkkil dəstə də mövcud deyil.

**“A.M.A.Y.”-ın rəsmi sahibi Elşən Nəzərov ifadəsində gördükləri işləri müqavilə öhdəlikləri əsasında etdiklərini, bunun da mülki qaydada həll olunmasını qeyd edib. O, “Texnikabank”dan götürülən kreditlərlə bağlı bildirib ki, ümumilikdə 50 milyona qədər kredit olub və bankdan təklif ediblər ki, ayrı-ayrı hüquqi şəxslər adından hissə-hissə götürülsün:** “Bunun müqabilində isə əmlaklar girov qoyulub. Həmin əmlaklar aşağı qiymətlə qiymətləndirilirdi. Biz isə "A.M.A.Y."-ın tikintisinə vəsaitə ehtiyacımız olduğu üçün razılaşmağa məcbur idik. Həmin vəsaitlər də təmir-tikinti işlərinə sərf edilib. Bankın işçiləri də bizdən pulun hara sərf ediləcəyini soruşurdular. Bildirirdik ki, kreditin məqsədi tikinti aparmaqdır..."

**Bu zaman Abdulla Abdullayev yerindən replika atdı:** “Guya Etibar bilmirdi ki, o pullar hara sərf olunur? Onlar pulu elə ona görə verirdilər də! Hörmətli hakim, bu Elşən Nəzərov mənim bacımın yoldaşıdır. "A.M.A.Y." rəsmən onun adına olsa da, faktiki sahibi mən olmuşam. Mən nə demişəmsə onu edib".

**A.Abdullayev əlavə edib ki, digər təqsirləndirilənlər onun tapşırığına əsasən fəaliyyət göstəriblər**: “Yeni bir ağa vardı, o da mən olmuşam . Ağa nə deyibsə, o da olub. Banklarla müqavilələr müxtəlif firmalarla bağlanılıb və pullar da qaytarılıb. Qaytarılmaması ilə bağlı hansısa iddia varsa, bu da mülki məsələdir və cinayət işinə aidiyyəti ola bilməz”.

E.Nəzərov vəkillərin suallarına cavab olaraq istintaqda prosessual pozuntularla üzləşdiyini bildirib.

**Məhkəmə martın 31-də davam etdiriləcək.**

❑ **E.MƏMMƏDƏLİYEV**

---

**Xəzər Universitetinin təsisçisi Hamlet İsaxanlının qızı Ülkər İsayevanın döyülməsi faktı üzrə zəruri istintaq hərəkətləri aparılır. Bu barədə “Yeni Müsavat”a açıqlamasında Respublika Prokurorluğu mətbuat xidmətinin rəhbəri Eldar Sultanov bildirdi. Onun sözlərinə görə, bu istiqamətdə əlavə hər hansı bilgi olsa, bunu mətbuatla paylaşacaqlar.**



# Ülkər İsayevanın döyülməsi işində yeni detallar

## Hamlet İsaxanlı olanlara etiraz edir, Məmmədov qardaşları vəkildən imtina edib, ortada isə yeni videolar var

H.İsaxanlı isə “Yeni Müsavat”ın müxbirinə açıqlamasında istintaqın hələ qurtarmadığını, bu səbəbdən də sözügedən mövzuda danışmaq istəmədiyini bildirdi. Amma rektor danışmama istəyini ilginc şəkildə əsaslandırdı: “Və mən heç bir vaxt müsahibə verməyəcəm, özü də "Yeni Müsavat" qəzetinə. Hələ həyatım boyu elə olmayıb ki, mən hansısa mətbuat orqanı, jurnalistə açıqlama verməyim. Amma bu məsələdə mətbuatın reaksiyası biabırçı oldu. Ona görə də mən bundan sonra heç bir müsahibə verməyəcəm".

“Yeni Müsavat” mövzu ilə bağlı Ü.İsayevanın özü ilə əlaqə saxlamağa cəhd etsə də, buna nail olmayıb. Əldə etdiyimiz məlumata görə, rektorun qızı hazırda Koç Universiteti Anadolu Mədəniyyətləri Araşdırma Mərkəzindəki bir tədbirdə iştirak üçün Türkiyədədir.

Bu arada Ü.İsayevanı döyməkdə təqsirləndirilən Zaur və Elin Məmmədov qardaşları vəkillərindən imtina ediblər. Azvision.az-ın məlumatına görə, qardaşlar vəkilləri Pərviz Zamanlı və Cavid Alıyevlə əməkdaşlığa artıq son veriblər. Məmmədov qardaşları vəkillərinin fəaliyyətindən narazı olduqları üçün bu addımı atıblar.

Qeyd edək ki, Xəzər Universitetinin təsisçisi Hamlet İsaxanlının qızı Ülkər İsayevanı döyməkdə təqsirləndirilən Zaur Məmmədov barəsində 2 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

Qardaşların anası Gulya Alaee isə dünən facebook profilində son hadisələrlə bağlı mövqeyini açıqlayıb. Cəmi bir neçə saat görünən bu status daha sonra silinib. Amma ananın statusunun mahiyyəti belə olub ki, insanlar məsələnin mahiyyətini bilmədən fikirlər səsləndirirlər. Xüsusən sosial şəbəkə və medianı qınayan ana statusunda şəxsi həyatın toxunulmazlığı ilə bağlı detala da diqqət çəkib.

**Ü.İsayevanın keçmiş həyat yoldaşı Aydın Əhmədzadə musavat.com-a qısa da olsa danışıb. Bildirib ki, vaxtilə önəmli şəxs olsa da, bu ərəfədə keçmiş həyat yoldaşının həyatında heç bir rol və əhəmiyyət daşımır:** “Daşımaq da istəmirəm. Biz ayrılmışıq, vəssalam. Bütün söhbətlər kəsilib və nə qədər çalışsalar belə günahsız insanın rolunu heç bir şəkildə zornan isbat edə bilməzlər”.

**A.Əhmədzadə keçmiş həyat yoldaşının döyülmə videosunun yayılmasında rolu olması barədə ittihamları qətiyyətlə rədd etdi. Dedi ki, bunlar əsassız və təxribat dolu fikirlərdir:** “Hamlet müəllim *(H.İsaxanlının nəzərdə tutur)* isə müsahibəsində söyləyib ki, heç bir variantı istisna etmir. Mən də deyirəm ki, qoy müvafiq orqanlar bunu araşdırıb müəyyən etsinlər”.

Müsahibimiz hazırda Mayamidə yaşayır və 4 aydır Bakıdan köçüb. Mətbuatda hallandırılan məsələlərdən biri də ailələr arasında cütlüyün övladının vələyəti ilə bağlı problemin olması və bu videonun yayılmasında da həmin problemin səbəb olması idi. Amma A.Əhmədzadə bunu da mətbuatın uydurması adlandırdı. Dedi ki, uşağı vaxtlı-vaxtında valideynləri ilə görüşdürürlər: “Özümsə Cananımla skype vasitəsilə doyunca görüşüb danışıram”.

**Qeyd edək ki, Xəzər Universitetinin təsisçisi Hamlet İsaxanlı qızının döyülməsi ilə bağlı videonun keçmiş kürəkəni tərəfindən yayıldığını istisna etməmişdi. “Yeni Müsavat”a müsahibəsində H.İsaxanlı demişdi ki, A.Əhmədzadə bu işlərin mütəxəssisidir:** “O, videoların çəkilməsi, internetdə yayılması, reklam işlərinin görülməsinin ustasıdır. O, reklam işləri ilə məşğul olur. Amma mən bu halda nəsə deyə bilmərəm. Çünki mən bu məsələni araşdırmamışam. Başqa birinin araşdırdığı haqda da məlumatsızam”.

Xatırladaq ki, Ülkər İsayevanın döyülməsi ilə bağlı yayılan video böyük əsk-səda doğurmuşdu. H.İsaxanlı mətbuata açıqlamasında qızının döyülməsi xəbərini təkzib edərək videoda görünən xanımın qızı olmadığını bildirib.

Bugünlərdə musavat.com Ü.İsayeva ilə bağlı internetdə yayılmış yeni videoları əldə edərək oxuculara çatdırıb. Birinci video “Aydın-Parlaq Ülkərim” adlanır. Bu, Aydın Əhmədzadə ilə Ülkər İsayevanın toy görüntülərindən *(cütlük artıq boşanıb)* ibarət klipdir. Bu, daha öncə mediada yayılan toy klipindən fərqlidir və içində yeni detallar var. Klip Miri Yusifin “Bu həyat bizim” mahnısının sədaları altında təqdim olunub.

İkinci video isə elə Miri Yusifin sözügedən klipidir. Videodan məlum olur ki, “Bu həyat bizim” mahnısının söz və musiqisi A.Əhmədzadəyə məxsusdur. Əldə etdiyimiz məlumata görə, bu mahnı Ü.İsayevaya həsr olunub.

Musavat.com-un üzə çıxardığı üçüncü videoda isə A.Əhmədzadə ilə Ü.İsayevanın 60-cı illər stilindəki nikah mərasimi səhnələşdirilib. Videoda cütlük 60-cı illərin dəbinə uyğun davranıb, nikah mərasimini isə teatrallaşdırıblar, nəticədə ortaya ilginc mənzərə çıxıb.

❑ **Sevinc TELMANQIZI**

---

# Xədicə İsmayılı tutduran gənci 2 ay harada saxlayıblar?

## Onun jurnalistə qarşı iddiasından vaz keçməməyə məcbur edildiyi iddia olunur

**Maryland Universitetinin tələbələri həbsdə olan jurnalistlərin adları həkk edilmiş bilərziklər hazırlamaq üçün pul toplayır. “Associated Press” agentliyi xəbər verib ki, məqsəd həmin jurnalistlər barədə dünyanı bilgiləndirməkdir. Maryland Universitetinin Jurnalistika Məktəbinin tələbələri Qandalsız Mətbuat kampaniyası üçün pul toplamağa başlayıb. Bu iş "Washington Post"un Pulitzer mükafatı almış müxbiri, jurnalistika professoru Dana Priestin rəhbərliyi altında həyata keçirilir.**



Xədicə İsmayıl



Tural Mustafayev

Bilərziklərin üzərinə 9 jurnalistin adı həkk olunacaq. Tələbələr azı 10 min bilərzik buraxmaq üçün vəsait toplayır.Universitetin məzunu, layihənin sözçüsü Rosemary Ostmann deyir ki, satışdan əldə olunan gəlir bütünlüklə Jurnalistləri Müdafiə Komitəsinə (CPJ) yardım formasında veriləcək: “Vəsait toplamaq və həbsdə olan 221 jurnalistə kömək etməklə yanaşı, Dana və komandası göstərmək istəyir ki, xəbər hazırlamaq nəyin bahasına başa gəlir, azad və firavan cəmiyyət üçün həqiqət necə vacibdir”. Onların arasında AzadlıqRadiosunun hazırda həbsdə olan əməkdaşı Xədicə İsmayıl da var.

Bu arada “Yeni Müsavat” X.İsmayılın həbsinə səbəb olan həmkarı Tural Mustafayevlə bağlı yeni bilgilər əldə edib. T.Mustafayevi Novruz bayramı günlərində Göyçayda görən şəxslər bu barədə sosial şəbəkələrdə və mediada xəbər yaymışdılar. Elə bu xəbərlərin izi ilə bəzi mənbələrlə əlaqə saxladıq. Məlum oldu ki, bu şəxs 2014-cü il 27 dekabrda, şəhərin mərkəzində saxlanıb. Həmin tarixdə o, sosial şəbəkədəki statuslarında “müstəqil vəkillərdən kömək istəyirəm. Xədicə İsmayıla qarşı verdiyim şikayət ərizəsin geri götürürəm. Kimsə təcili kömək eləsin. Həbs təhlükəsi var” yazıbmış.

T.Mustafayev onun ardınca yazdığı statuslarda sahə müvəkkilinin evlərinə gəlməsi, atasını axtarması kimi məlumatlar vermiş və sonda “saxlandım” yazaraq durumunu bildirmişdi. Onun son profilindəki son status da elə bu idi.

Əldə etdiyimiz məlumata görə, T.Mustafayevi sözügedən tarixdə, yəni ötən ilin 27 dekabrında şəhərin mərkəzində saxlayıb, qolunu arxadan bağlayaraq tutublar. 2 ay müddətində isə onu saxlayıblar. Məqsəd bu şəxsi X.İsmayıla qarşı şikayətindən vaz keçməsinin qarşısını almaq olub. Son nəticədə isə buna nail olublar. 2 aydan sonra gənci azad ediblər və 1 aydır ki, o, Göyçayda valideynlərinin yanındadır.

T.Mustafayevin ölkədən çıxışına da qadağa var. Bu səbəbdən də mühacirət edə bilmir. Noyabrın 25-də X.İsmayıl barəsində şikayət edən gəncin ölkədən çıxışına bir gün sonra, yəni noyabrın 26-da qadağa qoyulub. İstintaqın onun şikayəti üzərində xüsusi dayanmasının da səbəbi var. Çünki X.İsmayıla qarşı irəli sürülən digər ittihamlarla bağlı ortada konkret sübut yoxdur. Amma T.Mustafayev məsələsində bəzi detallar əsasında xanım jurnalisti ittiham etməyə çalışırlar.

Əldə etdiyimiz məlumatları dəqiqləşdirmək üçün T.Mustafayevin atası ilə əlaqə saxladıq. Atası oğlunun onun yanında olduğunu və əhvalının da qaydasında olduğunu bildirdi. Amma əməkdaşımız jurnalistin özü ilə gün ərzində danışa bilmədi.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 153 (5511) 11 iyun 2013

# Məmurların bölüşdürdüyü rayon - Ağsu...



## Rayonda işsizlik yüksək həddədir; əhali kredit borcu içində boğulur, məmur özbaşınalığı isə baş alıb gedir...



**İlk baxışdan Ağsuda diqqətimizi mərkəzi yolun hər iki tərəfindəki hasarlar çəkir. Hasar yarıya qədər bir formada, digər hissə isə fərqli şəkildə üzlənib. Hələ iş tamamlanmayıb. Söhbətləşdiyimiz sakinlər də deyirlər ki, icra başçısının rayonda gördüyü işlər hasarların üzlənməsindən o yana getmir: "Təmirə başlayırlar, hasar yarıyacan üzlənir. İş sona çatmamış, yenidən başlanır və bu dəfə fərqli şəkildə üzlük vurulur. Daha sonra üçüncü bir üzlük... Beləliklə, il boyu hasar beləcə təmir edilir və milyonlar çölə səpilir. Küçələrə asfalt çəkirlər, heç bir il keçmir ki, dağılır".**

Ağsuya səfərimizdə rayonun problemlərindən danışan sakinlər bildirirlər ki, rayonda əhalinin durumu olduqca acınacaqlıdır: "Biz ətraf rayonlardan da pis gündəyik"... KXCP-nin rayon şöbəsinin rəhbəri Yaqub Babalı isə ilk olaraq rayonun iqtisadiyyatının pis durumundan danışır: "Təsəvvür edin, rayonun iqtisadiyyatı nə SSRİ vaxtı əsaslı qurulmadı, nə də sonradan. Ağsu rayonunun torpaqlarının 60 faizi suvarıla bilən deyil. Bu, vəziyyətə ciddi təsir edən faktordur. Dəmyə torpaqlar deyil, həm də sulana bilmir. Kanal yoxdur, sulamaq mümkün deyil. Bir kanal çəksələr, nə qədər su tutmayan münbit ərazilər var, işləmək, əkmək olar. Digər uyğun sahələr də inkişaf etdirilmir. Təsəvvür edin, 75 min əhalisi olan bir rayonda cəmi bir zavod var. Hansı ki, açılışında yalandan dedilər 5 yüz adam işləyə biləcək. İki il əvvəl açılan "Azqranata" zavodunda əslində 50 adam işləyir".

### Əsas problem işsizlik... "Sosial yardım da verilmir..."

**Sakinlərin sözlərinə görə, rayonda işsizlik problemi daha çətin, daha acınacaqlıdır:** "Təsəvvür edin, sosial yardım üçün müraciət etməyən adam tapılmır. Hamısı işsizlikdən... Dolana bilmirlər. Yoxsa kim könüllü gedib bürokratik əngəllərdən keçməyə cəhd edər? Sözsüz ki, ora da həm ədalətsiz, həm qanunsuz xidmət göstərən qurumdur. Ora gedənlər də haqqını tapa bilmir. Kimə istəyirlər, kimdən pul ala bilirlər, ona yardım verirlər. Ölkənin hər yerində olduğu kimi, Ağsu da bir qrup adamın əlindədir. Qohumbazlıq, yerlibazlıqdır rayonda..."

**Bildirilir ki, kənd təsərrüfatının ənənəvi sahələri var ki, rayonda inkişaf etdirilə bilərdi:** "Heç kim bununla məşğul olmur. Ancaq bir qrup adam rayonu talamaqla məşğuldur". **Sakinlərin sözlərinə görə, sahibkarlara verilməli olan subsidiyalar da mənimsənilir:** "Bu, mənimsənilmə mexanizminə çevrilib". Sakinlərin sözlərinə görə, hətta "Azqranata" zavodunda fəhlə işləmək üçün də tanış tələb olunur. Müxalifətçilərin rayonda iş tapması isə ümumiyyətlə mümkünsüzdür.

### "Bələdiyyə torpaqlarını icra başçısı satır"

**Sakinlər bildirirlər ki, Ağsunun bələdiyyə torpaqlarını icra başçısı Ənvər Seyidəliyev və yaxınları qanunsuz olaraq mənimsəyiblər:** "Torpaqlar rayon sakinlərinə verilmir. Özləri alıblar, icra başçısı dəllal vasitəsilə satdırır. Artıq satılmalı torpaq qalmayıb, Şəhidlər Xiyabanının ətrafını satıblar. Xiyabanın ətrafı evlərlə doludur. Şəhidlər Xiyabanı isə biz dəfələrlə müraciət edəndən sonra təmir edilməyə başlanıb".

**Sakinlərdən Murad Zamanov da bələdiyyə torpağı ala bilmədiyini qeyd edir:** "25 yaşım var, atam, anam yoxdur. Nənəmin yanında yaşayıram. İş də yoxdur, "Azqranata" zavoduna fəhləlik üçün müraciət etdim, dedilər ki, tanışın olmalıdır. Tanışım olsa, gedib nazirlikdə işləyərəm, fəhləlik etməyə nə tanışlıq? Mənə bələdiyyə torpağı da vermədilər. Torpaqları pulla satırlar. Nənəm isə şəhid anasıdır, ona uyğunsuz yerdən torpaq veriblər, istifadəyə yararsızdır. Torpaq sahəsinin əksər hissəsi çökəklikdədir, neçə maşın torpaq tökmək lazımdır ki, normal hala gəlsin".

### "İnsanların Ağsuda qalması, yaşaması möcüzədir"...

**Vətəndaşların sözlərinə görə, insanların Ağsuda qalması, yaşaması möcüzədir:** "Yaşayış üçün minimum normalar yoxdur. İş yeri yox, hüquqlarımız qorunmur, şikayətimizə baxan yox. Rayonda özbaşınalıqdır". **Yaqub Cəbrayıloğlu da qeyd edir ki, altı nəfərlik ailəsi iki kiçik otaqda yaşayır, bələdiyyə isə onlara torpaq sahəsi ayırmaq istəmir:** "Oğlumun cavan ailəsi, iki kiçik uşağı var. İş yeri yoxdur, işləmir. Sosial yardım da ala bilmirik. Gəlin, evimizin şəraitinə baxın. Uşağı məktəbə normal şəkildə göndərə bilmirik". Bildirilir ki, rayonda gənclər bir qayda olaraq işsizdir. Əksəriyyəti elə bu səbəbdən rayonu tərk edib Bakıya və ölkə xaricinə işləməyə gedirlər.

**Sakinlər qeyd edirlər ki, Ağsu camaatının dolanışığı əsasən Rusiyadandır:** "Ağsunun elə kəndləri var ki, bütün cavanları hamısı Rusiyadadır. İnflyasiya, rus rublunun düşməsi Ağsunu da məhv etdi, rayonu faciəvi duruma saldı. Ağsu konkret oradan dolanırdı. Ağsu rayonu bu baxımdan, Rusiyaya bağlı rayondur. Əhalinin dolanışığı daha çox oradan çıxır. Rayonda iş yox, güc yox. Elə küçələr var ki, evlərində bir kişi xeylağı tapmazsız. Hamısı Rusiyada, başqa ölkələrdə çörək pulu qazanır. Məhəllələr var ki, toyuq başı kəsməyə kişi tapılmır. Əhali kredit borcu içindədir".

**Bu, azmış kimi, ötən ilin sonundan rayonda evlərdən qanunsuz qaz borcu da yığılmağa başlayıb:** "Hər evdən 40-100 manat arası pul yığılır. Borcu olmayanlardan gəlib pul istəyirlər. Köhnə borclar illər əvvəl bağışlanıb, bunlarsa indi gəlib yenidən pul yığırlar. Qanunsuzluğu şikayət də edirik, baxan yoxdur".

**Rayon mərkəzindəki dükanlardan da gəlib qanunsuz olaraq pul yığılır:** "Gəlib qanunsuz olaraq cərimə yazırlar. Vergi adı ilə kefləri istəyən qədər pul yığılır. Deyilənə görə, Vergilər Nazirliyi bir ay əvvəl gəlib bir gündə rayondan bir milyon manat pul yığıb". **Sakinlər bu fikirdədirlər ki, nə qədər ki, başçı normal biri ilə dəyişdirilməyib, rayonda vəziyyət düzəlməyəcək:** "Nə qədər ki, Ənvər Seyidəliyev buradadır, rayon xaraba qalacaq".

### "Ağsu aşırımlarına məmurlar göz dikib"

**Rayon sakinlərinin sözlərinə görə, Ağsu aşırımındakı restoranlara məmurlar göz dikiblər və bu obyektləri əhalinin əlindən almaq istəyirlər:** "Ağsu sosial problemlərin ən çox olduğu rayondur. Ağsu dolaylarından min nəfərə yaxın adam dolanırdı, evinə çörək aparırdı. Oranı da iki-üç ildir təmir adı ilə bağlayıblar. Bir neçə dəfə istəyiblər buranı camaatın, ağsuluların əlindən alsınlar. Camaat imkan vermədi, aksiya keçirildi. Məsələ şişirdildi, məmurlar da acığa düşüb yolu bağladılar. Yalandan hər iki tərəfdən yazıblar ki, yol təhlükəlidir. Gələn maşınlar da İsmayıllı tərəfdən gedir. Əslində təhlükə yoxdur",- deyə Qarabağ Azadlıq Təşkilatının (QAT) təmsilçisi Elşən Əlisoy bildirir.

**Sakinlər qeyd edirlər ki, on illər ərzində fəaliyyət göstərən həmin restoranlar məmurların güdazına gedərək fəaliyyətsiz hala gəlib:** "İndi nə baş verib ki? Ağsu aşırımını da monopoliyaya götürürlər. Deyirlər ki, bu "pereval" ağsuluların əlindən çıxmalıdır. Bəziləri bu işdə məmurlardan Rövnəq Abdullayevin, bəziləri Kəmaləddin Heydərovun adını çəkir. Qısası, məmurların Ağsu aşırımına gözləri düşüb. Oyun qururlar. Hətta 50-ci illərdən qalan polis postu da oradan götürülüb".



### "Rayon bir neçə məmur arasında bölüşdürülüb"

**Ağsu sakinləri bildirirlər ki, rayon bir neçə məmur arasında bölüşdürülüb. Bu, icra başçısı Ə.Seyidəliyev, nazir Səlim Müslümov və onlardan bir qədər kiçik bir neçə məmurdur:** "Şəhər mərkəzindəki obyektlərin çoxu Səlim Müslümovun obyektləridir. Qıraq adamın ola bilməz. O cümlədən icra başçısının obyektləri çoxdur. Torpaq Komitəsində bir ağsulu var, onun və Neft Şirkətində işləyən Mikayıl adlı şəxsin burada obyektləri var".



**Bildirilir ki, rayonda iş tapıb işləyənlər də icra başçısının qohum-əqrəbasıdır:** "İşləyənlər əsasən icra başçısının qohumlarıdır. Rayonda bütün idarələrdə işləyənlər Pirhəsənli kəndindəndir. Ancaq Pirhəsənli kəndi yaxşı yaşayır. Bura Ağsunun Naxçıvanıdır, nazirin kəndidir. İdarə müdirləri əsasən Səlim Müslümovun qohumlarıdır. Məsələn, zibilyığan idarənin siyahısında yüzə yaxın işçi var. Ancaq cəmi 5-6 nəfər işləyir. Adları yazılanların hamısı başçı Ənvər Seyidəliyevin qohumlarıdır. Adlarını yalandan yazıblar, maaş alırlar. Sosial yardım alan da yenə öz qohumlarıdır. Neft Şirkətində işləyən Mikayıl adlı şəxs bir neçə kəndi alıb, camaatın torpaqlarını ələ keçirərək nar bağı saldırıb".



**Vətəndaşlar bir nəfər kimi bu fikirdədirlər ki, bu rayon diqqətdən kənarda qalıb:** "Dövlətin yadından çıxmış rayondur. Rayona ayrılan pullar da bir qrup məmurun oğurlaması üçündür". **Sonda isə yaşlı rayon sakini dillənir:** "Ay bala, bir də gələndə özünlə 50 qoca arvad gətir, bizə dil deyib, ağlasın"...



❑ Röya RƏFİYEVA
Fotolar müəllifindir

# Məşhur bazar söküldü; yerində bina tikilir

## Ticarətçilər narazılıq edir, ərazidə yaşayanlar isə “bura bazar yox, xəstəlik mənbəyi idi” deyirlər

**Binəqədi rayonu Abay Kunanbayev küçəsində yerləşən “Bolluq bazarı” artıq yoxdur. Yerlə-yeksan edilən bazardan geridə qalan xarabalıqdır. May ayında bağlanan bazar bir müddət sonra sökülməyə başlanılıb. Burada işləyən satıcılar isə nəzərə alınmayıb. Onların böyük hissəsi bu söküntüdən narazıdır. Çünki işsiz qalıblar. Onları yeni bir iş yeri ilə təmin edən olmayıb.**





Bazarın yerində isə çoxmərtəbəli yaşayış binası tikiləcək. Bu haqda keçmiş bazarın qarşısına vurulmuş reklam lövhəsində də yazılıb. Bildirilir ki, bina “Bolluq” İK tərəfindən inşa olunacaq. Reklam lövhəsindəki foto və yazılardan belə aydın olur ki, “Bolluq” bazarının yerində 3 yaşayış binası inşa olunacaq.

**Vaxtilə “Bolluq bazarı”nda işləyən satıcılardan bir qismi yaxınlıqdakı “Aran” ticarət mərkəzinə köçüblər. Onların sözlərinə görə, indi çalışdıqları yerdə alver çox zəifdir:** “”Bolluq bazarı”nda vəziyyət çox yaxşı idi. Alıcı yetərincə gəlirdi, biz də normal çalışırdıq. Oranı söküdülər, bazarda işləyənlər isə işsiz qaldılar. Bəziləri bank borclarını ödəyə bilmədiyi üçün müflis oldu. Yerdə qalanlardan bəziləri bizim kimi hansısa bazarda, ticarət mərkəzində yer götürüb işləyirlər. Amma alver yoxdur. Yalandan hər gün dayanırıq burda, söhbət edirik, gedirik. Bizim satdığımız mallar əsasən inşaat materiallarıdır. Manat düşəndən sonra ölkədə tikinti durğunluğu var. Üstəlik, qiymətlərin qalxması ikiqat zərbədir. Alıcı qıtlığı çəkirik".

**Satıcılardan biri deyir ki, icarə haqlarını ödəməkdə belə çətinlik çəkirlər:** “Mən illərdir ki, alverlə məşğulam. Başqa bir iş də bacarmıram. Bazarı, çörək yerimizi sökdülər. İndi vəziyyətimiz çox pisdir. İcarə pulunu güclə ödəyirik, bəzən verə bilmirik. Bazar əgər pis idisə, təmir edəydilər. Amma sökdülər, yerində də bina tikəcəklər. Bizi düşünən olmadı. Buraya da özümüz köçmüşük. Bizə onların heç bir faydası dəyməyib”.

**Əraziyə yaxın yerdə yaşayan sakinlərlə söhbətləşdik. Tamilla Səfərəliyeva deyir ki, bazarın sökülməsini müsbət qarşılayır:** “Məncə, bazarın sökülməsi çox yaxşı olub. Çünki bura bazar yox, xəstəlik mənbəyi idi. Nəzarət edən olmadığı üçün bazar yaman günə qalmışdı. Xarab olan pomidor, xiyar, balıq, pendir hamısı yerə atılırdı. Mən yaxında yaşamağıma baxmayaraq, buradan bazarlıq etmirdim. Bir xeyli uzaqda olan marketə, bazara gedirdim, oradan evimə ərzaq alırdım. Amma bir məsələ də var ki, buranın yerində yaşayış binası tikmək istəyirlər. Bir bina olsa qorxusu yoxdur. Amma ikincini də tiksələr, bizim üçün çox pis olacaq. Həyət evlərinin qabağını kəsəcəklər”.

**Bazarın yaxınlığında dükan sahibi olan Azər adlı şəxsin sözlərinə görə, bazarın bağlanmağı onların da alverinə təsir edib:** “Bazar burada olanda camaat gəlirdi evinə ərzaq almağa. Onların sayəsində biz də bir az çörək pulu qazanırdıq. İndi yaman gündəyik. Təkcə mən belə deyiləm, yaxınlıqdakı hamı eyni gündədir. Manat ”öldükdən" sonra alıcı ümumiyyətlə yoxdur. İki aydır ki, icarə pulunu verə bilmirəm".

❑ **Məhəmməd TÜRKMƏ\N**
**Fotolar müəllìfìndìr.**







## Xaricdən 4500 dollara eşşək alınmasına aydınlıq gətirildi

**2014-cü ilin yanvar-dekabr aylarında Azərbaycana xarici ölkələrdən diri halda alınıb gətirilən heyvanların statistikası cəmiyyətdə geniş maraq doğurub. Az-politika.az saytının Dövlət Statistika Komitəsinə istinadən verdiyi məlumata görə, ötən il xaricdən ölkəmizə idxal olunan diri atlar, ulaqlar və qatırlar 29 baş təşkil edib ki, buna da 132,4 min ABŞ dolları xərclənib. Orta hesabla götürsək bir at və ya qatırın qiyməti 4500 dollardan baha başa gəlir. Ölkəyə orta səviyyəli bir avtomobil qiymətinə xarici at-eşşək gətirilməsi sosial şəbəkələrdə gülüş hədəfinə çevrildi.**

Qeyd edək ki, Azərbaycanın bölgələrində 20-30 manata ulaq, 100-200 manata normal bir at almaq mümkündür. Ulağın qiyməti ən yüksək halda 50 manat, atın qiyməti isə 500-600 manat ola bilər. Bəs görəsən, həmin heyvanları xaricdən 20-30 qat baha qiymətə almağa vadar edən səbəb nədir?

**Bu suala cavab tapmaq üçün Dövlət Statistika Komitəsinin mətbuat xidməti ilə əlaqə saxladıq. Komitə sözçüsü Sevda Süleymanova** bildirdi ki, alınan heyvanların hər biri cins atlar olub: “Məlumatda deyilir ki, ölkəyə 29 ədəd diri atlar, ulaqlar, qatırlar və at qatırları gətirilib. Bu, təsnifatın ümumi adıdır. Ancaq bu 29 ədəd heyvanın hər biri cins, saqqallı atlardır. Onların alınması üçün 132,4 min ABŞ dolları xərclənib. Ölkəyə qatır və ulaq gətirilməyib. Bu 29 ədəd heyvan yalnız atlar olub”.

❑ **Nərgiz LİFTİYEVA**

## Azərbaycanda məmur oğlu həbs edildi

### Oğlu həbs olunan icra başçısı müavini: “O, daha araq içməyəcək...”

**Zərdab rayon icra başçısının birinci müavini Allahverdi Səfərovun oğlu Ceyhun Səfərov bu il martın 22-də saat 16.00 radələrində sükan arxasında içkili vəziyyətdə olarkən polis zabitinin sənəd təqdim edilməsi tələbinə tabe olmaqdan imtina etdiyinə görə saxlanılıb.**

İcra hakimiyyətindən «Trend»ə bildiriblər ki, Zərdab Rayon Məhkəməsi tərəfindən C.Səfərov barəsində İnzibati Xətalar Məcəlləsinin 310.1-ci maddəsi ilə inzibati qaydada 5 sutka müddətinə həbs cəzası tətbiq edilib. Martın 27-də C. Səfərov həbs müddəti başa çatdığı üçün sərbəst buraxılıb.

“Oğlum mənə söz verdi ki, bir də spirtli içki içməyəcək”. Bunu azvision.az-a açıqlamasında Zərdab Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Allahverdi Səfərov deyib. O, oğlunun həbsi ilə bağlı mətbuatda yayılan xəbərlərə münasibət bildirib. Qeyd edib ki, bu əməlinə görə oğluna ciddi xəbərdarlıq edib: “Oğum Ceyhuna 5 sutka müddətinə həbs cəzası verilmişdi. İndi o, cəzasını çəkib azadlığa çıxıb. O, azadlığa çıxandan sonra içki içməməsi ilə bağlı ona xəbərdarlıq etim. İçkinin ziyanları barədə ona tövsiyələrimi bildirdim. O daha içki içməyəcək. Hazırda oğlum öz işi ilə məşğul olur”.

## Göyçayda ağır qəza

**Göyçay rayonunda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. APA-nın yerli bürosunun xəbərinə görə, hadisə dünən saat 11:00 radələrində Göyçay-Ucar yolunun 5-ci kilometrliyində, Göyçayın Hüngütlü kəndi ərazisində qeydə alınıb. Ucar rayonu Alpoud kənd sakini, 1973-cü il təvəllüdlü Abdullayev Fərhad Qubad oğlunun idarə etdiyi 10-MT-750 dövlət nömrə nişanlı, “VAZ 2107" markalı minik maşını yoldan çıxaraq ağaca çırpılıb.**

Hadisə zamanı sürücü ağır bədən xəsarətləri ilə Göyçay Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib. Onun həyat yoldaşı, 1981-ci il təvəllüdlü Lamiyə Abdullayeva aldığı ağır xəsarətlərdən hadisə yerində ölüb. Hadisənin yağışlı havada yolun sürüşkən olması səbəbindən baş verdiyi ehtimal olunur. Faktla bağlı Göyçay Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.

**Elan**

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

**Başsağlığı**

**Əjdər Əliyev, Faiq Zülfüqarov, Natib Bədəlov, Səftər Mehdiyev, Teyyub Zeynalov, Kəmaləddin İsmayılov, Vilayət Məmmədov, Kamal Kamal Talıbova atası**
**Əli kişinin**
**vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbəəti** təbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyüməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi *(enurez)***
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Yuxuda ikən qan təzyiqinin yüksək qalxması**
* Səhərə yaxın yüksək qan təzyiqi
* **Boyun-baş bel-ayaq ağrıları və asteoxondorz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*
SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

Təcili satılır

**Lökbatan qəsəbəsinin mərkəzində, H.Əliyev parkının yanında 220.kv.m evrotəmirli, 2 mərtəbəli, 7 otaqlı döşəməsi parket, qapıları və pilləkənləri palıd ağacından, telefonu, qarajı, hamamı, mətbəxi, həyətində meyvə ağacları olan 3 sot torpağın üzərində tikilmiş villa**

TƏCİLİ SATILIR.

**3-cü mərtəbəni də tikmək olar (mansard).**
**Qiyməti razılaşma yolu ilə (Real qiymətdən ucuz)**
**Əlaqə telefonları**: 077 - 769 - 59 - 10; **070** - 365 - 98 - 40; 012 - 497 - 43 - 04

**Elan**

**Jeleznovodsk şəhəri, stansiya Beştau, Qlinki-15 ünvanında ikimərtəbəli binanın 1-ci mərtəbəsində tam təmirli 2 otaqlı mənzil, kombi sistemi ilə təchiz olunub, avadanlıqları ilə birlikdə Bakı şəhərinin istənilən yerində mənzillə dəyişdirilir.**
**Əlaqə nömrəsi: +79283706928**

YENİ MÜSAVAT
N 66 (6094) 31 mart 2015

# Gəncə SOS Uşaq Kəndində işgəncə iddiası...

## Müəssisədə dörd ay işləyən Fazilə Abbasova uşaqların təzyiq və zorakılıq altında saxlanıldığını bildirir və yoxlama tələb edir...

**Gəncə SOS Uşaq Kəndləri Proqramından şikayət var. Gəncə şəhər, Kəpəz rayon, Sevinc qəsəbəsi sakini Fazilə Abbasova SOS Uşaq Kəndində məskunlaşan uşaqlara qarşı zorakılıq və şiddət olduğunu bildirir. Şikayətçinin sözlərinə görə, uşaqlarla dörd ay həmin yerdə yaşadığı müddətdə bilib ki, onlarla illərlə bu cür rəftar edilir. Kənddə yaşayan uşaqlar daim qorxu və təzyiq altındadırlar. Analar onlarla olduqca pis rəftar edir, uşaqlar təzyiq, təhdid və işgəncələrə məruz qalır və döyülürlər. F.Abbasovanın sözlərinə görə, bununla bağlı müəssisənin rəhbərinə və psixoloquna bir neçə dəfə məlumat versə də, onlar tədbir görməyiblər. Hətta o, Bakıdan gələn yoxlamaya da vəziyyəti deyib, ancaq yenə vəziyyət düzəlməyib.**







F.Abbasovanın sözlərinə görə, 2014-cü ilin avqust ayında Gəncədəki SOS Uşaq Kəndinə işləmək üçün müraciət edir. "Orada ana kimi işləmək üçün ərizə yazdım. Ərizəmi götürdülər və iki həftə müddətinə təlimdə olduğumu bildirdilər. Yəni iki həftə ərzində işimə, davranışıma baxıb ərizəmə cavab verəcəkdilər. Sentyabrın 1-dən işə başladım. Həftələr keçdi, ancaq məni işə götürmədilər. Orada uşaqlara baxmaq üçün 12 ana var idi. Həmin analar məzuniyyətə gedirdilər və onların əvəzinə evlərində qalırdım, işləyirdim. Beləliklə, dörd ay işlədim. Bu müddətdə hər dəfə oranın rəhbəri Nəsimi müəllimlə qarşılaşanda nə zaman mənimlə müqavilə bağlanacağını soruşurdum. Nəsimi müəllim o zaman direktorun köməkçisi işləyirdi, ancaq bütün məsələlərə o, nəzarət edirdi. O, mənə deyirdi ki, tezliklə müqavilə bağlayacağıq. Belə ötür-ötürə salırdılar",- deyə şikayətçi bildirir.

**Beləcə, dörd aydan sonra müəssisəyə yoxlama gələcəyindən xəbər tutan rəhbərlik 2015-ci ilin yanvarında F.Abbasovanı çağıraraq ona müqaviləyə qol çəkməyi tapşırıblar. Müqavilə isə ana namizədi üçün yox, könüllülük müqaviləsi olub:** "Mən evlərdən birində işləyərkən çağırıb hazır yazılmış müqaviləni göstərdilər ki, qol çəkim. Məni işə götürdüklərini bildirdilər. Baxmadan qol çəkdim, ancaq bir neçə gün sonra bildim ki, bu, könüllülük müqaviləsi imiş və dörd ay əvvəlki tarixlə yazılıbmış. Mən işə qəbul üçün ərizə yazanda ana namizədi kimi işləmək istədiyimi yazmışdım, həmin yer, həmin vakansiya üçün müraciət etmişdim. Könüllü işləmək üçün müraciət etməmişdim, çünki maddi vəziyyətim ağır idi. Ailəm və yaşamağa yerim yox idi. Onlar da məni aldatdılar. Mən biləndən sonra könüllülük müqaviləsinə etiraz edəndə mənə ailə köməkçisi işi təklif etdilər. Mən isə bunu qəbul etmədim".

**Şikayətçinin sözlərinə görə, işə götürülməməsinin səbəbi müəssisədə uşaqlarla olan kobud, amansız rəftarla razılaşmaması olub:** "Mən bu barədə baş idarədən gələn iki yoxlamaya da bildirdim. Ancaq heç bir tədbir görülmədi. Burada işləyəndə gördüm ki, uşaqlara münasibət yaxşı deyil, analar uşaqları daim qorxu, təzyiq altında saxlayırlar. Onlar uşaqların doğma anaları deyildi. Dövlət analıq etmək üçün onlara pul verirdi, öz uşaqları olmayan qadınlar idi. Onlar uşaqlara nəinki qayğı göstərmir, onları müntəzəm döyür, söyürdülər. Onlar üçün alınan ərzağı normal şəkildə bişirib vermirdilər. Soyuducu ərzaqla dolu olurdu, ancaq analar normal yemək bişirmirdilər. Uşaqlar günlərlə köhnədən qalma sup və borş yeməli olurdular. Mənim yemək bişirdiyimi görəndə uşaqlar təəccüblənirdilər ki, analarımız bizə bunu bişirmir. Analar özləri yedikləri yeməklərdən uşaqlara vermirdilər, uşaqlar yeməyə, şirniyyata baxa-baxa qalırdılar. Mən bunlara etiraz edirdim, buna görə məni oradan uzaqlaşdırdılar. Uşaqlara daim təzyiq və zorakılıq var idi. Mən bu barədə SOS-un psixoloqu Arzu xanıma və Nəsimi müəllimin özünə demişəm. Heç bir nəticə olmayıb. Başa düşdüyüm odur ki, onlar əlbir olublar və analarla birgə mənə qarşı çıxıblar. Uşaqlara ancaq yoxlama gələndə normal yeməklər verilirdi. Uşaqlar daim döyülürdülər. Bu səbəbdən böyük yaşlı uşaqlar da yatanda yerini isladırdılar, onlara pampers qoyulurdu. Uşaqlara təzyiqlər, təhdidlər dəhşətli idi. Öz anaları ilə danışan uşaqlar təhqir edilir, döyülürdülər. Uşaqlar orada şiddətli qorxu altında saxlanılırdı. Səksənə yaxın uşaqdır. Mən bununla bağlı Bakıdan, baş idarədən gələn yoxlamaya da dedim. Bu səbəbdən də Nəsimi müəllim məni işə götürmədi. İndi də eşitmişəm ki, uşaqları döyüb mənim əleyhimə ifadə almaq istəyirlər. Guya mən onlarla pis davranmışam. Əslində onlar uşaqlarla insanlığa sığmayan rəftar edirlər. məni polislə qorxudurlar, yalandan polisə mənim haqqımda şikayət veriblər".

**F.Abbasovanin sözlərinə görə, onun yazdığı ərizələrlə bağlı Əmək Müfəttişliyindən və Gəncə İcra Hakimiyyətindən gəlsələr də, vəziyyət dəyişməyib:** "Mən dövlət başçısına və xanımına müraciət ünvanlamağı planlaşdırıram. Qoy həmin uşaq kəndinə yoxlama göndərib oradakı özbaşınalığı, şiddəti araşdırsınlar. Heydər Əliyev Fondu, Mehriban xanım Əliyeva kimsəsiz uşaqlara daim diqqət ayırır, bu kimi şəxslər isə uşaqların taleyi ilə oynayırlar. Ümid edirəm ki, dövlət başçısına və xanımına ünvanlayacağım müraciətə baxılacaq. Uşaqlar yazıqdır. Buraya obyektiv şəkildə yoxlama gəlsə, araşdırsa, onların cinayətləri üzə çıxacaq. Bu qədər uşağın taleyi ilə oynamaq olmaz. Nə Allahdan, nə dövlətdən, qanundan qorxurlar".

**Qeyd edək ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti 21 saylı region üzrə dövlət əmək müfəttişliyi də məsələni araşdırıb. Müəyyən olunub ki, qadınla könüllük müqaviləsi bağlanıb:** "Təşkilatda könüllü kimi çalışdığı dövr ərzində o, sınaq müddətində idi və daima psixo-pedaqoji heyət tərəfindən müşahidə altında idi. Psixoloqun rəyinə əsasən, onun tərbiyəçi ana işinə uyğun gəlmədiyi bildirilib. Daha sonra ona əmək haqqı 170 manat olan ailə köməkçisi işi təklif edilib. O, buna etiraz edib". Bildirilir ki, müfəttişlik əmək qanunvericiliyinin tələblərinin pozulmasını aşkar etməyib.

F.Abbasova isə sual edir ki, psixoloqun onun barəsindəki rəy müsbət deyildisə, niyə ona vaxtında demirdilər? "Dörd ay niyə gözləyirdilər? Mən orada yazdığım ərizədə ana namizədi kimi işləmək istədiyimi bildirmişdim. Sonradan mənə müqavilə göstəriləndə də hesab etdim ki, artıq rəsmi işə başlayıram. Müqaviləyə baxmağa şərait yaratmadılar və qol çəkdim. Onun könüllülük müqaviləsi olduğunu bilməmişəm. Həmin ərizəni isə mən yazmamışam, başqasının xətti ilə yazılıb və məni aldadıblar. Bunu ekspertiza keçirib müəyyən etmək çətin deyil, amma etmirlər".

**Gəncə SOS Uşaq Kəndinin rəhbəri Nəsimi Ələkbərli isə məsələ ilə bağlı musavat.com-a baş verənləri təkzib edib. O bildirib ki, qadının dedikləri doğru deyil:** "Fazilə Abbasova könüllülük müqaviləsi bağlayıb və məsələni Dövlət Əmək Müfəttişliyi də araşdırıb, məsələ bağlanıb. Biz onu könüllü kimi işə götürmüşük. Mən onu zorla gətirib necə işlədə bilərəm? Özü işləyib. Deyir ki, müqavilə yanvarda bağlanıb. İstəyirsə, sənədi ekspertizaya göndərə də bilərəm. Zəhmət çəkib, müqaviləni oxuyub qol çəkəydi. Əmək münasibətləri ilə bağlı məsələ artıq həll olunub. Təzyiq məsələsinə gələndə isə xanım özü buradakı uşaqları şantaja cəlb edirdi. Deyib ki, gedin kənddə sizə qarşı edilənləri çəkin, Nəsimi müəllimin, anaların üzünə durun, sizə pul verəcəm. Mən bununla bağlı polis idarəsinə müraciət etmişəm ki, o xanım bu işdən əl çəksin".

**Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

# Türkiyə vətəndaşı Bakıda keçmiş arvadını bıçaqladı

## Abasıkeleş Nevzat Vəfa Nəbiyevanın dodağını bıçaqla ikiyə bölüb, üzünə, bədəninə xəsarətlər yetirib; "Onun Azərbaycana girişi yasaqlanmasa, məni gec-tez öldürəcək"

**Bakı şəhər Yasamal rayon sakini Vəfa Faiq qızı Nəbiyeva keçmiş əri tərəfindən bıçaqlanması və həyatına təhlükənin davam etməsi bağlı prezident İlham Əliyevə, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya və hüquq-mühafizə orqanlarının rəhbərlərinə müraciət edib. O, müraciətinin bir nüsxəsini də "Yeni Müsavat"ın əməkdaşına təqdim edərək, dərc olunmasını xahiş edib.**





**Vəfa Nəbiyevanın müraciətində deyilir:**

- Mən 2009-cu ildə Türkiyə vətəndaşı olan Nevzat Abasıkeleşlə Bakıda rəsmi şəkildə ailə həyatı qurdum. Bir qədər sonra biz Türkiyəyə köçdük. Orada bir oğlum dünyaya gəldi. Türkiyədə yaşadığımız müddətdə Nevzatın təhlükəli həyat tərzi keçirdiyini müşahidə etdim və ondan ayrılaraq Bakıya gəlməyə qərar verdim. 2012-ci ildə övladımla birlikdə Bakıya dönmək istədikdə, Nevzat buna imkan verməməyə çalışdı. Tələb etdi ki, uşağı qoyum gedim. Daha sonra mən Bakıdakı evimin söküldüyünü, kompensasiya almaq üçün sənədlərə imza atmalı olduğumu, bundan sonra yenidən Türkiyəyə qayıdacağımı bildirərək Azərbaycana gəldim. Bura gəldikdən sonra aidiyyəti qurumlara müraciət edərək, onunla nikahımızı pozdum. Bundan sonra - 2013-cü ildə Nevzat Bakıya gəlib məni tapdı və evimdə olarkən mənə hücum çəkdi. O zaman 102 xidmətinə zəng etdim, onun məni öldürməklə hədələdiyini bildirdim. Bundan sonra Nevzat qayıdıb Türkiyəyə getdi. 2014-cü ilin dekabrında yenidən Azərbaycana qayıtdı və məndən tələb etdi ki, ona öz evimdə oturum verim, burada yaşamaq istəyir. Mən də dedim ki, biz rəsmən boşanmışıq, bu ola bilməz. Onun Türkiyədə xoşagəlməz əməllərlə məşğul olduğunu bildiyimdən anlayırdım ki, burada bir növ gizlənmək istəyir. Ona burada mənim evimə qeydiyyata düşməklə oturum almasına razı olmadım. Bildirdim ki, biz ayrılmışıq, məndən əl çəksin. O isə məni öldürməklə hədələməyə başladı, yenə də polisə şikayət etdim, çıxıb getdi. 2015-ci il martın 25-də Nevzat yenidən mənim yaşadığım evə hücum çəkdi. Səhər evdən işə gedərkən tutub məni küçədə döyməyə çalışdı. Dərhal 102-yə və sahə müvəkkilinə məlumat verdim və maşınıma oturub qaçdım. Martın 26-da isə o, mənim Xətai rayonundakı iş yerimə gələrək, bayıra çıxmağımı tələb etdi. İçəri girib dava salmaması üçün bayıra çıxdım. Mənə zor tətbiq edərək, maşına oturmağımı və gedib ərazi üzrə Miqrasiya Şöbəsində oturum üçün razılıq verməyimi tələb etdi. Miqrasiya Şöbəsinə daxil olan kimi, oradakı polislərə zora məruz qaldığımı bildirdim və dərhal da 102-yə zəng etdim. Polislər Nevzatı 37-ci polis bölməsinə apardılar, bildirdilər ki, barəsində müvafiq tədbir görüləcək. Axşam saat 9 radələrində işdən çıxarkən maşınıma əyləşmək istəyəndə Nevzat yaxınlıqda dayanan "Mercedes" markalı maşından düşərək mənə hücum çəkib vəhşicəsinə döyməyə başladı. Yaxınlıqdan keçən bir şəxs və iş yoldaşlarımdan biri onu sakitləşdirməyə çalışanda cibindən bıçaq çıxararaq mənə və onlara bıçaq atmağa başladı. Onun əlindən qurtularaq maşına doğru qaçdım, 102-yə zəng etdim. Avtomobilə əyləşib qaçarkən qapını örtməyimə imkan vermədi və bıçaqla üz, bədən nahiyəmə xəsarətlər yetirməyə başladı. Mənə bıçaqla ağır xəsarətlər yetirdikdən az sonra polislər gəldi və onu zərərsizləşdirdilər. Məni isə qan içərisində klinikaya apardılar. Klinikada dodaq və çənə nahiyəmə ağır bıçaq xəsarəti yetirildiyini, alt dodağımın bıçaqla ikiyə bölündüyünü güzgüdə görəndə bayıldım. Daha sonra bildim ki, qulağıma da bıçaq vurub, qulaq seyvanı ikiyə bölünüb, tikiş qoyub birləşdiriblər. Mən ayılanda artıq palatada idim. Üz nahiyəmə, bədənimə çoxsaylı xəsarətlər yetirilib".

**V.Nəbiyeva ölkə rəhbərliyindən xahiş edir ki, N.Abasıkeleş barəsində ən ağır cəza tətbiq edilsin:** "Mən dövlətimə inanıram və əminəm ki, bu şəxs layiqli cəzasını alacaq. Məni özümün, anamın və oğlumun təhlükəsizliyi də narahat edir. Onun barəsində hüquqi baxımdan həbs cəzası kəsilməklə yanaşı, Azərbaycana girişinin yasaqlanmasını xahiş edirəm. Çünki bu adam kriminal mahiyyətlidir, qisasçıdır və məni öldürməsə əl çəkməyəcəyini deyib. Bu adam Türkiyədə atasına belə bıçaq çəkib. Mənim təhlükəsizliyim üçün zəruri olan addımların atılmasını ölkə rəhbərliyindən xahiş edirəm. Onun ölkəyə girişi əngəllənməsə, məni gec-tez öldürəcək".

**M.MAHRIZLI**

YENİ MÜSAVAT

Son səhifə

N 66 (6094) 31 mart 2015



## Göbələyin faydası

Qida dəyərinə görə göbələklər ətdən, meyvə və tərəvəzlərdən geri qalmırlar. Göbələklər zülal və karbohidratlarla, aminturşularla, B, C, E, PP, D, fosfor, kalium, sink, dəmir, kalsium, yod, fosfor, fol turşusu ilə zəngindir. Lakin göbələkdə yağlar az olduğu üçün onlar az kalorili qida sayılır və arıqlamaq məqsədilə pəhriz saxlayanlar göbələkdən istifadə edə bilərlər. Göbələyin tərkibində olan lesitin orqanizmdə xolesterinin yığılmasına mane olur. Bu səbəbdən göbələklər ürək-damar xəstəlikləri və müxtəlif maddələr mübadiləsi pozğunluqları zamanı çox xeyirlidir. Ateroskleroz, piylənmə, diabet, hipertoniya və s. xəstəliklərinin profilaktikası üçün göbələklərdən istifadə edilməsi yaxşı effekt verir. Sink və B qrupu vitaminlərlə zəngin olduğu üçün göbələklər fiziki və əqli yorğunluq, stress, gərginlik zamanı insan orqanizminə çox yaxşı kömək edir. Bundan əlavə, göbələklər xüsusi maddələr - antioksidantlarla olduqca zəngindir. Bu maddələr onkoloji xəstəliklərdən əziyyət çəkən insanlara kömək edir.

ABŞ-ın Milli Xərçəng Mərkəzinin alimləri sübut ediblər ki, göbələklərdə xərçəng əleyhinə olan xüsusi maddələr var. Misal üçün, alimlərin fikrinə görə, şampinyonlardan istifadə olunması qadınları süd vəzisi xərçəngindən qoruyur.

# 1 sentlik ev

Amerikada ilk dəfə hazırlanan 1 sent Nyu-Yorkda bir ev qiymətinə satılıb. Amerikada hərraca çıxarılan ilk 1 sent rekord qiymətə satılıb. Məlumatlara görə, bu qəpiklərdən yalnız 7-si qalıb. Texaslı kolleksiyaçı tərəfindən hərraca çıxarılan 1 sent 1 milyon 175 min dollara satılıb. Amerikanın azadlıq müharibəsindən 9 il sonra tədavülə çıxarılan 1 sentlik pulların bir başqası isə ötən il 2 milyon 500 min dollara satılmışdı.



Məlumat üçün bildirək ki, "Birch Centi" olaraq tanınan bu qəpiklər "Xırda pulların Mono Lizası" olaraq dəyərləndirilir. Sonuncu dəfə satılan 1 sentin qiymətinə Nyu-Yorkda ev almaq mümkündür. Hazırda Nyu-Yorkun Mahattan bölgəsində 84 kvadrat metrlik 3 otaqlı ev 1 milyon 189 min dollara satılıb.

# 23 yaşda böyük cəsarət

Bir çox qadınlarda özünü göstərən polikistikover sindromu Harnam Kaurun da həyatını cəhənnəmə çevirib. 23 yaşlı qız orqanizmində dəyişikliklər olduğu üçün tüklənmədən əziyyət çəkir. Onun üzündə və bədənində həddən artıq tük var və tüklərdən xilas ola bilmir. Harnam uzun müddət bu xəstəlikdən xilas olmaq üçün müalicə edilsə də, heç bir nəticə əldə edə bilməyib. Gözəl geyinməyi, makiyaj etməyi sevən gənc üzündəki və bədənindəki tüklərə görə bir müddət evdən bayıra çıxmayıb. İnsanlar onu təhqir etməyə və söyməyə başlayıblar. Bir müddət əvvəl isə özünü bu şəkildə insanlara qəbul etdirəcəyinə and içib. Üzündəki tükləri uzatmağa başlayıb. Artıq tüklərindən xilas olmaq üçün həddən çox pullar xərcləmir və özünü üzmür. Sosial mediada insanların onu təhqir etməsinə və söyməsinə məhəl qoymadan öz şəkillərini paylaşır. Harnam bu hərəkətləri ilə bu xəstəlikdən əziyyət çəkən digər insanları da ürəkləndirməyə çalışır.





## Narkotikli şirniyyat yedi, şoka düşdü

Amerikanın Miçiqan ştatında yaşayan 58 yaşlı kişi içində narkotik olan şirniyyat yediyi üçün xəstəxanaya düşüb. Səhər oyandığı zaman qızının hazırladığı şirniyyatdan yeyən ata bədəninin bir hissəsinin uyuşduğunu hiss edib. İflic keçirdiyini düşünüb və evə təcili tibbi yardım maşını çağırıb. Xəstəxanaya aparılan kişidən analizlər götürüldükdən sonra gerçək ortaya çıxıb. Həkimlər onun yediyi şirniyyatın içində marixuana növlü narkotik maddə olduğundan bədəninin uyuşduğunu deyiblər. Atasından sonra xəstəxanaya gedən qızı 17 yaşlı qız şirniyyatı özünün hazırladığını, heç kəsin ona toxunmayacağını düşündüyü üçün ortaya qoyduğunu açıqlayıb. Atası xəstəxanadan çıxarıldıqdan sonra 17 yaşlı qız polislər tərəfindən nəzarətə götürülüb. Polislər onun həbs olunma ehtimalının yüksək olduğunu deyiblər. Lakin ata və qızın adları açıqlanmayıb.

## Qoroskop




QOÇ - Göy qübbəsinin qənaətlərinə görə, yavaş-yavaş həyatın nəbzini tutmağa başlamısınız. Daxili sarsıntılarınız da səngiməkdədir. Odur ki, haqq-ədalət prinsipinə əməl etməlisiniz. Ulduzlar sizə təzə xəbərlər də yetirəcək.

BUĞA - Əsas diqqətinizi yarımçıq işlərinizin həllinə yönəldin. Paralel olaraq bir neçə işlə məşğul olmaq da yaxşıdır. Saat 15-dən sonra maraqlı adamlarla görüşəcəyiniz güman olunur. Amma bu görüşlər işlə bağlı olmayacaq.

ƏKİZLƏR - Astroloji göstəricilərə görə, ümumi əhvalınız qənaətbəxş olsa da, iş yerində çətinliyiniz olacaq. Bu səbəbdən üzərinizə düşən vəzifələrin məsuliyyətini hiss etməlisiniz. Görüş yerlərinə gecikməyin.

XƏRÇƏNG - Bu təqvimi mənalı tərzdə başa vuracaqsınız. Xüsusən də sevgi münasibətlərində cərəyan edən proseslər ürəyiniz istəyən istiqamətdə inkişaf edəcək. Bacardığınız qədər darıxdırıcı işlərdən uzaqlaşın.

ŞİR - Ətrafınızda mövcud olan "səbəbsiz" gərginlikdən narahat olmayın. Tərəfdaşlarınıza qərəzli şəkildə yanaşmasanız, vəziyyət yaxşılaşa bilər. Qida və yuxu rejiminizə fikir verin. Səhər saatlarında isə aldığınız təkliflərə razılıq verməyin.

QIZ - Əlinizə düşən fürsətdən istifadə etsəniz, bu gündən xeyli bəhrələnə bilərsiniz. Əks təqdirdə karyeranız üçün uğurlu anlar əlinizdən çıxa bilər. İnsanlara qarşı inamsızlığınız heç də yaxşı əlamət deyil. Müdiriyyətlə xoş davranın.

TƏRƏZİ - Ulduzlar sürpriz dolu bir gün yaşayacağınıza imkan verəcək. Amma belə məqamda kiməsə yalan satmaq, hiyləgərlik etmək yolverilməzdir. Çünki sonradan bundan öz əleyhinizə istifadə edə bilərlər.

ƏQRƏB - Lazımi adamlarla görüşlər təşkil etməklə problemli işlərinizi yoluna qoya bilərsiniz. Maddi sıxıntılarınızın azalacağını bildirən ulduzlar səmimi və təbii olmağı, reallığa düzgün qiymət verməyi məsləhət görür.

OXATAN - İşgüzarlığınızı artırmaq üçün ətrafınıza layiqli tərəfdaşlar toplayın. Aldığınız hər bir təklifə başdansovdu yanaşmamalısınız. Yeni işə keçmək planınız varsa, bu gün qəti qərar verməlisiniz.

OĞLAQ - Maraqlı hadisələrlə rastlaşacağınız gözlənilir. Hətta könülaçan məclislərdə də iştirak edə bilərsiniz. Tənbəlliyi bir kənara atın və öz səhvlərinizi başqasının ayağına yazmayın. Xilasınız məhz bundadır.

SUTÖKƏN - Öhdənizə götürdüyünüz işlərə məsuliyyətlə yanaşsanız, günün sonunadək maddi durumunuzu təmin edə biləcəksiniz. Hətta özünüzü yaxşı aparsanız, maddi imkanınız qənaətbəxş olacaq. Hər boş sözə əhəmiyyət verməyin.

BALIQLAR - Axır ki, üzüntülü anlarınız başa çatacaq. Odur ki, bütün ciddi işlərin həllini sürətləndirməli, sevdiyiniz adamlarla yeni münasibətlər sisteminə keçməlisiniz. Ulduzlar uzaq səfərlərinizi təxirə salmamağı məsləhət görür.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Saqqala görə həbs edildi



Çin mediasından yayılan məlumatlara görə, Şincan bölgəsində yaşayan kişi saqqal saxladığı üçün həbs edilib. Kaşqar məhkəməsindən verilən açıqlamada deyilir ki, 38 yaşlı kişiyə saqqal saxlayıb, insanları narahat etdiyi üçün 6 il, arvadına isə hicaba keçib, uzun paltarlar geydiyi üçün 2,5 il həbs cəzası verilib. Məlumatlara görə, 2010-cu ildən etibarən kişi saqqal saxlamağa başlayıb, arvadı isə hicaba keçib. Cütlüyə saqqal və hicab əleyhinə bir neçə dəfə xəbərdarlıq edilsə də, onlar deyilənləri dinləməyiblər. Bir neçə gün əvvəl məhkəməyə çıxarılan cütlüyün həbs edilməsi bir çoxlarını təəccübləndirib.

Məlumat üçün bildirək ki, son illərdə Uyğur bölgəsində kişilərin saqqal saxlaması əleyhinə kampaniyaya start verilib. Qadınların isə başlarını bağlaması narazılıqla qarşılanır.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300